**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**AZƏRBAYCAN DİLLƏR UNİVERSİTETİ**

*Əlyazması hüququnda*

**NƏRGİZ MÜBARİZ qızı ZALOVA**

# AVROPA SİYASƏTİNDƏ İSLAM FAKTORU (MÜASİR MƏRHƏLƏDƏ)

**HSM-060213- Beynəlxalq münasibətlər tarixi və nəzəriyyəsi**

**Magistr elmi dərəcəsi almaq üçün təqdim edilmiş**

**D İ S S E R T A S İ Y A**

Elmi rəhbər: _____________

*S.Ə. İmanova*

*tarix üzrə fəlsəfə doktoru*

**BAKI - 2017**

# MÜNDƏRİCAT

**Giriş………………………….………………………...…....….3-8**

**I Fəsil. İslam dininin Avropada yayılması və müasir vəziyyəti............9-41**

1.1. Avropada islam dininin təşəkkülünün əsas mərhələləri……………....…9-20

1.2. Müasir Avropada müsəlman icmaları: yayıldığı ərazilər və təşkilatlanması……………………………....……..……………………....20-31

1.3.Avropanın siyasi, iqtisadi və mədəni həyatında müsəlmanların iştirakı..31-41

**II Fəsil. Avropada islamafobiyanın səbəbləri, formaları və nəticələri....42-73**

2.1. Müsəlman miqrantlar və Avropa dəyərləri.........................................42-52

2.2. Avropada islamafobiyanın səbəbləri və təzahür formaları......................52-65

2.3. Avropa dövlətlərinin islamafobiya siyasətinin beynəlxalq və regional mərhələləri.............................................................................................65-73

**Nəticə.........................................................................................74-76**

**İstifadə olunmuş ədəbiyyat siyahısı.......................................................77-83**

# GİRİŞ

**Mövzunun aktuallığı**. Tarixi inkişaf prosesində Avropa ölkələrində təşəkkül tapmış müsəlman icmaları İkinci dünya müharibəsindən sonra işçi miqrantların, iqtisadi cəhətdən sürətlə inkişaf edən bu regiona axını nəticəsində daha da genişlənmişdi. Son illərdə miqrantların yeni dalğalarının "Qoca qitəyə" üz tutması burada millətçilik və ksenofobiya hallarının artmasına səbəb olmuşdur. 2001-ci il sentyabrın 11-də Nyu-Yorkda törədilmiş terror aktlarından sonra baş qaldırmış antimüsəlman çıxışlar, 2004-cü ilin martında Madriddə, 2005-ci ilin iyulunda Londonda baş vermiş partlayışlar, 2006-cı ildə Danimarkada "karikatura qalmaqalı", 2015-ci ilin yanvarında Fransada "Şarli Ebdo" jurnalının redaksiyasına hücum və törədilmiş qətllər və s. hadisələr Avropada islamofobiyanın güclənməsi ilə müşayət olunur. BMT, Avropa İttifaqı və digər beynəlxalq və regional təşkilatlar çərçivəsində irqçilik, ksenofobiya və onun təzahür formalarından biri olan islamofobiya dəfələrlə mühakimə olunmuş, onun yolverilməz olduğu bəyan edilmiş, lakin bu mənfi halların mövcudluğuna son qoyulmamışdır. Bütün bunların baş vermə səbəbləri, təzahür formaları və nəticələri elmi-tədqiqat obyekti olaraq maraq doğurur və tədqiqat obyekti kimi seçilmiş mövzunun aktuallığına dəlalət edir.

Avropa tarixən demokratiyanın, demokratik dəyərlərin təşəkkül tapıb inkişaf etdiyi, universal insan hüquq və azadlıqlarının qorunduğu bir məkan kimi tanınmışdır. Buna baxmayaraq, son onilliklərdə bu regionda müsəlmanlara münasibətdə ayrı-seçkilik müşahidə olunur, onların istər əmək bazarında, istərsə də ictimai və sosial həyatda hüquqlarının pozulması haqqında, fiziki təzyiqlərə məruz qalmaları barədə məlumatlar getdikcə çoxalır. Şübhəsiz ki, bütün bunlar demokratik dəyərlərlə, insan haqları və azadlıqları barədə beynəlxalq hüquq normaları ilə ziddiyyət təşkil edir və problemin tədqiqi müasir Avropa demokratiyasının mahiyyətinə, meyarlarına, prinsiplərinə, standartlarına və ziddiyyətlərinə aydınlıq gətirmək baxımından da əhəmiyyətlidir.

Müasir dünyada "Əl-qaidə", "İŞİD" və s. terror təşkilatlatları özlərinin qeyri-insani hərəkətlərini "islam təəssübkeşliyi" adı altında həyata keçirirlər və onların bu

gün istər müsəlman, istərsə də qeyri-müsəlman ölkələrində törətdikləri terror aktları sonda bütövlükdə islam dinin, müsəlman dünyasının nüfuzuna zərbə endirir, islamofobiyanın yaranmasını stimullaşdırır. Həqiqətdə isə, haqqında bəhs olunan təşkilatların Qərb ölkələrinin özlərinin layihəsi olduğunu söyləməyə kifayət qədər əsas vardır, yəni radikal islamçı təşkilatların fəaliyyəti islam dünyası üzərində ağalaıqlarını təmin etməkdə bu ölkələrə yardım edir. Bunu nəzərə alaraq, Avropa siyasətində islam dini mövzusunu öyrənməklə həm də  Avropa ölkələrinin məkrli xarici siyasətlərinə işıq salmaq olar.

Hal-hazırda Azərbaycan Respublikası ilə Avropa İttifaqı arasında siyasi, iqtisadi və mədəni sahələrdə çoxşaxəli əlaqələr mövcuddur, müxtəlif sahələrdə, xüsusilə də enerji sahəsində iri miqyaslı birgə layihələr həyata keçirilir. Azərbaycan Avropanın həm enerji təhlükəsizliyinin təmin olunmasında iştirak edir, həm də onun üçün Şərqə açılan qapı rolunu oynayır. Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə tənzimlənməsi prosesi ATƏT-in Minsk qrupunun vasitəçiliyi ilə davam etdirilir. Şübhəsiz ki, bu əlaqələrin daha da  inkişaf etdirilməsi hər iki tərəfin maraqları dairəsindədir. Avropada islamofobiyanın güclənməsi onun, müsəlman əhalinin mütləq üstünlük təşkil etdiyi Azərbaycanla əlaqələrinə də ziyan vura bilər. Buna görə də, bu problemin aradan qaldırılması ikitərəfli münasibətlərdə müzakirə obyektinə çevrilməlidir. Məsələnin mahiyyətini və səbəblərini öyrənmədən bu sahədə müsbət nəticə əldə etmək mümkün deyildir. Deməli, mövzunun öyrənilməsinin aktuallığı həm də  Azərbaycan - Avropa İttifaqı əlaqələri ilə bağlıdır. Avropa ölkələrində kifayət qədər azərbaycanlının yaşadığı nəzərə alınsa, problemin tədqiqinin nə dərəcədə vacib olduğu bir daha üzə çıxar.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev islamofobiyanın təhlükəsi, Azərbaycanın dinlərarası dialoqu inkişaf etdirmək istiqamətində atdığı addımlar barədə demişdir: “Biz islamofobiyaya qarşı açıq şəkildə mübarizə aparırıq. Ən yüksək səviyyədə - Prezident səviyyəsində bəyanatlar verilib. İslamofobiya çox böyük təhlükədir, böyük ədalətsizlikdir. Gələcəkdə sivilizasiyalararası münaqişələrə gətirib çıxara bilər. Ona görə, həm ölkə daxilində, həm xaricdə biz İslam mədəniyyətini təbliğ edirik. Dünyanın inkişaf etmiş ölkələrində Azərbaycanın

təşkilatçılığı ilə mütəmadi qaydada sərgilər, təqdimatlar, mədəni proqramlar təşkil edilir. Azərbaycan dinlərarası, millətlərarası əlaqələrin inkişafı üçün də fəal rol oynayır. Bizim təşəbbüsümüz ilə Bakıda artıq bir neçə dəfə Beynəlxalq Humanitar Forum keçirilmişdir. Üç dəfə Mədəniyyətlərarası Dialoq Forumu keçirilmişdir. Dünya dinlərinin liderlərinin Zirvə görüşü keçirilmişdir. Gələn il BMT-nin Sivilizasiyalar Alyansının Qlobal Forumu keçiriləcəkdir. Qeyd etməliyəm ki, bütün bu tədbirlərdə ISESCO fəal iştirak edir. Budur bizim dinlərarası, mədəniyyətlərarası münasibətlərə töhfəmiz" (5).

**Tədqiqat işinin obyekti və predmeti**. Müasir dövrdə Avropa siyasətində islam amili, qitədə mövcud olan islamofobiya fenomeni tədqiqat işinin obyektini təşkil edir. Dissertasiya işinin predmetinə isə Avropa müsəlmanlarının vəziyyəti, onların üzləşdikləri problemlər, islamofobiyanın səbəbləri, təzahür formaları, onun meydana gəlməsində və genişlənməsində Qərb ölkələrinin rolu ilə bağlı məsələlər daxildir.

**Mövzunun öyrənilmə dərəcəsi**. Son onilliklərdə islam faktoru və islamofobiya Avropa ölkələrinin, demək olar ki, hamısının siyasətində özünə yer tapmışdır və bu da tədqiqatçıların diqqətindən kənarda qalmamışdır. Təssüf hissi ilə qeyd etmək lazımdır ki, tədqiqatçıların müəyyən hissəsinin, xüsusilə də Qərb ölkələrinin təmsilçilərinin əsərlərində əsas meyl islam dinini müasir terrorizmi qidalandıran, qeyri-stabilliyə səbəb olan bir fenomen kimi göstərməkdən ibarətdir. A. Kupriyanov (57), T. Sarratsin (71) və O. Fallaçinin (78) əsərlərini buna misal göstərmək olar.

İslam dininin Avropada yayılması, burada müsəlman icmalarının formalaşması məsələləri D. König (20), F. Kardini (52), A.V. Ponomarenko (67) və H. Ülkünün (77), tədqiqat prosesinə cəlb olunmuş əsərlərində geniş şərh olunmuşdur. Avropa ölkələrinin ictimai-siyasi, sosial-iqtisadi və mədəni həyatında müsəlmanların iştirakı ilə bağlı məsələrə A. Goldberq (21), R. Levau (23), R. Bekk (34) və S. Borodayın (35) əsərlərində yer verilmişdir.

Avropada yayılmış ksenofobiyanın əsas təzahür formalarından biri islamofobiyadır. İnsanlar onların etnik mənsubiyyəti, sosial vəziyyəti, siyasi baxışları və s. deyil, məhz müsəlman olması əsas götürülərək ayrı-seçkiliyə, təqib və təzyiqlərə məruz qalır. M. İsmayılov (6), N. Nuriyev (10), A. Akberov (31), İ.L. Şarapova (86),

O.M. Şevçenko (87) və D.S. Yuryevnanın (89) tədqiqatlarında islamofobiya və onu şərtləndirən amillərə aydınlıq gətirilmişdir. Bu tədqiqatlarda islamofobiyanın tarixi, demoqrafik, sosial-iqtisadi və siyasi səbəbləri konkret faktlar əsasında üzə çıxarılmışdır.

S. Alliyevi öz tədqiqatında Avropada məscidlərin fəaliyyətinə qoyulan məhdudiyyətləri işıqlandırmışdır (16).

R.L. Syükiyaynen müsəlmanların Avropadakı həyatını çətinləşdirən səbəb kimi Şərq və Qərb hüquq mədəniyyətləri arasındakı fərqləri göstərir (73). Türkiyəli tədqiqatçı M.Aktaş da islamofobiyanın səbəbləri sırasında mədəniyyət fərqliliyini önə çəkir (15). Şübhəsiz ki, bu müəlliflərin fikirlərində həqiqəti əks etdirən məqamlar kifayət qədərdir, lakin yalnız mədəniyyətlərdəki fərqlərə əsaslanmaqla, digər amilləri, xüsusilə də irqçilik, dözümsüzlük, ayrı-seçkilik və s. ilə bağlı səbəbləri arxa plana keçirməklə problemin mahiyyətini tam üzə çıxarmaq çətindir.

Akademik R. Mehdiyev Avropada islamofobiyanın mövcudluğunu qitə ölkələrinin ədalətsiz siyasəti, onların ikili standartlara əsaslanan addımları ilə əlaqələndirir (7). Oxşar yanaşma Y. Netesovanın tədqiqatında da (60) müşahidə olunur. Bu müəllifin qənaətinə görə, məhz Avropa ölkələrinin diskriminasiya siyasəti, miqrantlar haqqında qanunvericiliyi sərtləşdirməsi və s. belə addımlar sonda müsəlmanların radikallaşması ilə nəticələnir.

Dissertasiya işinin yerinə yetirlməsi prosesində maraq doğuran əsərlər sırasında M. Robinson (27), P. Şervel (28) və A.A. İqnatenkonun (48) tədqiqatlarını da qeyd etmək lazımdır. Qeyd olunan müəlliflər konkret faktlar əsasında sübut etmişlər ki, islam adından çıxış edən və dinc insanlarda, o cümlədən avropalılarda müxtəlif fobiyalar yaradan terorçu təşkilatlar məhz Qərb ölkələrinin xüsusi xidmət orqanlarının layihəsidir. Bu məqam öyrənilən problemlə bağlı bir çox məsələlərə aydınlıq gətirməyə imkan verir.

**Tədqiqat işinin məqsədi və vəzifələri**. Avropa siyasətində islam faktorunun, qitədə davamlı olaraq genişlənən və dərinləşən islamofobiyanın araşdırılması tədqiqat işinin məqsədini təşkil edir. Bu məqsədə nail olmaq üçün aşağıdakı vəzifələr müəyyənləşdirilmişdir:

-Avropada islam dininin yayılmasının tarixi mərhələlərinə nəzər yetirmək;

- müasir dövrdə Avropa ölkələrində müsəlmanların məskunlaşma coğrafiyasını müəyyənləşdirmək;

- diqqəti Avropa müsəlmanlarının təşkilatlanması ilə bağlı məsələlərə cəlb etmək;

- Avropanın ictimai-siyasi, sosial-iqtisadi və elmi-mədəni həyatında müsəlmanların iştirakını izləmək;

- müsəlmanların Avropa cəmiyyətinə inteqrasiyası prosesinə diqqət yetirmək, bu prosesə mane olan amilləri göstərmək;

- Avropada islamofobiyanın səbəblərini, təzahür formalarını və nəticələrini tədqiq etmək;

- Avropanın bəzi ölkələrində islamofobiyadan xarici siyasət vasitəsi kimi istifadə olunması məsələsinə aydınlıq gətirmək.

**Tədqiqatın metodoloji əsasları**. Magistr dissertasiyasının yerinə yetirilməsi zamanı siyasi, sosial-iqtisadi və mədəni-humanitar proseslərin təhlili məqsədilə tətbiq edilən nəzəri və empirik metodlardan istifadə olunmuşdur. Qarşıya qoyulan məqsədə çatmaq və vəzifələri yerinə yetirmək üçün istifadə olunan metodlar sırasında tarixilik, analiz, sintez, sistem yanaşma, müqayisəli təhlil, induksiya, deduksiya və s. göstərmək olar.

**Dissertasiyanın elmi yeniliyi**. İslam dininin Avropa cəmiyyətində və siyasətində yeri və rolu barədə istər Azərbaycanda, istərsə də onun hüdudlarından kənarda çoxlu sayda tədqiqatlar aparılmışdır. Əcnəbi, xüsusilə də Qərb tədqiqatçılarının əsərləri üçün hadisələrin birtərəfli, çox vaxt qeyri-obyektiv təhlili xarakterikdir. Azərbaycanlı tədqiqatçıların əsərlərində isə məsələlərə fraqmentar yanaşılmış, mövzu ilə bağlı ayrı-ayrı aspektlər diqqət mərkəzində saxlanılmışdır. Yerinə yetirilən dissertasiya işinin elmi yeniliyi isə müsəlmanların Avropa mühitinə inteqrasiyası prosesini və mexanizmlərini, bu zaman onların üzləşdikləri çətinlikləri, islamofobiya və ayrı-seçkilik problemlərini, bu mənfi hallardan geosiyasi məqsədlər üçün istifadəni kompleks şəkildə tədqiq etmək cəhdlərindən ibarətdir.

**Tədqiqat işinin elmi və praktik əhəmiyyəti.** Dissertasiyanın özündə ehtiva etdiyi məlumatlar, alınan nəticələr və aparılan ümumiləşdirmələr Avropanın siyasi həyatında islam dininin yeri və rolu ilə bağlı bir çox suallara aydınlıq gətirilməsi baxımından əhəmiyyətlidir.

İş prosesində əldə edilmiş nəticələrə əsaslanaraq, tədqiq olunan problemlə bağlı müəyyən proqnozların verilməsi və qiymətləndirmələrin aparılması mümkündür. Bundan başqa, bu sahədə yeni tədqiqatların aparılmasında dissertasiyanın materiallarından istifadə oluna bilər.

Tədqiqat işində yer almış materiallar mövzu ilə bağlı dərsliklərin, metodik vəsaitlərin, tədris proqramlarının, mühazirə mətnlərinin hazırlanmasında da əhəmiyyətli ola bilər.

**Tədqiqat işinin aprobasiyası**. Magistr dissertasiyasının əsas müddəaları, müəllifin dərc olunmuş və aşağıda göstərilən məqalə və tezislərində öz əksini tapmışdır: dissertasiyasının əsas müddəaları, müəllifin dərc olunmuş və aşağıda göstərilən məqalə və tezislərində öz əksini tapmışdır: Magistr

1. Zalova N. Müasir Avropa siyasətində İslam faktoru// Qərb Universiteri Bakı 2016
2. Zalova N. Avropanın siyasi, iqtisadi və mədəni həyatında müsəlmanların iştirakı // ADU-nun Elmi Xəbərləri nömrə 3- çapdadır
3. Zalova N**.** Müsəlman miqrantlar və Avropa dəyərləri //( Beynəlxalq Münasibətlərin aktual problemləri Nomrə 3 çapdadır)

**Dissertasiyanın strukturu.** Magistr dissertasiyası “Giriş ”, iki fəsil, altı paraqraf , “Nəticə” və “İstifadə olunmuş” ədəbiyyat siyahısı”ndan ibarətdir.

# I FƏSİL –İSLAM DİNİNİN AVROPADA YAYILMASI VƏ MÜASİR VƏZİYYƏTİ

## 1.1.Avropada islam dininin təşəkkülünün əsas mərhələləri

İslam dini VII əsrdə Ərəbistan yarımadasının qərbində, bu vaxta qədər bütpərəstliyə sitayiş edən ərəb tayfaları arasında meydana gəlmişdir. Banisi Məhəmməd peyğəmbər olan yeni din insanlara, onun əsas kitabı olan Quran vasitəsilə çatdırılmışdır.

İslamın müxtəlif ərəb tayfaları arasında yayılması prosesi Məhəmməd peyğəmbərin sağlığında başlamış və onun ölümündən (632) sonra, Xəlifələr (Əbu Bəkr, Ömər ibn əl Xəttab, Osman ibn Affan və Əli ibn Əbu Talib) dövründə (632-661) davam etmişdi. Fəal xarici siyasət həyata keçirən Ərəb Xilafəti əvvəlcə Əməvilər sülaləsinin (661-750), sonradan isə Abbasilər sülaləsinin (750-1258) hakimiyyəti illərində geniş miqyaslı işğallar həyata keçirmişlər. Nəticədə Ön Asiya, Cənubi Qafqaz, Mərkəzi Asiya, Şimali Afrika ərəblər tərəfindən işğal olunmuş, Xilafətin şərq sərhədləri Hindistan və Çinə qədər uzanmışdı.

İslamın Avropada yayılması üç mərhələdə baş vermişdir. Birinci mərhələ VII əsrin ikinci yarısında Ərəb xilafətinin Avropadakı işğalları ilə başlamış və XIV əsrə, Osmanlı dövlətinin Avropa istiqamətində genişlənməsinə qədər davam etmişdi. İkinci mərhələ Osmanlı imperiyasının fəaliyyəti ilə bağlıdır və XIV əsrdən XX əsrin əvvəllərinə qədər olan dövrü əhatə edir. XX əsrdə, Asiya və Afrikadakı keçmiş Avropa müstəmləkələrindən, SSRİ-nin süqutundan sonra müsəlman regionlarından əhalinin miqrasiyası nəticəsində Avropada islamın yayılmasının üçüncü mərhələsi baş vermiş və bu mərhələ bu gün də davam edir.

İslam dininin Avropaya nüfuz etməsinin başlanğıcı erkən orta əsrlərə təsadüf edir. 633-640-cı illərdə Suriya və Fələstin, 639-646-cı illərdə Misir ərəblər tərəfindən işğal olunduqdan sonra yerli əhali islamı qəbul etdi. Əksəriyyəti xristian-monofizit olan yerli əhalinin müxtəlif təbəqələri Bizansın zülmünə məruz qalır və bu səbəbdən də onlar islamı könüllü olaraq qəbul etmişdilər. Məhz islamı qəbul edən suriyalı, fələstinli və misirli dənizçilərin iştirakı ilə Ərəb Xilafəti Avropada, konkret olaraq,

Aralıq dənizi sahillərində işğallara başlamışdı. 649-cu ildə Suriya canişini Müaviyyə ibn Əbu Sufyan Kiprə hücum etdi (52, s. 16). Kipr 651-ci ildə ərəblərin əlinə keçdi (77, s. 103). 652-ci ildən başlayaraq Xilafət hərbçilərinin Siciliya adasına hücumları başladı (52, s. 17). Müəyyən hərbi uğurlara baxmayaraq, VIII əsrin 20-ci illərinin sonlarına qədər adanı tamamilə nəzarətə götürmək mümkün olmamışdı.

VII əsrdə Aralıq dənizi sahilləri əsasən Bizans imperiyasının təsir dairəsinə daxil idi və bu səbəbdən də Ərəb Xilafəti ilk növbədə bu imperiya ilə toqquşmalı olmuş, hətta onun paytaxtı Konstantinopolu ələ keçirməyə cəhd etmişdi.

669-cu ildə xəlifə Müaviyyə Bizans paytaxtını tutmaq üçün ora donanma göndərdi və şəhəri mühasirəyə aldı. Mühasirənin 6 il davam etməsinə baxmayaraq, ərəblər Konstantinopola daxil ola bilmədilər və geri qayıtmaq məcburiyyətində qaldılar (77, s. 149-150).

709-710-cu illərdə Afrikanın şimalının işğalını başa çatdıran ərəblər buradan Avropaya, Piriney yarmadasına doğru irəliləməyi qərara aldılar. Əsasən vestqotların yaşadığı İspan krallığında mövcud olan daxili qarşıdurmalar bunun üçün əlverişli şərait yaradırdı. Məsələn, İspan kralı Rodriqo ilə düşmənçilik edən Seuta liman şəhərinin hakimi Yulian Ərəb Xilafətinin Şimali Afrikadakı canişini Musa ibn Nusayra xəbər göndərərək şəhəri ona təslim etməyə hazır olduğunu bildirmişdi. Bu da ərəblərin Piriney yarmadasına daxil olmaları, 710-711-ci illərdə Andalusiya vilayətinin onların nəzarətinə keçməsi ilə nəticələndi. 712-713-cü illərdə Seviliyanı, Qalitsiyanı və s. əraziləri ələ keçirən ərəblər Fransa sərhədlərinə yaxınlaşdılar və Lanqedoku ələ keçirdilər (77, s. 189-192). Ərəblərin yerli əhali ilə mülayim rəftar etməsi müharibələr zamanı bu əraziləri tərk etmiş insanların sonradan geri qayıtması ilə nəticələnmişdi. Ərəblərin yerli əhali ilə yanaşı yaşamaları bu ərazilərdə müsəlman icmalarının formalaşmasına gətirib çıxardı.

717-ci ildə Xilafət Konstantinopolu tutmaq üçün növbəti cəhd etdi, lakin sərkərdə Mesleme ibn Abdulmalik şəhəri 719-cu ilədək mühasirədə saxlasa da, onu ələ keçirə bilmədi. Əməliyyatın gedişində Qalataya daxil olmağa nail olan Mesleme ibn Abdulmalik burada, bu günə qədər qorunub saxlanılan Ərəb məscidini inşa etdirmişdi (77, s. 199-200). Şübhəsiz ki, Bizans paytaxtının divarları yanında

məscidin meydana gəlməsi islamın Avropada yayılması baxımından əhəmiyyətli bir fakt idi. Bu faktın özü VIII əsrin əvvəllərində Bizansın Avropa hissəsində müsəlman icmasının artıq mövcud olduğunu sübut edir.

728-ci ildə ərəblər Siciliya adasını tam ələ keçirdilər. Eyni zamanda Piriney yarımadasındakı ərəb qoşunları yarımadanın içərilərinə doğru hərəkət edərək, 732-ci ildə Bordo, Lion, Otyon, Şalon şəhərlərini ələ keçirdilər və Puatye şəhərinə yaxınlaşdılar. Andalusiya canişini Abdurrəhman ibn Abdullahın komandan olduğu ərəb qoşunları  Puatye və Tuluza şəhərləri arasında Karl Martellin rəhbərlik etdiyi fransız qoşunları ilə qarşılaşdılar. Tərəflər arasında baş vermiş Puatye döyüşündə fransızlar qalib gəldilər (77, s. 218).  Puatye məğlubiyyəti ərəblərin irəliləməsinə son qoya bilmədi. Ərəblər 734-cü ildə başladıqları yeni hücum nəticəsində Avinyonu, Arlı və Provansı, 737-ci ildə isə Burqundiyanı ələ keçirdilər (52, s. 20).  Beləliklə, VIII əsrin ilk onillikləri ərzində Piriney yarımadasının əhəmiyyətli hissəsi Xilafətin nəzarətinə keçmişdi. O, regionu ərəbləşdirmək və müsəlmanlaşdırmaq üçün müxtəlif addımlar atırdılar. Ərəblərin bura köçürülməsi və müxtəlif həvəsləndirici addımlarla yerli əhalinin islama cəlb edilməsi geniş yayılmış tədbirlərdən idi. Nəticədə əhalinin tərkibində müsəlman ərəblər, islamı qəbul etmiş yerli əhali – muvalladlar və ərəblərin dilini, mədəniyyətini və həyat tərzini qəbul edən xristianlar – mosərəblər əhəmiyyətli yer tuturdular.

Beləliklə, Avropada islam hələ VII-VIII əsrlərdə, Ərəb Xilafətinin hərbi yürüşlərinin,  işğal olunmuş ərazilərdə yerli əhaliyə münasibətdə dözümlülük göstərilməsinin və eyni zamanda müsəlman əhalinin bu ərazilərə köçürülməsinin nəticəsi olaraq təşəkkül tapıb yayılmağa başlamışdı. VIII əsrin ortalarında daxili ziddiyyətlərin güclənməsi, Bizansla uzun sürən müharibələr Xilafətin getdikcə zəifləməsi ilə nəticələndi. Eyni zamanda, Avropadakı xristian dövlətlərinin və xristian kilsəsinin güclənməsi nəinki Xilafətin bu qitəyə yürüşlərinə son qoydu, əksinə xristianların Şərqə yürüşləri üçün şərait yaratdı və xaçlı yürüşləri başladı.

1096-cı ildən 1270-ci ilədək olan dövrdə avropalı  xaçlılar Şərqə səkkiz yürüş həyata keçirmiş və sonda səlcuq türkləri tərəfindən məğlub edilmişlər. Bu yürüşlər ilk

baxışda nəticəsiz, milyonlarla insanın öz həyatını itirməsi ilə sona çatsa da, islam mədəniyyətinin Avropada yayılmasına müsbət təsir göstərmişdi.

Xaç yürüşləri dövründə hərbi əməliyyatlarla yanaşı, islam dövlətləri ilə Avropa şəhərləri arasında geniş ticarət mövcud idi. Marsel, Genuya, Venetsiya və Avropanın bir sıra digər şəhərləri Şərq ölkələri ilə ticarətin mərkəzlərinə çevrilmişdilər. Tacirlər Şərqdən müxtəlif mallarla yanaşı, islam sivilizasiyasını, islam dəyərlərini də gətirirdilər. Bundan başqa, xaç yürüşləri zamanı xristianlar Şərq incəsənəti və memarlığı ilə tanış olmuş və Avropada kilsə tikintisində bu memarlığın elementlərindən istifadə etmişdilər. Nəticədə, Avropa incəsənəti və memarlığında “arabeska” adını almış bir istiqamət təşəkkül tapmışdı. Avropalılar Şərq ölkələrindən siyasi və inzibati idarəetmə ilə bağlı məqamları da əxz etmişdilər (77, s. 363-380). Bütün bunlar Avropada islam sivilizasiyasının yayılması, müəyyən mənada müsəlmanların sayının artması ilə müşayət olunurdu.

Avropada islamın yayılmasının ikinci mərhələsi XIII əsrin sonunda meydana gəlmiş və XX əsrin əvvəllərinə qədər mövcud olmuş Osmanlı dövlətinin fəaliyyəti ilə bağlıdır. Anadoluda möhkəmlənən osmanlılar öz ərazilərini müxtəlif istiqamətlərdə, o cümlədən Avropa istiqamətində genişləndirməyə nail olmuşdular. XIV əsrin sonlarında Sultan Bəyazidin yürüşləri nəticəsində Balkan yarımadası türklərin nəzarətinə keçmişdi. 1389-cu ildə Kosovo çölündə serbləri məğlub edən Bəyazid Serbiyanı özünə tabe etdi. Bunun ardınca Valaxiya, Bolqarıstan, Makedoniya, Fessaliya və Saloniki türklərin əlinə keçdi. Avropalıların, xüsusilə də Bizans imperatoru II Manuilin bu əraziləri geri almaq cəhdləri uğursuz oldu. II Manuil Avropanın xristian hökmdarlarını osmanlılara qarşı birgə yürüş təşkil etməyə çağırırdı. Bu yürüşün maliyyə xərclərini qarşılamaq üçün isə II Manuil Venetsiyaya Lemnos adasını satın almağı təklif etmişdi, lakin sonuncu türk sultanı ilə münasibətləri pozmaq istəməyərək, bu təklifi qəbul etmədi. Buna baxmayaraq, osmanlılara qarşı birgə yürüş təşkil etmək ideyası gündəlikdən düşməmişdi. Növbəti təklif Macarıstan kralı Sigizmunddan gəldi. Məhz onun təklifi və katolik kilsəsinin xeyir-duası ilə fransızlardan, almanlardan, ingilislərdən, italyanlardan və macarlardan ibarət 100 min nəfərlik qoşun Osmanlı dövlətinə qarşı xaç yürüşünə

başladı. Qara dənizdə, Dunayın mənsəbində qərar tutmuş Rodos, Venetsiya və Genuya donanmaları da xaçlılara yardım edirdilər. Türklərlə xaçlılar arasında həlledici döyüş 1396-cı il sentyabrın 26-da Nikopol yaxınlığında baş verdi və xaçlıların darmadağın edilməsi ilə nəticələndi. Bu qələbə Sultan Bəyazidə Avropada yeni mülklər ələ keçirmək və islam mədəniyyətinin yayılma dairəsini genişləndirmək üçün gözəl imkan verdi, lakin bu imkandan faydalanmaq mümkün olmadı. Buna səbəb avropalılar deyil, digər bir türk sərkərdəsi Əmir Teymurun şərqdən osmanlılar üzərinə hücum etməsi və 1402-ci ildə Ankara yaxınlığında Sultan Bəyazidi məğlub edərək əsir götürməsi oldu (52, s. 155-158). Buna baxmayaraq, Sultan Bəyazidin hakimiyyəti illərində Balkanlarda müsəlmanların sayı xeyli artmışdı.

İslam svilizasiyasının Avropada genişlənməsində İstanbulun türklərin əlinə keçməsini xüsusi qeyd etmək lazımdır. 1453-cü ildə sultan II Mehmet Fatehin rəhbərlik etdiyi qoşunlar şəhərə daxil oldular və bu şəhər sonradan Osmanlı imperiyasının siyasi, iqtisadi mərkəzinə, Avropada islam mədəniyyətinin dayağına çevrildi.

Türklərin Avropadakı uğurlarına diqqət çəkən italiyalı tədqiqatçı F. Kardini qeyd edir ki, "Egey dənizində və Balkanlarda Osmanlı işğalları avropalıları, onların qitəsinin müsəlmanlar üçün artıq alınmaz olmadığı (Piriney yarımadası istisna olmaqla, XI əsrədək bu belə olmuşdu) ideyasına öyrətmişdi" (52, s. 175).

XV əsr italiyalı humanist Eney Silviy Pikkolomini İstanbulun itirilməsini böyük narahatlıqla qeyd edirdi: "Keçmişdə biz Asiya və Afrikada, yəni özgə ölkələrdə yaralar almışıq, lakin indi bizə Avropada, öz vətənimizdə, öz evimizdə zərbə endirdilər. Mümkündür ki, türklərin çoxdan Asiyadan Yunanıstana gəldiklərinə, həmin monqolların Avropada məskunlaşdıqlarına, ərəblərin isə Cəbəllütariq boğazını keçərək İspaniyanın bir hissəsini tutduqlarına etiraz etsin, ancaq biz heç vaxt Konstantinopolla müqayisə ediləcək şəhər və ya başqa ərazi itirməmişdik" (52, s. 175).

İstanbulun ələ keçirilməsindən sonra Bosniya, Hertseqovina, Dunay knyazlıqları, Albaniya, Çernoqoriya, Moreya, Korinf və Afinanı, XVI əsrin 20-ci illərində isə Macarıstanın çox hissəsi türklər tərəfindən tutuldu. Paralel olaraq baş

verən hadisələr, xüsusilə də dünya ticarət yollarının qurudan okeanlara çıxması isə Osmanlı imperiyasının iqtisadi vəziyyətinə mənfi təsir göstərdi, hərb işində üstünlük tədricən avropalıların tərəfinə keçdi. Bütün bunlar türklərə öz hərbi uğurlarını inkişaf etdirməyə imkan vermədi və XVI əsrin sonlarından başlayaraq, Osmanlı imperiyası artıq müdafiə olunmaq məcburiyyətində qalmışdı. Sonrakı əsrlərdə tənəzzül daha da dərinləşmiş və XIX əsrin son onillikləri – XX əsrin əvvəllərində imperiyanın parçalanması ilə nəticələnmişdi.

Osmanlı işğallarının nəticəsi olaraq, Avropada müsəlmanların sayının artması müşahidə olunurdu. Albaniya, Bosniya və Hertseqovinada islam dininin daha sürətlə yayılması nəticəsində onlar müsəlman dövlətlərinə çevrilmişdilər. Balkanlarda, Piriney yarımadasında, Mərkəzi və Şərqi Avropa ölkələrinin təbəələri arasında da müsəlmanların sayında artım baş vermişdi.

Eyni zamanda, islam mədəniyyətinin avropalılara təsiri də getdikcə daha çox hiss olunurdu. 1445-ci ildə Quttenberq tərəfindən kitab çapının kəşf olunması islam haqqında ilk kitabların meydana gəlməsi ilə nəticələndi. Avropalı elm adamlarında islamın öyrənilməsinə olan maraq artmışdı. 1543-cü ildə Bazeldəki Oporina tipoqrafiyasında Quran latın dilinə tərcümədə nəşr olundu. Qeyd edək ki, Quran latın dilinə XII əsrin ortalarında Robert Kettonski tərəfindən tərcümə edilmiş və təxminən 400 il sonra nəşr olunmuşdu. Protestantizmin yayıldığı ərazilərdə Qurandan istifadə olunmasında elə bir ciddi maneə olmasa da, Roma Papasının nəzarətində olan katolik torpaqlarında ondan istifadə qadağan olunmuşdu. Buna baxmayaraq, Avropanın islam mədəniyyəti ilə tanışlığı davam edirdi. 1544-cü ildə fransız Giy Postelin "Bütün torpaqlarda razılıq haqqında" əsəri işıq üzü gördü. Bu əsərdə islama və Osmanlı imperiyasına kifayət qədər yer ayrılmışdı. 1547-ci ildə Venetsiyada Quran italyan dilinə tərcümədə nəşr olundu. Bu, Quranın Avropada qeyri-latın dilinə ilk tərcüməsi idi. 1613-cü ildə Leyden universitetinin şərq dilləri üzrə professoru Tomas van Erpen ərəb qrammatikasını nəşr etdirdi. 1639-cu ildə Oksford universitetinin professoru Edvard Pokok "Ərəb tarixinin təcrübəsi" kitabını yazdı. Sürixdə və Heydelberqdə müəllimlik etmiş İohan Qottinger ərəb qrammatikası, mənbələrinin antologiyası haqqında kitablar və lüğətlər tərtib etmişdi. Bununla yanaşı,

müsəlmanlardan ərəbşünas Cəbrail as-Sihyauni Romada fəaliyyət göstərmiş, suriyalı Yusif as-Simani Papa VII Klimentin dövründə Vatikan kitabxanasının rəhbəri olmuş və "Şərq kitabxanası" əsərini tərtib etmişdi. Tarixçi və filosof İbrahim al-Hakilani də Avropada islama aid kitablar nəşr etdirirdi. 1697-ci ildə Parisdə "Şərq kitabxanası" nəşr olundu və məhz bu nəşrlə Avropada islamın sistematik öyrənilməsinin əsası qoyuldu (52, s. 228-234). XVIII-XIX əsrlərdə də islam mövzusu Avropa mədəniyyəti və incəsənətində əhəmiyyətli yer tuturdu.

Göründüyü kimi, Osmanlı imperiyasının mövcudluğu dövründə Avropada müsəlman dövlətləri yaranmış, müxtəlif ölkələrdə müsəlman icmaları formalaşmış, islam mədəniyyətinə maraq xeyli artmışdı.

XX əsrdə islam dininin Avropada yayılmasının yeni mərhələsi başlandı. Bu mərhələ əsasən müsəlman ölkələrindən çıxan işçi miqrantların Avropa ölkələrinə üz tutmaları ilə bağlıdır və qeyd etmək lazımdır ki, miqrant axınının istiqaməti daha çox müstəmləkə əsarətində olan olkələrdən metropoliyalara yönəlmişdi.

XXəsrin ortalarına qədər müsəlmanların Avropaya kütləvi miqrasiyası müşahidə olunmurdu, lakin İkinci dünya müharibəsindən sonra vəziyyət dəyişdi və miqrasiya geniş miqyas aldı.

Müsəlmanların miqrasiyasının kütləvi hal alması İkinci dünya müharibəsindən doğan müəyyən səbəblərlə bağlı idi. İlk növbədə qeyd etmək lazımdır ki, Böyük Britaniya və Fransa müstəmləkələrdən səfərbər etdikləri əsgərlərə müharibədən sonra metropoliyaların ərazisində məskunlaşmağa icazə vermişdilər. Hərbiçilərlə yanaşı, müsəlman ölkələrindən olan əmək miqrantları da bu ölkələrə gəlməyə başladılar. Fransaya Əlcəzairdən, Tunisdən, Mərakeşdən, Böyük Britaniyaya isə Hindistandan və Pakistandan gəlirdilər. Eyni zamanda, müharibə illərində böyük insan tələfatına məruz qalmış Qərbi Almaniya da işçi qüvvəsinə olan təlabatını ödəmək məqsədilə öz qapılarını Yaxın Şərqdən, xüsusilə də Türkiyədən və Şimali Afrikadan çıxanların üzünə açmışdı (67, s. 50). Müharibədən sonrakı bərpa işlərinin başa çatması iqtisadiyyatın daha sürətli inkişafına, bu da öz növbəsində əlavə işçi qüvvəsinə tələbatı artırmış və müsəlmanların yeni-yeni qruplarının Avropa ölkələrinə gəlmələri üçün şərait yaratmışdı, lakin 70-ci illərin əvvəllərində baş vermiş neft böhranı iqtisadi

fəallığı və işçi qüvvəsinə tələbatı müəyyən qədər azaltsa da, bu, müsəlman ölkələrindən miqrant axınına son qoymamışdı, eyni zamanda qeyri-leqal miqrasiyanın miqyası da genişlənmişdi.

Müharibədən sonrakı illərdə müsəlmanların Avropaya miqrasiyasının xarakterik cəhəti gəldikləri ölkələrdə onların kompakt şəkildə məskunlaşmaları idi. Konkret ölkədə məskunlaşan bu insanlar sonradan öz qohumlarının və yaxınlarının bura gəlməsini təmin edir, hətta Avropaya qeyri-leqal yollarla gəlmiş həmvətənlərini himayə edirdilər. Bundan başqa, müsəlman miqrantların ailələri titul əhalinin ailələrinə nisbətən daha çoxuşaqlı olurdu (67, s. 50).

XX əsrin son onillikləri – XXI əsrin əvvəllərində Avropa ölkələrindən siyasi sığınacaq istəyən müsəlmanların sayı da kifayət qədər artmışdı. Bunun əsas səbəbi inkişaf etməkdə olan müsəlman ölkələrində qeyri-stabil vəziyyətin və siyasi böhranların mövcud olması idi.

Siyasi mühacirlər üçün ən cəlbedici ölkə Almaniyadır. Qeyd olunan onilliklərdə Almaniyanın müsəlman əhalisi məhz bu mühacirlərin hesabına artırdı. Bura gələn müsəlmanların çoxu, onlara daha liberal münasibət bəslənilən Qərbi Almaniyada məskunlaşırdılar (67, s. s. 54).

Beləliklə, İkinci dünya müharibəsindən sonra Avropada müsəlmanların sayı davamlı olaraq artmışdır. 2010-cu ildə, Rusiya və Türkiyə istisna olmaqla, Avropanın yerdə qalan ölkələrində 16 milyon nəfərdən çox müsəlman yaşayır. Onların çoxunu İkinci dünya müharibəsindən sonra Avropaya gələn işçi miqrantlar təşkil edir (45).

Avropada müsəlmanların sayının artması qitə ölkələrində birmənalı qarşılanmırdı. Bir sıra hallarda onlar təhlükə mənbəyi hesab edilir və onların Avropa ölkələrinə daxil olmalarının qarşısını almağa çağrışlar edilirdi. Məsələn, hələ 1899-cu ildə U. Çerçill "Çay üzərində müharibə" kitabında, barbarlar Romanı hədələdiyi kimi, müsəlmanların da Avropanı hədələdiklərini qeyd edirdi (63, s. 107).

Keçən əsrin 50-60-cı illərində Fransada müsəlman miqrantlara müvəqqəti işçi qüvvəsi kimi baxırdılarsa, 70-ci illərdə icmalararası münasibətlərin pisləşməsi fonunda onlar genişlənməkdə olan cinayətkarlığın əsas mənbəyi hesab olunur, 90-cı illərdə isə milli təhlükəsizliyə hədə kimi qiymətləndirilirdilər (60, s. 106). Britaniyalı

siyasətçi Con Pauell 1968-ci ildə müsəlmanların miqrasiyasını məhdudlaşdırmağa çağırırdı. O, bildirirdi ki, Böyük Britaniya geniş miqrasiyaya yol verməklə "özünün dəfn ocağını yaradır". İtaliyalı jurnalist Oriana Fallaçi qeyd edir ki, "Avropa getdikcə daha çox islam əyalətinə, onun müstəmləkəsinə çevrilir" (63, s. 107). Jurnalist 2004-cü ildə nəşr etdirdiyi "Ağılın gücü" kitabında Avropanın "Avroaviya"ya, yəni islamın əyalətinə çevrildiyini bildirmişdi (67, s. 56).

2010-cu ildə Almaniyada sosial-demokrat Tilo Sarratsinin böyük səs-küyə səbəb olmuş "Almaniya. Özünüməhvetmə yoxsa biz öz ölkəmizi xəritəyə necə qoyuruq" kitabı nəşr olundu. Müəllifin fikirlərinə görə müsəlman miqrantlar Avropa üçün əsas təhlükədir, ölkədə onların sayı artır, yerli əhalinin sayı isə azalır. O, qeyd edir ki, Almaniya son 45 ildə özünün demoqrafik problemlərinə göz yummuşdur, siyasi motivlər üzündən miqrant probleminin mövcudluğu etiraf olunmamış, Almaniyanın mühacirlər ölkəsinə çevrildiyi inkar edilmişdir. Tilo Sarratsinin baxışları Almaniyada sərt tənqidlərə məruz qalmışdı. Kitabı tənqid edən federal kansler A. Merkel islamı "Almaniyanın bir hissəsi" adlandırmışdı (67, s. 56).

Son illərdə "ərəb baharı", Suriyada baş verən qanlı və dağıdıcı toqquşmalar nəticəsində on minlərlə müsəlman qaçqın vəziyyətinə düşmüş və onların çoxu həyatlarını xilas etmək üçün Avropa ölkələrinə üz tutmuşlar, lakin avropalılar bu əlacsız insanların qarşısını almaq üçün müxtəlif addımlar atırlar. Məsələn, 2012-ci ilin sonlarına olan məlumata görə Çexiya, Danimarka, Almaniya, İrlandiya, İspaniya, Fransa, Böyük Britaniya, İsveç, Portuqaliya, Finlandiya, Litva və Hollandiya cəmi 4390 nəfər miqrant qəbul etmişdi (68, s. 13). Qeyd etmək lazımdır ki, müharibə fəlakətlərindən qurtularaq sığınacaq axtaran insanların sayının yüz minlərə bərabər olduğu bir halda, 4390 nəfər çox da böyük rəqəm deyildir.

Avrobarometrin məlumatına görə, 2013-cü ildə avropalılar müsəlman miqrantlara vergilərdən, təqaüdlərdən, təhsildən və hətta terrorizmdən daha çox diqqət yetirmişlər. Beynəlxalq Miqrasiya Təşkilatının hesablamalarına əsasən demək olar ki, 2013-cü ildə Aralıq dənizindən Avropaya keçməyə cəhd edən 3 min nəfərdən çox miqrant həlak olmuşdu. Həmin ildə Lampedus adası yaxınlığında 300 nəfər afrikalı miqrantın ölməsi böyük beynəlxalq rezonans doğurmuş və Avropa Birliyinin

immiqrasiya siyasətinin dəyişdirilməsi haqqında müzakirələrə səbəb olmuşdu (68, s. 11-12). Uzun sürən müzakirələrə, qəbul olunmuş qərarlara baxmayaraq, müsəlman miqrantların Avropaya daxil olmalarının qarşısını alma metodlarının sərtləşdirilməsi, hasarların, tikanlı məftil sədlərinin çəkilməsi müşahidə olunur. 2007-ci ildən 2013-cü ilədək olan dövrdə Avropa fondları sərhədlərin möhkəmləndirilməsinə 4 milyard avro xərclədikləri halda, qaçqınların və sığınacağa ehtiyacı olanların vəziyyətinin yüngülləşdirilməsinə cəmi 700 milyon avro xərcləmişdilər. 2013-2014-cü illərdə Bolqarıstan hökuməti suriyalı miqrantların qarşısını almaq üçün Türkiyə ilə sərhəddə tikanlı məftildən 3 metr hündürlüyündə sədd çəkmişdi (68, s. 21). Müsəlmanların Avropaya daxil olmalarının qarşısını almaq üçün oxşar tədbirlər qitənin digər ölkələrində də həyata keçirilir, lakin bütün bunlara baxmayaraq, müsəlman miqrantların üz tutduqları məkanlar arasında Avropa yenə də öndədir.

Yuxarıda qeyd olunanlara əsasən belə bir nəticəyə gəlmək olar ki, Avropada müsəlman icması əsrlər boyu formalaşmış və davamlı olaraq inkişaf etmişdir. Hələ VII əsrdə, yəni islamın meydana gəldiyi andan avropalıların müsəlmanlarla ilk təmasları baş vermişdi. Tez bir zamanda güclənən Ərəb Xilafətinin hərbi yürüşləri Avropa istiqamətini də əhatə etmiş, nəticədə islam dini Piriney yarmadasında yayılmışdı. Xaç yürüşləri, xaçlıların şərq ölkələri ilə tanışlığı, ticarət əlaqələri qurmaları islam mədəniyyətinin Avropada genişlənməsinə müsbət təsir göstərmişdi. İslam dininin Avropada yayılmasının növbəti mərhələsi Osmanlı dövlətinin fəaliyyəti ilə bağlı olmuşdur. Türklərin Avropada geniş ərazilər, o cümlədən İstanbulu ələ keçirmələri nəticəsində Bakanlarda, əhalisinin əksəriyyətini müsəlmanlar təşkil edən Albaniya və Bosniya kimi ölkələr meydana gəlmiş, imperiyaya daxil olan xristian ölkələrinin ərazisində müsəlman icmaları formalaşmışdı. XX əsrdə Avropada müsəlmanların sayı əsasən işçi miqrantların hesabına artırdı. Bu qitəyə miqrant axını İkinci dünya müharibəsindən sonra daha intensiv xarakter almışdı. Qeyd olunan dövrdə öz ölkələrində təqiblərdən qurtularaq xarici ölkələrdə siyasi sığınacaq əldə etmək istəyən mühacirlərin də üz tutduqları ünvan Avropa olaraq qalırdı. Son illərdə ərəb ölkələrində baş verən fəlakətli hadisələrin nəticəsi olaraq, müsəlmanların bu ölkələrdən Avropaya kütləvi axını başlamışdır. Qitə ölkələri isə problemin

səbəblərini aradan qaldırmaq əvəzinə, miqrantların qarşısını müxtəlif sədlərlə almağa çalışırlar ki, bu da onların bəyan etdikləri demokratik prinsiplərə ziddir.

XXI əsrin əvvəllərində Avropada islamofobiya meyllərinin güclənməsi dinlərarası münasibətlər sahəsində Azərbaycan nümunəsini aktuallaşdırır. Bu gün Azərbaycanda insanlar öz ibadətlərini sərbəst həyata keçirir, dini abidələrə dövlət qayğısı göstərilir, qanunla nəzərdə tutulmuş çərçivədə dini təhsil inkişaf etdirilir. Ümummilli lider Heydər Əliyev 2001-ci il dekabrın 19-da Bakıda keçirilmiş "İslam və müasir dövrün aktual problemləri" beynəlxalq elmi konfransa məktubunda qeyd etmişdi: "Avropa ilə Asiyanın qovuşağında yerləşən Azərbaycanda müxtəlif dinlərə ayrı-ayrı mədəniyyətlərə mənsub olan insanlar əsrlər boyu dinc, mehriban şəraitdə yaşayıb yaratmışdır. Ölkəmiz dini və ya milli zəmində hansı bir problemlə isə heç vaxt üzləşməmişdir" (48, s. 182-183).

Azərbaycan dövlətinin bərabərliyə, multikulturalizmə əsaslanan dini siyasəti Prezidenti İlham Əliyevin hakimiyyəti illərində də davam edir. 2010-cu il sentyabrın 6-da Müqəddəs Ramazan ayı münasibətilə iftar mərasimində çıxış edən İlham Əliyev demişdi: "...Azərbaycanda bütün dinlərin nümayəndələri bir ailə kimi yaşayırlar. Bu, bizim böyük nailiyyətimizdir, böyük uğurumuzdur... Son illər ərzində Azərbaycanda bütün dinlərə məxsus olan abidələrdə təmir-bərpa işləri gedir. Yüzlərlə yeni məscid tikilmişdir. Digər dinlərin məbədləri tikilir, təmir olunur və gələcəkdə də tikiləcəkdir. Bu, onu göstərir ki, Azərbaycanda bu sahədə heç bir ayrı-seçkilik yoxdur." (106).

Azərbaycanda multikulturalizmin inkişafına Heydər Əliyev Fondu, xüsusilə də onun rəhbəri, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri Mehriban Əliyeva da öz töhfəsini vermişdir. 2008-ci ilin iyununda Bakıda keçirilmiş Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunda cıxış edən Mehriban Əliyeva qeyd etmişdi ki, "Azərbaycan Böyük İpək Yolu üzərində yerləşən ölkə kimi tarix boyu yüksək tolerantlıq mühitini yaratmışdır. Bu, həm mədəniyyətimizdə, həm də cəmiyyətimizdə dərin iz qoymuşdur. İndi də bizim cəmiyyətdə belə bir tolerantlıq ab-havası hökm sürür. Bakı unikal şəhərdir. Artıq uzun müddətdir ki, burada müsəlman məscidi və atəşpərəst məbədi, katolok kilsəsi və sinaqoq, pravoslav

məbədi və kirxa yanaşı mövcuddur. Onların coğrafi yaxınlığı faktı belə, yüksək tolerantlıq şəraitində birgə fəaliyyətin mümkünlüyünü nümayiş etdirir və hər bir dinin əsas dəyərlərinin ümumbəşəri dəyərlərlə üst-üstə düşdüyünü təsdiq edir" (59, s. 152-153).

## 1.2. Müasir Avropada müsəlman icmaları: yayıldığı ərazilər və təşkilatlanması

Müasir dövrdə Avropada müsəlmanlar dedikdə, ilk növbədə miqrantlar nəzərdə tutulur. Keçən əsrin 80-ci illərindən başlayaraq, müsəlmanların Avropa ölkələrinə miqrasiyası artmışdır. Bu prosesi doğuran bir sıra səbəblər mövcuddur: Avropada iqtiadiyyatın davamlı olaraq inkişaf etməsi fonunda əhalinin təbii artım səviyyəsinin aşağı düşməsi, sosialist blokunun və SSRİ-nin süqutu ilə bağlı meydana gələn geosiyasi amillər, inkişaf etməkdə olan ölkələrdə liberallaşma və özəlləşdirmənin həyata keçirilməsi və bundan irəli gələn sosial-iqtisadi qeyri-sabitlik, müxtəlif müharibə ocaqlarının meydana gəlməsi və s.

Müsəlmanların Avropaya miqrasiyasında əsasən iki marşrutdan istifadə olunur: birinci marşrut, Mərakeşdən Cəbəllütariq boğazı vasitəsilə İspaniyaya, oradan isə digər ölkələrə, ikinci marşrut, Türkiyədən Yunanıstan və Albaniya vasitəsilə İtaliyaya. 2011-ci ilin ilk doqquz ayı ərzində Avropa İttifaqı ölkələrinə 113 min nəfər gəlmişdir. "Ərəb baharı"nın təsiri altında onların sayı artmış və 2014-cü ildə artıq 626 min nəfər Aralıq dənizi vasitəsilə Avropaya daxil olmuşdu. Beynəlxalq Əmək Təşkilatının məlumatlarına görə, hal-hazırda dünyada mövcud olan 175 milyon nəfər miqrantın 56 milyon nəfəri Avropada yaşayır, sonuncuların 27,5 milyon nəfəri əmək fəaliyyəti ilə məşğuldur (84). Şübhəsiz ki, Avropaya qeyri-leqal yolla gələnlər də bura əlavə olunsa, bu göstəricilər nəzərəçarpacaq dərəcədə artar, ancaq bu kateqoriya miqrantların sayı haqqında dəqiq məlumatlar yoixdur.

Müsəlmanların Avropada qeyri-leqal şəraitdə yaşamalarını stimullaşdıran amillərdən biri də kölgə iqtisadiyyatının genişlənməsidir. Avropa Komissiyasının qiymətləndirməsinə görə, xırda istehsal və kölgə iqtisadiyyatı Avropa üzrə Ümumi

Daxili Məhsulun 20 %-nə sahibdir. Məsələn, Ümumi Daxili Məhsulun tərkibində kölgə iqtisadiyyatının payı Yunanıstanda 30-35 %, İtaliyada 27,8 %, İspaniyada 23,4 %, Belçikada 23,4 %-ə bərabərdir (84).

Bütün qeyd olunanlar nəticəsində Avropa ölkələrində müsəlman icmaları davamlı olaraq genişlənir. Ümumilikdə, Avropada müsəlmanların sayı barədə dəqiq məlumat yoxdur. Müxtəlif mənbələrdə yer almış məlumatlara görə bu, 15-20 milyon nəfər arasında dəyişir.

Tədqiqatçı Y. Netesovanın 2008-ci ildə işıq üzü görmüş məqaləsində Avropa ölkələrində müsəlmanların sayı ilə bağlı maraqlı məlumatlar verilmişdir. Müəllifin hesablamalarına görə, XXI əsrin əvvəllərində Fransada Avropanın ən iri müsəlman icmalarından biri formalaşmışdır. Bu ölkədə islam dininə mənsub olanların sayı 5-6 milyon nəfərə və ya əhalinin 10 %-nə bərabər idi. Böyük Bitaniyada 1,6 milyon nəfər müsəlman yaşayırdı. Onların 40 %-i Pakistandan, 20 %-i ərəb və Afrika ölkələrindən, 15 %-i Banqladeşdən, 10 %-i Hindistandan, 15 %-i isə digər ölkələrdən çıxanlardır. 2004-cü ildə Belçikada 1 milyon nəfər əcnəbi vardı ki, bu da ölkə əhalisinin artıq 10 %-ni təşkil edirdi. Əcnəbilərin 25 %-ni italiyalılar, 16 %-ni isə mərakəşlilər təşkil edirdi. Bura qeyri-leqal mühacirlər də əlavə olunsa onların sayı bir qədər də artar. 2007-ci ildə Belçika əhalisinin 4 %-i müsəlmanlardan ibarət idi. Onlar əsasən iki etnik qrupu təşkil edirdi: mərakəşlilər (80 min nəfər) və türklər (41 min nəfər). Birincilər Mərakəşin kasıb rayonlarından olan Rifdən gələn insanlardır. Türklər isə daha çox Anadoludan çıxanlar idi. Avropanın digər ölkələrində olduğu kimi, türklər Belçikada da öz milli icmaları ilə yaşamağa üstünlük verir və vətənləri ilə daimi əlaqə saxlayırlar. Hollandiyada yaşayan müsəlmanların üçdə ikisi Mərakəş və Türkiyədən, yerdə qalanlar isə, İraq, Əfqanıstan, İran və Somalidən çıxanlardır. 2004-cü ilin statistik məlumatlarına görə Hollandiyada 945 min nəfər müsəlman yaşayırdı ki, bu da ölkə əhalisinin 5,8 %-ni təşkil edirdi. 2006-cı ildə buradakı müsəlmanların sayı artıq bir milyon nəfəri keçmişdi. Müsəlman miqrantlar daha çox Haaqada, Amsterdamda və Rotterdamda cəmləşmişlər. Bu şəhərlərdəki bəzi kvartallarda sakinlərin dörddə üçü məhz müsəlmanlardan ibarət idi. Müsəlman icması İtaliyada da əhəmiyyətli yer tutur. Yayılma miqyasına görə islam ölkədə katolik məzhəbindən

sonra ikinci yeri tutur. Müsəlmanlar əsasən İtaliyanın cənubunda məskunlaşmışlar. Etnik tərkibinə görə yekcins olmayan bu müsəlmanlar Şimali Afrikadan, Saxaradan cənubdakı Afrika ölkələrindən, Balkanlardan, Yaxın Şərqdən, Hindistandan və Pakistandan çıxmışlar. İspaniya Statistika İnstitutunun məlumatına görə XX əsrin ilk illərində bu ölkədə 4,5 milyon nəfər əcnəbi yaşayırdı. Onların əsas hissəsi avropalılar, Latın Amerikasından və Mərakəşdən çıxanlardan ibarət idi. Sonuncular bütün miqrantların 13 %-ni təşkil edirdilər. Reallıqda isə miqrantların sayı daha çox idi, belə ki, onların çoxu ölkədə qeyri-leqal yaşayırlar. Bəzi məlumatlara görə İspaniyadakı mərakəşlilərin sayı təxminən bir milyon nəfərə bərabərdir, bu da rəsmi statistikada göstəriləndən iki dəfə çoxdur. 2005-ci ildə İspaniyada müsəlmanların sayı 700 min nəfərə bərabər idi, bu da ölkədəki bütün miqrantların 17 %-ni təşkil edirdi. Müsəlmanların İspaniyaya gəlməsini şərtləndirən əsas amil Şimali Afrika ölkələrinin coğrafi yaxınlığıdır. Qeyri-leqal miqrasiyanın yüksək səviyyəsi də bununla bağlıdır. Avropa İttifaqında miqrasiya qanunları sərtləşdirildikdən sonra radikal elementlərin çoxu məhz İspaniyada qərar tutmuşdu, çünki buradan öz vətənləri ilə əlaqə saxlamaq çətin deyil (60, s. 107-117).

2007-ci ildə 82,4 milyon nəfər əhalisi olan Almaniyada 3,2--3,4 milyon nəfər müsəlman yaşayırdı. Müsəlmanların 2,5-2,6 milyon nəfəri türk mənşəli idisə, yerdə qalanlar əsasən ərəblər və kürdlərdən ibarət idi (22).

2010-cu ildə Qərbi Avropada 17 milyon nəfərdən çox müsəlmanın yaşadığı bildirilir. Həmin ildə ən böyük müsəlman icmaları Almaniyada mövcud olmuşdur. Burada islam dininə mənsub olanların sayı 4.119.000 nəfərə və ya ölkə əhalisinin 5,0 %-nə bərabər idi. Digər ölkələrə gəldikdə isə, bu göstəricilər uyğun olaraq belə olmuşdur: Fransa - 3.574.000 nəfər və ya 5,7 %, Böyük Britaniya -2.869.000 nəfər və ya 4,6 %, İtaliya - 1.583.000 nəfər və ya 2,6 %, İspaniya - 1.021.000 nəfər və ya 2,3 %, Hollandiya - 914.000 nəfər və ya 5,5 %, Belçika - 638.000 nəfər və ya 6,0 %, Yunanıstan - 527.000 nəfər və ya 4,7 %, Avstriya - 475.000 nəfər və ya 5,7 %, İsveç - 451.000 nəfər və ya 4,9 %, İsveçrə - 433.000 nəfər və ya 5,7 %, Danimarka - 226.000 nəfər və ya 4,1 %, Norveç - 144.000 nəfər və ya 3,0 %, İrlandiya - 43.000

nəfər və ya 0,9 %, Finlandiya – 42.000 nəfər və ya 0,8 %, Portuqaliya - 22.000 nəfər və ya 0,2 %, Lüksemburq -13.000 nəfər və ya 2,7 % (26).

Şərqi Avropa ölkələrinə gəldikdə isə, burada fərqli mənzərə mövcuddur. Balkan ölkələri uzun müddət Osmanlı imperiyasının tərkibində olduğu üçün bu ölkələrdə müsəlmanlar yerli əhalinin bir hissəsini, Albaniya və Kosovoda əsas hissəsini təşkil edir. Digər ölkələrdə isə müsəlmanların sayı nəzərəçarpacaq dərəcədə azdır. Ayrı-ayrı ölkələrə gəldikdə isə, 2011-ci ildə Albaniyada əhalinin 99,0 %-i, qismən tanınmış Kosovoda - 90 %-i, Bosniya-Hertseqovinada - 40,0 %-i, Çernoqoriyada - 18,0 %-i, Makedoniyada - 29,0 %-i, Bolqarıstanda - 12,2 %-i, Serbiyada - 3,2 %-i, Sloveniyada - 2,4 %-i, Xorvatiyada - 1,3 %-i, Ukraynada - 0,6 %-i, Belarusda - 0,5 %-i, Latviyada - 0,4 %-i, Estoniyada - 0,3 %-i, Macarıstan, Rumıniya, Moldova və Litvada - 0,2 %-i, Polşa, Çexiya və Slovakiyada - 0,1 %-i müsəlmanlardan ibarət idi (40, s. 76).

2013-cü ildə Avropa İttifaqını əhatə edən 28 ölkədə müsəlmanların sayı 21 milyon nəfəri ötmüşdü. Qeyd olunan ildə ayrı-ayrı ölkələrdə müsəlmanların sayı ilə bağlı göstəricilər aşağıdakı cədvəldə göstərilmişdir (62, s. 110-111).

**2013-cü ilin fevralına olan məlumatlara görə Avropa İttifaqı ölkələrində müsəlmanların sayı**

**Cədvəl 1**

| Ölkənin adı | Əhalinin ümum sayı (nəfərlə) | Müsəlmanların sayı (nəfərlə) | Əhalinin ümum sayında müsəlmanların xüsusi çəkisi (% lə) | Avropa İttifaqındakı müsəlmanların ümumi sayınd ölkə müsəlmanlarının xüsusi çəkisi (% lə) |
|---|---|---|---|---|
| Almaniya | 81 891 096 | 4 504 010 | 5,50 | 21,25 |
| Fransa | 63 626 148 | 5 408 223 | 8,50 | 25,52 |
| Böyük Britaniya | 62 970 306 | 3 022 575 | 4,80 | 14,26 |
| İtaliya | 61 194 728 | 1 652 258 | 2,70 | 7,80 |

| | | | | |
|---|---|---|---|---|
| İspaniya | 46 879 884 | 1 265 757 | 2,70 | 5,97 |
| Hollandiya | 16 763 091 | 1 039 312 | 6,20 | 4,90 |
| Belçika | 10 766 178 | 968 956 | 9,00 | 4,57 |
| Yunanıstan | 11 405 046 | 479 012 | 4,20 | 2,26 |
| Avstriya | 8 417 964 | 471 406 | 5,60 | 2,22 |
| İsveç | 9 465 231 | 425 935 | 4,50 | 2,01 |
| Danimarka | 5 594 803 | 279 740 | 5,00 | 1,32 |
| İrlandiya | 4 623 832 | 50 862 | 1,10 | 0,24 |
| Finlandiya | 5 391184 | 107 824 | 2,00 | 0,51 |
| Portuqaliya | 10 725 712 | 42 903 | 0,40 | 0,20 |
| Lüksemburq | 525 337 | 13 133 | 2,50 | 0,06 |
| Macarıstan | 9 939 365 | 19 879 | 0,20 | 0,10 |
| Kipr | 1 145 232 | 286 308 | 25,00 | 1,35 |
| Latviya | 2 221 843 | 6221 | 0,28 | 0,03 |
| Litva | 3 292 962 | 9879 | 0,30 | 0,05 |
| Malta | 420 354 | 4624 | 1,10 | 0,02 |
| Polşa | 38 260 567 | 76 521 | 0,20 | 0,36 |
| Slovakiya | 5 481 687 | 6030 | 0,11 | 0,03 |
| Sloveniya | 2 029 735 | 48 714 | 2,40 | 0,23 |
| Çexiya | 10 514 389 | 42 058 | 0,40 | 0,20 |
| Estoniya | 1 326 891 | 18 576 | 1,40 | 0,09 |
| Bolqarıstan | 7 353 686 | 808 905 | 11,00 | 3,82 |
| Rumıniya | 21 350 553 | 68 322 | 0,32 | 0,32 |
| Xorvatiya | 4 390 256 | 65 854 | 1,50 | 0,31 |
| Cəmi | 507 968 060 | 21 193 797 | 4,17 | 100,00 |

Cədvəldən göründüyü kimi, 2010-cu il ilə müqayisədə 2013-cü ilin fevral ayına qədər yalnız Yunanıstan, İsveç, Lüksemburq və Latviyada müsəlmanların sayında

azalma baş vermişdi, yerdə qalan ölkələrdə isə, dəyişikliyin baş vermədiyi Sloveniya istisna olmaqla, bu və ya digər dərəcədə artım müşahidə olunur.

Müsəlmanlar Avropada daha çox iri şəhərlərdə yaşayırlar. Məsələn, Parisdə onların sayı 1,7 milyon nəfərə, Londonda 1 milyon nəfərə çatır. Bəzi şəhərlərdə müsəlmanların xüsusi çəkisi kifayət qədər yüksəkdir: Amsterdamda əhalinin 14 %-i, Antverpendə 16,9 %-i, Brüsseldə təxminən 25 %-i, Birmenhemdə 26,9 %-i, Marseldə 25 %-i, Stokholmda 20 %-i, Kölndə 12 %-i məhz müsəlmanlardan ibarətdir. Bəzi iri şəhərlərdə demək olar ki, yalnız müsəlmanların yaşadıqları rayonlar meydana gəlmişdir. Brüsseldəki Molenbek, Parisdəki Sen-Deni rayonlarını buna misal göstərmək olar (43).

Mövcud tendensiya Avropa qitəsində müsəlmanların sayının bundan sonra da artmaqda davam edəcəyini söyləməyə imkan verir. Bu həm tarixi, həm iqisadi, həm də demoqrafik amillərlə bağlıdır. Məsələn, Almaniyada əcnəbilər üçün daha liberal şəraitin yaradılmasında onların faşizmlə bağlı olan tarixi keçmişlərinin təsiri olmuşdur. Belə ki, müharibədən sonrakı dövrdə burada milli azlıqların etnik və ya dini baxımdan təqib olunması və ya hüquqlarının məhdudlaşdırılması cəhdləri ilə bağlı məqamlara çox həssaslıqla yanaşılır.

Məlumdur ki, Almaniyada müsəlmanların çoxu türklərdir. Alman vətəndaşlığını əldə etməyin çətin olması səbəbindən buradakı türklərin 75 %-i Türkiyə vətəndaşlığını saxlayır. Türkiyə hökumət dairələrində bu insanlara həm də müəyyən təhlükə mənbəyi kimi baxılır, yəni Ankara türk diasporasının daxilində Türkiyənin dünyəvi rejiminə qarşı ola biləcək dini müxalifətin formalaşmasından ehtiyat edir. Bu səbəbdən də, türk miqrantların dini həyatının tənzimlənməsində, Almaniya hökumətinin razılığı ilə, uzun müddətdir ki, Türkiyə hökuməti də iştirak edir. Əsas məsələlər qərargahı Ankarada olan Dini İşlər üzrə Türk İslam Birliyi vasitəsilə həll olunur. Ümumilikdə təşkilat vasitəsilə Türkiyə Avropadakı bütün türk məscidlərinin yarısına nəzarət edə bilir (60, s. 111). Deməli, Almaniya türklərin ölkəyə daxil olmasının qarşısını almaqda deyil, onları nəzarətdə saxlamaqda maraqlıdır və bu sahədə Türkiyə hökumətinin əməkdaşlıq çağrışlarına müsbət cavab verilir.

Almaniyanın rəsmi və işgüzar dairələri də miqrant qəbulunu müdafiə edirlər. Alman Sənayesi Federal Birliyinin prezidenti Ulrix Qrillo 2014-cü ilin sonunda bəyan etmişdi ki, Almaniya çoxdan miqrant ölkəsidir və belə də qalmalıdır. İqtisadiyyat naziri və vitse-kansler Ziqmar Qabrielin sözlərinə görə miqrant axını əhalinin qocalmasının və bir sıra sahələrdə kadr aclığının qarşısını almağa yardım edir (85).

Başqa bir misal, Belçikada keçən əsrin 60-cı illərinin sonlarından başlayaraq, miqrasiyanın qarşısını almaq üçün sərt qanunların qəbul edilməsinə, əcnəbi fəhlələrin əməyindən istifadə edən sahibkarlara qarşı sanksiyaların tətbiq olunmasına baxmayaraq, burada yaşayan mühacirlərin leqallaşdırılması istiqamətində də addımlar atılır. Bu sahədə ailələrin birləşməsinə, yəni ölkədə fəaliyyət göstərən mühacirlərin ailə üzvlərinin də Belçikaya gəlməsinə icazə verilmişdi. Hökumət bu yolla mühacirlərin tez-tez yerdəyişmələrinin qarşısını almağa və beləliklə də onları nəzarətdə saxlamağa cəhd edir. Eyni zamanda, qanunların sərtləşdirilməsinə baxmayaraq, sərhədlər bağlanmadı, ölkəyə mühacirlərin yeni qrupları gəlməkdə davam edirdi. XX əsrin son onilliyində Belçikaya siyasi mühacirlər də gəlməyə başladı. 2000-ci ildən Belçikada vətəndaşlıq almaq qaydaları sadələşdirilmişdir. Bu da ölkədə yaşayan mühacirlərin və onların övladlarının, o cümlədən müsəlmanların həqiqi sayını müəyyənləşdirmək işinə çətinlik yaradır, çünki Belçika vətəndaşlığı əldə etdikləri andan, formal olaraq onların mühacir statusuna son qoyulur (60, s. 112).

Avropada müsir demoqrafik vəziyyətə gəldikdə, bu sahədə də inkişaf dinamikası müsəlmanların xeyrinədir. Qitənin demoqrafik fəlakətlə üzləşdiyini söyləyənlərin sayı getdikcə artır. Hesablamalara görə, 2050-ci ildə avropalıların sayı indiki 728 milyon nəfərdən 600 milyon nəfərədək azalacaq, bu da hal-hazırda birlikdə Almaniya, Polşa, Danimarka, Norveç, İsveç və Finlandiyada yaşayan əhalinin itirilməsi deməkdir. Almaniya, Latviya, Macarıstan və Portuqaliyada vəziyyət daha ciddidir. Məsələn, 2050-ci ilə qədər Almaniya əhalisinin 82 milyon nəfərdən 59 milyon nəfərədək azalacağı proqnozlaşdırılır. Böyük Britaniya, Fransa, İsveç kimi, əhali artımı nisbətən yüksək olan ölkələrdə isə, artım daha çox bu ölkələrdəki

müsəlmanların hesabına təmin olunur. Digər tərəfdən, işçi qüvvəsinə tələbatın artması miqrantlardan imtina etməyə imkan vermir. Hələ XXI əsrin əvvəllərində Fransa hökumətinin hazırladığı gizli məruzədə qeyd olunurdu ki, Avropa İttifaqının 75 milyon nəfər miqrantı qəbul etməkdən başqa alternativi yoxdur (84).

Müasir Avropada müsəlman əhali yerli əhalidən daha cavandır. Fransada 20 yaşadək olanlar ümumilikdə əhalinin 21 %-ni təşkil edirsə, müsəlmanlar arasında bu 33 %-ə bərabərdir. Almaniyada bu göstəricilər uyğun olaraq 18 % və 33 % təşkil edir. Uyğun vəziyyət Avropanın digər ölkələrində də müşahidə olunur. Danimarkada müsəlmanlar ölkə əhalisinin cəmi 3,8 %-ni təşkil etdiyi halda, ölkədə doğulan uşaqların təxminən 10 %-i, paytaxt Kopenhagendə doğulanların isə, təxminən 25 %-i müsəlmanlardan ibarətdir. Amsterdam, Haaqa və Roterdamda yaşı 20-dən aşağı olanların 60 %-ni müsəlmanlar təşkil edir (63, s. 106-107).

Avropada müsəlman icmalarının mövcudluğunun saxlanılmasında məscidlərin rolu böyükdür. Regionda təxminən 11 min məscid mövcuddur. Bu məscidlərin ayrı-ayrı ölkələr üzrə bölgüsü 2-ci cədvəldə verilmişdir.

**Avropa ölkələrində mövcud olan məscidlərin sayı**

**Cədvəl 2.**

| Ölkə | Məscidlərin sayı | Ölkə | Məscidlərin sayı |
|---|---|---|---|
| Almaniya | 2.600 | İsveçrə | 100 |
| Fransa | 2.100 | İsveç | 50 |
| Böyük Britaniya | 1.500 | Danimarka | 115 |
| İtaliya | 764 | Norveç | 120 |
| İspaniya | 668 | İrlandiya | |
| Hollandiya | 432 | Finlandiya | 30-40 |
| Belçika | 330 | Portuqaliya | 33 |
| Yunanıstan | 400 | Bosniya-Hertseqovina | 1867 |

| | | | |
|---|---|---|---|
| Avstriya | 200 | | |
| Cəmi | 10.989 | | |

*Mənbə: (16, s. 20)*

Hal-hazırda Avropada məscidlərlə yanaşı, müsəlmanların birləşdikləri təşkilat, partiya, ittifaq, assosiasiya, birlik, komitə və s. təsisatlar da mövcuddur və onların sayı yüzlərlədir.

**Avropa ölkələrində müsəlmanların birləşdiyi və legal fəaliyyət göstərən əsas təsisatlar**

**Cədvəl 3.**

| Ölkə | İslam təşkilatının adı |
|---|---|
| Almaniya | "Türk-İslam Dini Təşkilatlar İttifaqı", "İslam Mədəniyyət Mərkəzləri İttifaqı", Avropada Milli İştirak Təşkilatı", "Süleymanlı", "Milli Görüş", "Almaniya İslam Şurası", "Almaniya Müsəlmanlarının Mərkəzi Şurası", "Almaniya Müsəlmanlarının Əlaqə Şurası", "Almaniya İslam Konfransı", "Camaat ən-Nur İslam İcması", "Almaniya Əhmədiyyə Müsəlman Camaatı" |
| Böyük Britaniya | "Britaniya İslam Partiyası", "Britaniya İslam Cəmiyyəti", "Birləşmiş Krallıq Gənc Müsəlmanlar Təşkilatı", "Müsəlman Təşkilatları İttifaqı", "Müsəlman Tələbə Cəmiyyəti", "Tələbə İslam Cəmiyyətləri Federasiyası", "Avropa İslam Şurası", "Birləşmiş Krallıq İslam Missiyası", "Briminhem İslam Yardım Birliyi", "London Müsəlman Yardım Assosiasiyası", "İslam Mədəniyyət Mərkəzi", "Əl-Mühacirun" |
| Fransa | "Böyük Paris Məscidi Müsəlman İnstitutu Federasiyası", "Fransa Müsəllmanlarının Milli Federasiyası", "Fransa İslam Təşkilatları İttifaqı", "Fransanın Gənc Müsəlmanları", "Fransa Müsəlman Tələbələri", "Fransa Müsəlman Qadınları Liqası", "İbn Sina", "Fransa İmamları", "Fransa Müsəlmanları Birliyi", "Teologiya İşləri üzrə Türk-İslam İttifaqı", "Fransa Müsəlmanları Partiyası", "Müsəlman Kultu Fransa Şurası", "Dünyəvi Müsəlmanılar Hərəkatı" |
| **Avstriya** | "Avstriya İslam Dini Birliyi", "Avstriya Şiə Federasiyası", "Avstriya Əhl-ul-Beyt", "Avstriya İslam Federasiyası", "Avstriyada Mədəni və Sosial Əməkdaşlıq üzrə Türk İslam Birliyi", "Mədəniyyətlər Liqası", "Əhmədiyyə Müsəlman Camaatı" |
| **Belçika** | "Belçika-Türk İslam Dəyanət Vəqfi", "Belçika İslam Federasiyası", "Belçika Şiə Birlikləri Federasiyası", "Antverpen Məscidlər və İslam Assosiasiyaları İttifaqı", "Brüssel-Brabamt Valloniya Məscidlər İttifaqı", "Məscidlər İttifaqı Federasiyası", "Mərakəş Demokratik Təşkilatlar Federasiyası", "Müsəlmanların İnkişafı və Emansipasiyası İttifaqı", "Belçika Mədəni və İslam Mərkəzi" |
| **İrlandiya** | "İrlandiya İslan Fondu", "İrlandiya İslam Mədəniyyət Mərkəzi", "Əhlibeyt İslam Mərkəzi", "Qolvey İslam Cəmiyyəti", "Korka Müsəlman Cəmiyyəti", "Limerika İslam Birliyi", "Uoterford İslam Birliyi", "İrlandiya Müsəlmanlarının Ali Şurası", "İrlandiya Müsəlman Gəncləri", "İrlandiya Müsəlmanlarının İctimai İşlər Komitəsi" |
| **Hollandiya** | "İslam Demokratları", "Müsəlman Əlaqəsi Agentliyi", "İslam Əlaqə Qrupu", "Hollandiya Müsəlmanları Şurası", "Əl Huka", "Hollandiya İmamlar Assosiasiyası", |

| | |
|---|---|
| | "İslam və Dialoq", "Dialoq Akademiyası", "İslam Qadınları Birliyi", "Hizb ut-Təhrir" "Əhli Sünnə İslam Fondu Komitəsi" |
| **Polşa** | "Polşa Respublikası Müsəlman Dini İttifaqı", "Polşa Respublikası Müsəlman Liqası", "Müsəlman İttifaqı Assosiasiyası", "Əhlibeyt İslam Assambleyası", "Polşa Müsəlman Tələbələri Cəmiyyəti", "Mədəni Təhsil üzrə Müsəlman Assosiasiyası", "Polşa Respublikası Tatar İttifaqı" |
| **İtaliya** | "İtaliya İslamı Məşvərət Şurası", "İtaliya İslam Birlikləri və Təşkilatları İttifaqı", "İtaliya İslam Mədəniyyəti Mərkəzi", "İslam Dini Birliyi", "Qərbdə İslam İttifaqı", "İtaliya Müsəlmanları İttifaqı", "İtaliyalı Müsəlmanlar İttifaqı", "İtaliya Müsəlmanları Assosiasiyası" |
| **İsveç** | "İsveç İslam Konqreqasiyaları İttifaqı", "İsveç Müsəlmanları İttifaqı", "İsveç Müsəlmanları Şurası", "İslam Mədəniyyət Mərkəzləri İttifaqı", "İsveç İslam Məclisi", "İsveç İslam Şiə Birliyi", "İsveç Gənc Müsəlmanlar Birliyi", "İsveç Eritreya Gənc Müsəlmanları Birliyi", "İbn Rüşd" |
| **Yunanıstan** | "Frakiya Azlıqları Məzunlarının Assosiasiyası", "Ksanti Türk İttifaqı", "Pakistan-Yunan Mədəni Assosiasiyası", "Ərəb-Ellin Mədəniyyət və Sivilizasiya Mərkəzi", "Yunanıstan Müsəlmanları Assosiasiyası" |
| **Bosniya-Hertseqovina** | "Bosniya-Hertseqovina İslam Birliyi", "Mərhəmət" Müsəlman Xeyriyyə Cəmiyyəti, "Nahla" Qadın Təhsil Mərkəzi, "Kövsər" Qadın Təhsil Təşkilatı |
| İspaniya | "İspaniya Dirçəliş və Birlik Partiyası", "İslam Dini Təşkilatlarının İspaniya Federasiyası", "İspaniya İslam Birlikləri İttifaqı" |
| **Portuqaliya** | "Lissabon İslam Birliyi", "lissabon Mərkəzi Məscidi", "İslam Birliyi Gənclər Assosiasiyası", "Palmela İslam Birliyi", "İsmaili Mədəniyyət Mərkəzi" |
| **Albaniya** | "Albaniya Müsəlman Birliyi", "Bektaşiliyin Dünya Qərargahı", "Albaniya Müsəlman Forumu" |
| **Çexiya** | "Çexiya Respublikasında Müsəlman Tələbələrin Ümumi İttifaqı", "Çexiya Respublikası Müsəlman Birlikləri İttifaqı" |
| **İsveçrə** | "İsveçrə Müsəlman Kişiləri və Qadınları", "İsveçrə Müsəlmanları Liqası", "İsveçrə İslam Təşkilatları Federasiyası" |
| **Latviya** | "Latviya Müsəlman Məşvərət Mərkəzi", "Dauqavpils İslam Mərkəzi" |
| Estoniya | "Estoniya İslam Konqreqasiyası", "Estoniya İslam Sünni Konqreqasiyası" |
| **Slovakiya** | "Müsəlman Tələbələrin Ümumi İttifaqı", "Slovakiya İslam Fondu" |
| **Sloveniya** | "Sloveniya Respublikası İslam Birliyi", "Sloveniya Müsəlman Birliyi" |
| **Finlandiya** | "Finlandiya İslam Şurası", "Fin İslam Partiyası" |
| **Norveç** | "Norveç İslam Şurası", "Dini Birliklər üzrə Şura" |
| **Litva** | "Litva Sünni Müsəlmanlarının Mənəvi Mərkəzi" |
| **Xorvatiya** | "Xorvatiya İslam Birliyi" |

*Mənbə: (21, s. 29-51; 23, s. 3-29; 35, s. 40-56; 44, s. 124-125, 128-129; 64, s. 6-12; 65; 72; 74, s. 127-129)*

Avropada müsəlman təşkilatlarının çoxsaylı olmasına baxmayaraq, qitədə yaşayan müsəlmanların çoxu onların fəaliyyətində iştirak etmir. Məsələn,

Almaniyada bütün müsəlmanların 10-30 %-i, Hollandiyada mərakeşlilərin cəmi 1 %-i, türklərin isə 7 %-i islam təşkilatlarının üzvüdür (56, s. 72).

Qitədə mövcud olan islam təşkilatlarının fəaliyyət sferasına gəldikdə, onlar müsəlman miqrantların yeni şəraitə adaptasiya olunmalarına yardım edir, yerli hakimiyyət orqanları qarşısında onların dini və sosial maraqlarını müdafiə edir, müsəlman miqrantların uşaqları arasında islamı, onun norma və ənənələrini yayır, islam faktoru ilə əlaədar məsələlərdə dövlət orqanlarına məsləhətlər verir, hakimiyyət orqanlarının hərəkətlərinə münasibətdə müsəlman icmalarının mövqeyini açıqlayır və s. Qeyd etmək lazımdır ki, əgər dövlət öz ərazisində müsəlman icmasının mövcudluğunu qəbul edirsə, onda həmin dövlətin qanunları çərçivəsində bu icmanın hüquqlarını, o cümlədən dini hüquqlarını tanımalıdır. Bu səbəbdən də, Avropa ölkələrində, xüsusilə də Avropa İttifaqı məkanında islam partiyalarının yaradılması, dini təşkilatların təsis olunması, mitinq, nümayiş və yığıncaqların keçirilməsi və öz maraqlarını təmin etmək üçün qanun daxilində digər addımların atılması qanunauyğun bir haldır.

Göründüyü kimi, müasir dövrdə Avropada təxminən 20 milyon nəfərdən çox müsəlman yaşayır və bu say artmaqda davam edir. Avropa müsəlmanlarının əsas hissəsini burada əmək fəaliyyəti ilə məşğul olan miqrantlar, müəyyən hissəsini isə siyasi mühacirlər təşkil edir. Ən böyük müsəlman icmaları Almaniya, Fransa və Böyük Britaniyada mövcuddur. Müsəlmanların mənəvi həyatında, sayı Avropada minlərlə ölçülən məscidlər əhəmiyyətli yer tutur. Bundan başqa, qitədə fərqli təyinatlı islam təsisatları da mövcuddur. Onlar ərazisində fəaliyyət göstərdikləri dövlətin qanunvericiliyinə uyğun olaraq, müxtəlif sahələrdə, xüsusilə də dini və sosial həyatda müsəlmanların maraqlarının təmin olunması, islam dininin təbliği ilə məşğul olurlar.

## 1.3.Avropanın siyasi, iqtisadi və mədəni həyatında müsəlmanların iştirakı

Müasir dövrdə Avropada yaşayan müsəlmanların əsas hissəsinin əmək miqrantları olmasına baxmayaraq, onların fəaliyyəti yalnız istehsal və xidmət sahəsi

ilə məhdudlaşmır. Başqa sözlə, onlar yaşadıqları ölkənin həm siyasi, həm iqtisadi, həm də mədəni həyatında baş verən proses və dəyişikliklərə biganə qalmır, onların müzakirəsində və həllində iştirak edirlər. Avropa ölkələrindəki müsəlmanların bir hissəsi, onların övladlarının isə çoxu artıq vətəndaşlıq statusuna malikdirlər, yəni yaşadıqları ölkənin tam hüquqlu vətəndaşları kimi, müxtəlif sferalarda maneəsiz iştirak etmək hüququ əldə etmişlər.

XXI əsrin əvvəllərində Avropada müsəlmanlar tərəfindən təsis olunmuş 7 min təşkilat var idi (50). Onlar ümumavropa, milli və regional təşkilatlara bölünür, mədəni-maarif, təhsil, elmi, xeyriyyəçilik fəaliyyəti ilə məşğul olur və bir çox hallarda bu təşkilatlar müsəlman ölkələrinin yardımlarından istifadə edirlər. Onların çoxu miqrantlara müxtəlif yardımlar göstərir, islam identikliyi və Avropa cəmiyyətinə inbteqrasiya arasında balans saxlamağa çalışırlar.

Müsəlmanların Avropanın siyasi həyatında iştirakı forma baxımından kifayət qədər müxtəlif olduğu kimi, konkret siyasi sistemdə onların davranış strategiyaları da müxtəlifdir. Bu siyasi fəaliyyət, bir tərəfdən, mənsub olduqları qrupun maraqlarını müdafiə etməyə, sosial-mədəni problemlərini həll etməyə imkan verirsə, digər tərəfdən, müsəlmanların Qərb cəmiyyətinə inteqrasiyasını sürətləndirir, onlarda dövlətin siyasi sisteminə mənsubiyyət hissini gücləndirir.

Hal-hazırda Avropada müsəlmanların yeni siyasi elitası formalaşmışdır. Bu elitanın Avropada təhsil görmüş nümayəndələri inteqrasiyaya, Avropa hüquq normalarının və siyasi dəyərlərinin qəbul edilməsinə daha çox yönəlmiş siyasi baxışlara malikdirlər. Onlar öz diqqətlərini transmilli deyil, milli siyasətə, etnik və dini fərqləri nəzərə almadan, müsəlmanların birliyinin təmin olunmasına yönəldirlər.

Avropa müsəlmanlarının sosial-siyasi fəallığının artması və öz maraqlarını qorumaq meyllərinin güclənməsi onların mənafeyini ifadə edən bir sıra siyasi partiyanın yaranması ilə nəticələnmişdir. Bu gün İspaniyada "Dirçəliş və Birlik Partiyası", Hollandiyada "İslam Demokratları Partiyası", Belçikada "Avropa Ərəb Liqası", "Gənc Müsəlmanlar Hərəkatı", Almaniyada "Sülh və Ədalət uğrunda Alyans", Fransada "Fransa Müsəlman Demokratları İttifaqı", İsveçdə "Siyasi İslam İttifaqı", Bolqarıstanda "Hüquq və Azadlıq uğrunda Hərəkat", Böyük Britaniyada

"Britaniya İslam Partiyası", Norveçdə "Müasir Partiya" fəaliyyət göstərir (64). Mövcud olmalarına baxmayaraq, bu partiyaların cəmiyyətdə siyasi çəkisi yüksək deyildir.

Müsəlman identikliyinin qorunub saxlanılması, üzləşdikləri problemlərin həlli, maraqlarının təmin olunması istiqamətində fəaliyyət müsəlmanların siyasi partiyalarla münasibətlərinə bilavasitə təsir göstərir. Nəzərə almaq lazımdır ki, Avropadakı aparıcı siyasi partiyaların əksəriyyətində müsəlman fraksiyaları mövcuddur.

Keçən əsrin 80-ci illərinə qədər Böyük Britaniyada müsəlmanlar Leyboristlər partiyasını müdafiə edirdilər, lakin sonradan onların bu partiyaya göstərdikləri yardım zəifləməyə başladı. Buna səbəb etika məsələlərində, xüsusilə də cinslərin qarşılıqlı münasibətləri məsələsində partiya mövqeyinin müsəlman ənənələri ilə ziddiyyət təşkil etməsi idi. Müsəlmanların ailə dəyərlərinə üstünlük verməi onları Mühafizəkarlar partiyası ilə yaxınlaşdırdı, lakin 90-cı illərin birinci yarısında mühafizəkarlar ictimai-siyasi həyatda müsəlmanların iştirakının genişlənməsi əleyhinə çıxış etməyə başladılar. Bunun əksinə olaraq, 1998-ci ildə hakimiyyətə gələn leyboristlər öz daxili siyasətlərində müsəlmanlara liberal münasibət göstərirdilər, hətta onların dövründə icmalar palatasına müsəlmanların nümayəndəsi seçildi. M. Sərvər icmalar palatasına seçilmiş ilk müsəlman oldu. Müsəlman leyborist N. Əhməd 1998-ci ildə per adına layiq görüldü. Bundan başqa, hökumətlə müsəlman nümayəndələr arasında məsləhətləşmələr başladı. "Böyük Britaniya Müsəlman Şurası" bir sıra qanun layihələrində müsəlmanların maraqlarına uyğun dəyişikliklər edilməsinə nail oldu. 2007-ci ildə Britaniya parlamentində artıq 13 müsəlman vardı, onlardan 7 nəfəri ömürlük perlər idi (76, s. 144-145). Bu rəqəmlər Böyük Britaniyanın siyasi həyatında müsəlmanların fəallığının durmadan artdığını göstərir. 2016-cı ildə pakistanlı miqrant Sadiq Xan Londonun meri seçilmişdir.

2010-cu ildə Britaniya parlamentinin Mühafizəkarlar partiyasından olan iki müsəlman üzvü ilk dəfə olaraq nazir vəzifəsinə təyin olunmuşdu. Əgər 1997-ci ildə İcmalar palatasında cəmi bir müsəlman vardısa, 2010-cu ildə onların sayı 10 nəfərə

bərabər idi. 2014-cü ildə Lordlar palatasında 15 nəfər müsəlman vardı. Bundan başqa, Britaniyalı 5 nəfər müsəlman Avropa parlamentinə seçilmişdi.

Müsəmanlar Böyük Britaniyanın polis orqanlarında da geniş təmsil olunmuşlar. 2014-cü ildə müsəlman-polislərin sayı 2 min nəfərdən çox idi ki, bu da ölkədəki bütün polislərin 11 %-dən çoxunu təşkil edirdi. Burada müsəlmanları polis orqanlarında xidmətə cəlb etmək istiqamətində fəaliyyət göstərən xüsusi assosiasiyalar yaradılmışdır (81).

Almaniyada 1998 və 2002-ci il seçkilərində müsəlmanlar, xüsusilə də türklər "yaşılları" və sosial-demokratları dəstəkləmişdilər, çünki onlar Türkiyənin Avropa İttifaqına qəbul olunmasına tərəfdar idilər (46). Hal-hazırda Almaniya Bundestaqının 603 deputatından 2-si müsəlmandır (81).

Belçika parlamentində müsəlman deputatların sayı 6 nəfərə bərabərdir. Brüssel şəhər soveti üzvlərinin dörddə biri müsəlmanlardan ibarətdir. İsveç parlamentində 369 deputatdan 3-ü müsəlmandır (81).

2005-ci ildə Avropa İttifaqı ölkələrinin parlamentlərində 30 nəfər müsəlman vardı. 2007-ci ildə Avropa parlamentinin 785 deputatından 6 nəfəri (Böyük Britaniya, Almaniya, Fransa və Hollandiya nümayəndələri) müsəlman idi (46). 2009-cu ildə onların sayı 11 nəfərə çatmışdı (25). Hal-hazırda əsasən Böyük Britaniya və Fransa təmsilçilərinin tərkibində on nəfərdən çox müsəlman Avropa parlamentində iştirak edir.

Müsəlmanların Avropa ölkələrinin siyasi həyatındakı xüsusi çəkisinin artması onların partiya və parlamentlərdə təmsil olunmaları ilə məhdudlaşmır. Bəzi ölkələrdə onlar artıq seçici qruplarını təşkil edir və bu səbəbdən də avropalı siyasətçilərin diqqət mərkəzinə çıxmışlar. Müsəlmanların səslərinin Avropanın bəzi ölkələrindəki seçkilərə böyük təsir göstərdiyi danılmaz faktdır.

2002-ci ildə Almaniyada federal kansler seçkiləri zamanı namizədlər arasında müsəlmanların səsləri uğrunda da mübarizə gedirdi. Ekspertlər bu seçkilərdə Sosial-Demokrat Partiyası ilə "Yaşıllar" partiyasından ibarət koalisiyanın məğlubiyyətini proqnozlaşdırırdılar, lakin seçkilərdə təkrar iştirak edən sosial-demokrat H. Şröder vəziyyəti öz xeyirlərinə dəyişə bildi. Onun seçkiqabağı vədlərində Türkiyənin

Avropa İttifaqına daxil olması üçün hər şeyi edəcəyini vurğulayır, eyni zamanda İraq məsələsinin hərbi yolla həllinin əleyhinə çıxış edirdi. Nəticədə H. Şröder Almaniya müsəlmanlarının rəğbətini qazana bilmiş və 600 min müsəlman seçici öz səslərini onun rəhbərlik etdiyi koalisiyaya verməklə sonuncunun qələbəsini təmin etmişdi (81). Almaniyada keçirilmiş növbəti seçkilərdə də müsəlmanların səsləri öz əhəmiyyətini saxlamışdı.

Oxşar vəziyyət Fransada da müşahidə olunur. Məsələn, 2012-ci il prezident seçkilərində F. Olandın qələbəsində müsəlman seçicilərin səslərinin müəyyən təsiri olmuşdu. “Fiqaro” qəzetinin keçirdiyi rəy sorğusuna görə, Fransa müsəlmanlarının 93 %-i öz səslərini F. Olandın, yalnız 7 %-i N. Sarkozinin lehinə vermişdilər. F. Oland 1,7 milyon nəfər müsəlmanın səsini qazanmışdı və nəzərə alınsa ki, o, rəqibinə 1,1 milyon səs fərqi ilə qalib gəlmişdi (81), onda müsəlmanların Fransa seçkilərinə həlledici təsir göstərmək iqtidarında olduqlarını söyləmək olar.

Üzvlərinin sayı çox olan müsəlman icmalarının mövcud olduğu digər ölkələrdə də siyasi qüvvələr tərəfindən müsəlmanların rəyi və maraqları nəzərə alınır.

Müsəlmanlar yerli orqanların işində də fəal iştirak edirlər. Məsələn, 2014-cü ildə İngiltərədə yerli şuralara keçirilmiş seçkilərdə 897 müsəlman öz namizədliyini irəli sürmüşdü. Onlardan 354 nəfəri Leyboristlər, 256 nəfəri isə Mühafizəkarlar partiyasının təmsilçiləri idi. Seçkilərdə 277 nəfər müsəlman uğur qazanmışdı (81).

İqtisadiyyat müsəlmanlarının kifayət qədər fəallıq göstərdikləri sahələrdəndir. Onlar hər şeydən əvvəl Avropa iqtisadiyyatının işçi qüvvəsinə olan tələbatının ödənilməsində əsas rollardan birini oynayırlar. Nəzərə alınsa ki, demoqrafik böhran vəziyyətinə çatan Avropada iqtisadiyyat davamlı olaraq inkişaf edir, onda miqrantların, o cümlədən müsəlman miqrantların fəaliyyətinin necə böyük əhəmiyyətə malik olduğu üzə çıxar. Başqa sözlə, miqrantlar Avropanın iqtisadi inkişafını təmin edən əsas qüvvələrdən biridir.

Müsəlmanların fəallığı qitə ölkələrinin maliyyə bazarlarında daha çox müşahidə olunur. Bu, bir sıra səbəblərlə bağlıdır. Hər şeydən əvvəl 2008-2009-cu illərin maliyyə böhranı, ondan irəli gələn və bu günə qədər davam edən durğunluq iqtisadiyyatı ciddi maliyyə problemləri ilə üz-üzə qoymuş, nəticədə Avropa

dövlətləri əlavə maliyyə mənbələri axtarmaq məcburiyyətində qalmış və islam bankları buna reaksiya verərək, buradakı fəaliyyətlərini genişləndirmişlər. Bundan başqa, islam bankçılığında spekulyativ hərəkətlər istisna təşkil etdiyi üçün, ona həm istehsal müəssisələri, həm də sıravi vətəndaşlar tərəfindən maraq getdikcə artır. Nəhayət, Avropada getdikcə inkişaf etməkdə olan müsəlman icması şəriət prinsip və normalarına əsasən fəaliyyət göstərən islam banklarına daha çox müraciət edirlər.

Yuxarıda qeyd olunanların nəticəsi olaraq, son illərdə islam bank sisteminin Avropa ölkələrinin maliyyə sisteminə nüfuz etməsi geniş vüsət almış, islam bankları, sığorta şirkətləri, ixtisaslaşmış fondlar Avropanın bir sıra dövlətlərində maliyyə bazarlarının ayrılmaz elementinə çevrilmişdir. Böyük Britaniya islam bankçılığının ən geniş tətbiq olunduğu Avropa ölkəsidir.

Böyük Britaniyada 5 islam bankı və 1 sığorta şirkəti fəaliyyət göstərir. Bundan başqa, Birləşmiş Krallıqda fəaliyyət göstərən 17 yerli bankda və xarici ölkə banklarının filiallarında islam maliyyə xidmətləri göstərən "pəncərələr" mövcuddur. Belə bankların sırasında "Bank of İrland", "Barklays Bank", "BNP Paribas", "Sitibank", "Döyçe bank", "HSBC Amanah", "Royal Bank of Skotland", "Standard Çartered", "UBS" və s. vardı. 2008-ci ildə "HSBC Amanah" bankında islam aktivləri 15,2 milyard dollara bərabər idi. London dünyada islam bankçılığının mərkəzlərindən birinə çevrilmişdir (34, s. 7). 2013-cü ilin sonlarında London Fond Birjasında ümumi dəyəri 34 milyard dollara bərabər "sukuk" (islam qiymətli kağızları) yerləşdirilmişdi. 2006-cı ildə Avropada ilk islam investisiya bankı olan "Avropa İslam İnvestisiya Bankı" Böyük Britaniyada fəaliyyətə başladı. Onun təsisçiləri Yaxın Şərqdən və Avropadan olan hüquqi və fiziki şəxslərdir (51). Həmin ilə qədər təkcə Londonda müsəlman ölkələrinin 250 milyard dollar sərmayəsi cəmləşmişdi. Bu dövrdə İngiltərədə müsəlman mənşəli 5 min nəfər milyonçu vardı. Onların aktivlərinin ümumi məbləği 3,2 milyard dollara bərabər idi (17, s. 6-7, 12).

2008-ci ildə "Salaam Halal İnsurance" brendi altında "Takaful" sığorta şirkəti Avropada fəaliyyətə başladı. Britaniya hökuməti 310 milyard funt dəyərində 550 infrastruktur layihəsini islam banklarının maliyyəsi hesabına reallaşdırmaq barədə proqram hazırlamışdır (51).

Avrozonaya daxil olan ölkələrdə islam bankçılığına nisbətən gec diqqət yetirilmişdir. Bu məkanda ilk islam bankı 2014-cü ildə Lüksemburqda yaradıldı (51). Bunun ardınca avrozonaya daxil olan digər ölkələrdə də islam bankları meydana gəldi. 2015-ci ilin yayında Frankfurt şəhərində Almaniyada birinci olan "KT Bank AG" islam bankı açıldı (36). Həmin ilin sentyabrında Paris yaxınlığındakı Şel şəhərində Fransanın ilk islam bankı fəaliyyətə başladı (38). İslam bankçılığı İtaliya, Belçika və s. ölkələrdə də təşəkkül tapmışdır.

Bank strukturları ilə yanaşı, hal-hazırda Avropada müsəlmanlara məxsus minlərlə müəssisə fəaliyyət göstərir, onların əhəmiyyətli hissəsi xidmət sahəsində təmsil olunmuşlar. Müsəlmanların Avropa iqtisadi məkanındakı fəaliyyətinin xarakterik xüsusiyyətlərindən biri ondan ibarətdir ki, onlar yerli sahibkarları möhkəmləndikləri sahələrdən sıxışdırmağa cəhd etmir, boş olan sahələrdə öz işlərini daha çox qururlar.

Müsəlman sahibkarların fəaliyyəti Avropa ölkələrinin yüksək inkişaf etmiş iqtisadiyyatının inkişafına həlledici olmasa da, əhəmiyyətli təsir göstərir. Bunu Almaniyada yaşayan türklərin iqtisadi fəallığı fonunda görmək olar. Birinci və ikinci nəsildən olan türk miqrantlar bu işdə daha fəaldırlar. Onlar Almaniyada əcnəbilər tərəfindən yaradılmış xırda və orta biznes obyektlərinin əhəmiyyətli hissəsinə malikdirlər. Ümumilikdə, bu ölkədə 60 min türk xırda və orta sahibkarlıqla məşğul olur, 327 min nəfəri işlə təmin edir. Təkcə Berlində 5 min nəfər türk sahibkar 14 min nəfəri işlə təmin edir (82, s. 191). 2005-ci ildə 66 min türk müəssisəsi Almaniya iqtisadiyyatına 7,5 milyard avro investisiya qoymuşdu və bunun da nəticəsində alman iqtisadiyyatı 30 milyard avro həcmində mənfəət əldə etmişdi (33, s. 30). 2012-ci ildə təkcə Almaniyada türklərə məxsus 60 min müəssisə mövcud olmuşdur. Bu müəssisələrin illik dövriyyəsi 30 milyard avroya bərabər idi (51).

Fransa müsəlmanları arasında çoxluq təşkil edən Şimali Afrika mənşəli olanlar əsasən kənd təsərrüfatında, ticarətdə, balıq və toxuculuq sənayesində, mehmanxanalarda çalışırlar (82, s. 190).

Avropa ölkələrində müsəlmanların bir hissəsi ticarətlə məşğul olurlar. Onların sahibi olduqları ticarət obyektlərinin bir qrupu xüsusi fərqləndirici xüsusiyyətlərə

malik deyil, cəmiyyətin bütün təbəqələrinin bu və ya digər tələbatını ödəmək üçün xidmət göstərir. Digər qrup ticarət obyektlərini isə, şərti olaraq "islam mağazaları" adlandırmaq olar. Onlar əsasən Avropada yaşayan müsəlmanlara xidmət göstərir və öz fəaliyyətlərini islam dininin norma və prinsiplərinə uyğun olaraq qururlar. Belə ticarət müəssisələrinə böyük müsəlman icmalarının mövcud olduğu Almaniya, Böyük Britaniya, Fransa, İtaliya, İspaniya, Hollandiya, Belçika və s. ölkələrdə daha çox rast gəlinir.

Avropa müsəlmanları yaşadıqları ölkələrin mədəni həyatında da iştirak edir və bu sahədə fəaliyyət dairələrini davamlı olaraq genişləndiririrlər. Onlar bu yolla, bir tərəfdən, özlərinin zəngin mədəniyyətlərini Avropa cəmiyyətinə çatdırır, onu təbliğ edir və beləliklə də avropalıların müəyyən hissəsinin süurunda formalaşmış neqativ müsəlman obrazının müsbət istiqamətdə dəyişməsinə yardım edir, digər tərəfdən isə, ümumilikdə Avropa mədəniyyətinə öz töhfələrini verir, onu zənginləşdirirlər.

Avropanın mədəni həyatına cəlb olunmuş müsəlmanlar təhsilə xüsusi fikir verir və bu sahə ilə bağlı olan təsisatlar yaradırlar. XXI əsrin əvvəllərində Avropanın bir çox ölkələrində müsəlman ibtidai və orta məktəbləri meydana gəlmişdir. Böyük Britaniyada 60-dan çox, Hollandiyada təxminən 30, İsveçdə 13 belə məktəb fəaliyyət göstərir. Müsəlman məktəbləri Belçikada, Danimarkada, Fransada da mövcuddur. Bu məktəblərdə rəsmi tədris proqramlarının yerinə yetirilməsi ilə yanaşı, ərəb dili və islam etikası da öyrədilir. Hollandiya, Belçika, Danimarka, İsveç və başqa ölkələrdə müsəlman tədris müəssisələri dövlət yardımı alırlar. Böyük Britaniyada 2 belə məktəb büdcə vəsaitlərindən istifadə edir (50).

Sosial elmlər üzrə Avropa İnstitutu müsəlman təhsil müəssisələri arasında əhəmiyyətli yer tutur. Fransa və Böyük Britaniyada üç filiala malik olan bu təhsil müəssisəsinin strukturuna ərəb dili və Quranı Öyrənmə institutuları və İslam Tədqiqatları üzrə Avropa Fakültəsi daxildir. İnstitutda 500 tələbə oxuyur, təxminən bir o qədər də qiyabi təhsil alır. Sosial elmlər üzrə Avropa İnstitutunun əsas məqsədi Avropa müsəlmanlarının yeni nəsillərinə islam dini haqqında biliklər aşılamaq və onları müasir Avropa cəmiyyətinin reallıqları ilə tanış etməkdən ibarətdir. Burada həmçinin Avropadakı islam mərkəzlərini və məscidləri idarə etmək üçün kadrlar

hazırlanır, hal-hazırda idarəçiliklə məşğul olanların təkmilləşdirilməsi həyata keçirilir (50). Şübhəsiz ki, gənc müsəlmanların Avropa cəmiyyətinin üzvləri kimi tərbiyələndirilməsi həm də qitədə tolerantlığın, dinlər və etnoslar arasında əməkdaşlığın təmin olunması baxımından müsbət hal kimi qiymətləndirilə bilər.

Fətva və Tədqiqatlar üzrə Avropa Şurası elmi-tədqiqat müəssisəsi olaraq, həm Avropa müsəlmanlarını, həm də ümumilikdə Qərb dünyasını maraqlandıran suallar ətrafında tədqiqatlar aparır və əldə olunan nəticələri Avropanın müxtəlif dillərində və ərəb dilində toplu şəklində nəşr etdirir. Qərargahı İrlandiyanın paytaxtı Dublində yerləşən Şurada müxtəlif ölkələrdən çıxmış, müxtəlif millət və məzhəblərə mənsub olan 30 nəfərdən çox alim çalışır.

Qərargahı İsveçin paytaxtı Stokholmda yerləşən İslam Liqası Məktəbləri Böyük Britaniya, Hollandiya, İsveç, Danimarka, Almaniya və Belçikada fəaliyyət göstərən islam məktəblərinin nümayəndələri tərəfindən yaradılmışdır və məqsədi qeyd olunan ölkələrin təhsil müəssisələri arasında əməkdaşlıq və əlaqələrə yardım göstərməkdən ibarətdir. Liqa Avropada təhsil məsələləri ilə bağlı seminar və konfranslar keçirir.

Pakistan, Hindistan, Banqladeş və Kəşmirdən çıxan müsəlmanların təsis etdikləri İslam Missiyası, İslam Çağırışı və İslam Avropa Klubu Böyük Britaniya, Fransa, İtaliya, İsveç və s. ölkələrdə fəaliyyət göstərir, tərkibində onlarla müxtəlif strukturlar mövcuddur. Onlardan biri, Böyük Britaniyanın Markfild şəhərindəki tədqiqat mərkəzi Avropanın nüfuzlu mərkəzlərindən biridir (50).

Müsəlman gənclərin və tələbələrin təsis etdikləri təşkilatlar da Avropanın ictimai-mədəni həyatında fəal iştirak edirlər. Belə təşkilatlar Böyük Britaniya, Fransa, Belçika, İtaliya, Almaniya və Avropanın digər ölkələrində fəaliyyət göstərir. Onlar Avropadakı müsəlman gənclərin sosial qaydalarının və fəaliyyət istiqamətlərinin formalaşmasında, islam identikliyini saxlamaqla, onların Avropa dəyərlərinə yiyələnmələrində fəal rol oynayırlar. Fəaliyyətlərini əlaqələndirmək məqsədilə gənclər və tələbə təşkilatlarının 36-sı 2012-ci ildə birləşərək, Gəncləri və Tələbə Təşkilatlarının Avropa Klubunu yaratdılar.

Avropada müsəlman gənclər və tələbələrin yaratdıqları digər təşkilat Avropa Gəncləri və Tələbələrinin İslam Klubudur. Müxtəlif ölkələrdəki 40-dan çox regional

gənclər və tələbə təşkilatlarını birləşdirən bu klub müxtəlif istiqamətli ictimai fəaliyyətlə məşğul olur, gənc liderlər hazırlamaq məqsədilə seminarlar, konfranslar keçirir, gənclər düşərgələri təşkil edir, digər dinlərə mənsub gənclərin birləşdikləri təşkilatlarla əlaqə saxlayır. Bu klub Avropa İttifaqında da təmsil olunmuşdur (50).

Avropanın mədəni-ictimai həyatında müsəlman qadınların oynadıqları rolu da diqqətdən kənarda saxlamaq olmaz. Şübhəsiz ki, Avropada islam qadını haqqında müxtəlif, çox vaxt neqativ streotiplərin mövcud olduğu bir şəraitdə bu qadınların fəaliyyəti kifayət qədər çətinliklərlə bağlıdır və ictimai şüurda qərar tutmuş bu streotipləri aradan qaldırmaq üçün müsəlman qadınların ictimai-mədəni və peşə sahələrində fəallığı vacib şərtlərdəndir.

Müsəlman qadınları Avropada maarifçilik fəaliyyəti ilə məşğul olur, gənc nəslin tərbiyəsində iştirak edirlər. Eyni zamanda, onlar təşkilatlanma işini də diqqət mərkəzində saxlamış və nəticədə bir sıra qadın təşkilatları meydana gəlmişdi. Avropada müsəlman qadınların təsis etdikləri nüfuzlu təşkilatlar sırasında Böyük Britaniya Müsəlman Qadınları Cəmiyyətini, Fransa Müsəlman Qadınları Liqasını, İsveçrə Müsəlman Qadınları Liqasını, İsveç Müsəlman Qadınları Liqasını və s. göstərmək olar.

2001-ci ildə Brüsseldə Avropa İslam Təşkilatları Şurasının təşkilatçılığı ilə Avropa qadın cəmiyyətləri nümayəndələrinin forumu keçirildi. Bu forumda Avropanın 9 ölkəsindən olan müsəlman qadın nümayəndəlikləri iştirak etmişdi. Növbəti forum İsveçrənin Nyu-Şatele şəhərində keçirilmişdi və orada artıq Avropanın 11 ölkəsindən 30 nümayəndə iştirak edirdi. Bu forumda, Avropadakı bütün müsəlman qadın təşkilatlarına yardım göstərmək məqsədilə İşçi Komitə yaratmaq haqqında qərar qəbul edilmişdi (50).

Avropanın mədəni həyatında iştirak edən müsəlman təsisatları arasında peşə təşkilatları əhəmiyyətli yer tutur. Belə təşkilatlardan biri Avropa Jurnalistləri Assosiasiyasıdır. Bu Assosiasiyada birləşən jurnalistlərin fəaliyyəti Avropada informasiya mühitinin, mədəniyyət məkanının inişafına yönləmişdir. Assosiasiya Avropanın digər jurnalist təşkilatları ilə informasiya, mədəni və ideya mübadiləsinə yardım edir, Avropadakı islam mədəni-maarif təşkilatları, informasiya xidmətlərinin

fəaliyyətini əlaqələndirir, informasiya və mədəniyyət sahəsində müxtəlif layihələr həyata keçirir. Assosiasiyanın qərargahı Avstriyanın paytaxtı Vyanada yerləşir (50).

Avropa elmi-mədəni mühitində iştirak etmək vasitələrindən biri kimi çıxış edən strukturlar sırasında müsəlman həkimlərin birləşdiyi təşkilatlar da vardır. Belə təşkilatlar Böyük Britaniyada, Fransada, Almaniyada və s. ölkələrdə mövcuddur. Onlar Ərəb Həkimləri Cəmiyyəti, Avropa Müsəlman Həkimləri İttifaqı kimi nüfuzlu assosiasiyalarda birləşmişdir (50).

Avropa müsəlmanlarının təsis etdikləri humanitar təşkilatların fəaliyyəti təkcə Avropanı deyil, dünyanın bir çox regionlarını əhatə edir. Avropa Müsəlman Cəmiyyəti, İslam Xeyriyyəçiliyi, İslam Yardımı və s. təşkilatlar böhran və faciələrdən əziyyət çəkən, ehtiyacı olan müsəlman və qeyri-müsəlmanlara yardım edir.

Bu gün Avropa müsəlmanlarından alimlər Tarik Ramadan, Xoşam Daud, Fərid əl-Əsri, Moris Böyükay, Asəf Bayat, Bassam Tibi, Tarik Modud, Şəmsi Şərif Xan, yazıçılar Əminə Sevgi Özdəmir, Malik Şebel, Hənif Küreyşi, İdris Taufik, kinorejissor Fatih Akın, futbolçular Zinyəddin Zidan, Məsut Özil, İlkay Gündoğan, Kərim Benzema, Samir Nəsri, Kolo Ture, Abu Diabi, Xalid Bulahruz və başqaları Avropa cəmiyyətində öz nüfuzlu yerlərini tutmuş və qitədə humanitar sahənin inkişafına öz töhfələrini verirlər.

Aparılan araşdırmalardan aydın olur ki, müsəlmanlar Avropa ölkələrinin siyasi, iqtisadi və mədəni həyatında yaxından iştirak edirlər. Bu gün qitənin bir sıra ölkələrində müsəlmanların siyasi partiyaları mövcuddur, onlar seçkilərdə iştirak edir, parlamentlərə seçilir və eyni zamanda, onların səsləri yüksək dövlət vəzifələrinə seçilmək istəyən yerli siyasətçilər üçün getdikcə daha çox əhəmiyyət kəsb edir. Müsəlmanlar Avropada geniş iqtisadi fəaliyyətlə məşğuldurlar. Onlar əmək bazarının əsas seqmentlərindən birini təşkil edirlər. İslam bankçılığı öz əhatə dairəsini getdikcə genişləndirir, müsəlman sahibkarlar fəaliyyət göstərdikləri ölkələrin iqtisadi inkişafına öz töhfələrini verirlər. Avropanın mədəni həyatında da müsəlmanların rolu kölgədə qalmır. Hal-hazırda qitədə islam mədəniyyətinin təbliği ilə məşğul olan təhsil müəssisələri mövcuddur, elm və mədəniyyətin müxtəlif sahələrində onlarla nüfuzlu müsəlman ziyalısı fəaliyyət göstərir.

# II FƏSİL. AVROPADA İSLAMAFOBİYANIN SƏBƏBLƏRİ, FORMALARI VƏ NƏTİCƏLƏRİ

## 2.1. Müsəlman miqrantlar və Avropa dəyərləri

Avropa dəyərləri dedikdə ümumilikdə dövlət, cəmiyyət və ailə institutlarının strukturunu və fəaliyyətini tənzimləyən və avropalıların identikliyinin əsasını təşkil edən siyasi, hüquqi, mədəni, etik və s. normalar nəzərdə tutulur. Eyni zamanda, qeyd olunan normaların məzmunu və mahiyyəti avropalıların özləri tərəfindən birmənalı qiymətləndirilmir. Avropa Şurası baş katibinin məsləhətçisi Aleksandr Qessel bu məsələ ilə bağlı qeyd edir ki, ədəbiyyatda "terrorizm" anlayışı kimi, "Avropa dəyərlərinin" də nə olduğu barədə vahid fikir yoxdur. Avropa dəyərləri haqqında danışanda hamı bir-birini başa düşür, baxmayaraq ki, hərə öz baxışını ortaya qoyur (79).

Müasir dövrdə Avropada yaşayan əcnəbilərin, xüsusilə də müsəlmanların, haqqında söhbət gedən dəyərlərə münasibəti, onların mənimsənilməsi səviyyəsi, bu sahədə meydana gələn pozitiv və neqativ məqamlar, nəhayət bütün bunların nəticələri müxtəlif müstəvilərdə geniş müzakirə olunan məsələlərdəndir. Bu problemin üzərində siyasətlər qurulur, strategiyalar hazırlanır, əksəriyyəti siyasətdən uzaq olan miqratntlar siyasi münasibətlərin, siyasi hesablaşmaların vasitəsinə və əsirinə çevrilirlər.

Danılmaz faktdır ki, müsəlmanların Avropa dəyərlərini mənimsəmələrində, onların Avropa cəmiyyətlərinə inteqrasiya olunmalarında kifayət qədər problem mövcuddur, lakin bu, onların qeyd olunan dəyərləri birmənalı olaraq rədd etmələri, yaşayıb, fəaliyyət göstərdikləri cəmiyyətə biganəlikləri ilə bağlı deyildir. Əvvəlki fəsildə göstərildiyi kimi, hal-hazırda Avropada müsəlmanlar tərəfindən təsis edilən onlarla dini, siyasi, humanitar-mədəni xarakterli təşkilatlar mövcuddur, çoxlu sayda müsəlman ziyalı fəaliyyət göstərir və onların mütləq əksəriyyətinin əsas qayəsi müsəlmanların, öz milli-dini identikliyini qorumaqla yanaşı, Avropa cəmiyyətinə uğurlu inteqrasiya olunmalarına yardım göstərməkdən ibarətdir və bu sahədə

uğurların olmadığını və ya bütün problemlərin həll olunduğunu söyləmək mümkün deyildir.

Miqrantların, o cümlədən müsəlmanların inteqrasiyası ilə bağlı mövcud olan problemləri ümumiləşdirərək, aşağıdakıları qeyd etmək olar:

1. miqrasiyanın miqyasının, miqrantların sayının çoxluğu;

2. miqrantlarla qəbul edən ölkə əhalisi arasında mədəni, sosial və dini fərqlərin böyüklüyü;

3. miqrantların sosial-iqtisadi cəhətdən marginallaşması (80, s. 370).

Müsəlmanların Avropa dəyərlərinə tam uyğunlaşa bilməmələrinin səbəblərini yalnız onların özlərində axtarmaq düzgün olmazdı. Şübhəsiz ki, müsəlmanlar Avropada etnik və ya dini icmalar şəklində və konkret regionlarda yaşamağa üstünlük verirlər, onların çoxunun peşə kvalifikasiyası və təhsil səviyyəsi aşağıdır, gəldikləri ölkənin dilini bilmə problemləri mövcuddur və bütün bunlar yerli əhali ilə onlar arasında müəyyən mənəvi-psixoloji sədlərin meydana gəlməsinə səbəb olur. Eyni zamanda, bu sədlərin yaranmasında Avropa dövlətlərinin və cəmiyyətlərinin müəyyən hissəsinin biganəliyi, dözümsüzlüyü, millətçiliyi, müsəlmanlara ikinci növ insanlar kimi yanaşmaları və s. bu kimi amillər də eyni dərəcədə rol oynayır.

Avropa İttifaqı ölkələrinin 2007-ci ildə imzaladıqları Lissabon müqaviləsinin birinci maddəsində deyilir: "İttifaq insan şərəfinə, azadlığına, demokratiyaya, bərabərliyə, hüquqi dövlətə hörmət olunmasına və azlıqlara aid olan şəxslər də daxil olmaqla, insan hüquqlarının yerinə yetirilməsinə əsaslanır. Bu dəyərlər plüralizm, qeyri-diskriminasiya, dözümlülük, ədalət, həmrəylik, qadın və kişilərin bərabərliyi ilə xarakterizə olunan cəmiyyət çərçivəsində bütün üzv-dövlətlər üçün ümumidir" (30, s. 11). Göründüyü kimi, insan şərəfi, azadlığı, bərabərliyi və s. dəyərləri qorumaq, ayrı-seçkiliyə yol verməmək, dözümlülük və ədalət nümayiş etdirmək və s. Avropa dövlətlərinin mütləq əksəriyyətinin, o cümlədən qitə müsəlmanlarının çoxunun yaşadığı dövlətlərin hüquqi öhdəlikləri sırasına daxildir və bu öhdəliklərə əməl olunması müsəlmanların da Avropa məkanına inteqrasiyası üçün münbit şərait yarada bilər, lakin bu, praktikada heç də həmişə və hər yerdə müşahidə olunmur.

Uzun müddət Asiya və Şimali Afrikada hakim mövqe tutmuş avropalıların bir hissəsi Avropa müsəlmanlarına müstəmləkə dövründən miras qalmış təfəkkürlə yanaşırlar. Avropa dəyərlər sisteminin üstünlüyünün iddia olunduğu belə yanaşma, mahiyyət etibarı ilə inteqrasiyanı deyil, assimilyasiyanı ön plana çıxarır. Ümumiyyətlə, miqrantların inteqrasiyası problemi müəyyən məsələlərə aydınlıq gətirilməsini tələb edir. Hər şeydən əvvəl müəyyənləşdirmək lazımdır ki, miqrant gəldiyi ölkədə hansı xüsusiyyətlərə, vərdişlərə yiyələnməlidir ki, inteqrasiya olunmuş hesab edilsin, hansı halda onun miqrant statusuna son qoyulur? Şübhəsiz ki, bu suallar əsasən cavabsız qalır və bu da müxtəlif ideyaların, modellərin, mexanizmlərin meydana gəlməsinə səbəb olur.

Müasir dövrdə inteqrasiya üç prosesi əhatə edir: assimilyasiya, mədəni adaptasiya və struktur adaptasiya. Assimilyasiya zamanı miqrantlar qəbul edən ölkənin əhalisinin tərkibində "əriyirlər", yəni etnik identikliyi itirirlər. Mədəni adaptasiya dedikdə miqrantların yeni mədəni mühitə uyğunlaşması nəzərdə tutulur, bu zaman onların malik olduqları dəyər və normalar müəyyən dəyişikliyə məruz qalsa da, etnik identikliyi dəyişməz qalır. Struktur adaptasiyada mədəni dəyərlər arxa plana keçir, sosial-iqtisadi göstəricilər önə çıxır, yəni qəbul edən ölkənin həyatına miqrantın qoşulma səviyyəsi o dərəcədə yüksək olur ki, o, praktiki olaraq yerli əhalinin çoxundan fərqlənmir, əmək bazarına uğurla daxil olur (58, s. 32).

Avropada millətlər etnik-mədəni əsaslarda formalaşmışdır, yəni mədəni bütövlük azlıqların "milliləşdirilməsi", ucqar regionların əhalisinin hakim mərkəz tərəfindən az və ya çox dərəcədə udulması (İspaniyada katalonların, valensiyalıların, qalisiyalıların mərkəzi Madrid olan kastiliyalılar tərəfindən, Almaniyada saksonların, şvabların, bavariyalıların mərkəzi Berlin olan prussiyalılar tərəfindən, İngiltərədə vallilərin və şotlandların mərkəzi London olan ingilislər tərəfindən və s.) nəticəsində yaranmışdır. Bu səbəbdən də, avropalılar inteqrasiyaya müxtəlif etnik qrupları vahid mədəni birliyə çevirmək qabiliyyətində olan institut və strukturlar prizmasından baxırlar. Yəni avropalılar yeni əhalini etnik-mədəni nüvəyə birləşdirməyə cəhd edirlər, bunun baş verməməsi isə onların narahatlığına səbəb olur. Ziqmunt

Baumanın dediyi kimi, avropalılar miqrantları məhz assimilyasiyaya uğratmağa çalışırlar, sadəcə “assimilyasiya” sözünü işlətməkdən çəkinirlər (58, s. 34-35).

Müsəlmanların Avropa cəmiyyətinə inteqrasiyası müxtəlif ölkələrdə fərqli xüsusiyyətlərə malikdir və bu xüsusiyyətlər özünü müsəlman miqrantların daha çox yaşadığı Fransa, Böyük Britaniya, Almaniya, Belçika, Hollandiya, Danimarka, İspaniya və İtaliyada aydın büruzə verir. Onlardan Fransa, Böyük Britaniya və Hollandiya vaxtilə müsəlman müstəmləkələrə malik olmuş və bu gün də müsəlman dünyası ilə siyasi və mədəni əlaqələri davam etdirirlər, yəni müsəlmanların bu ölkələrə miqrasiyası tarixi ənənələrə malikdir. İspaniya VII əsrdən müsəlman dünyası ilə bağlıdır və islam elementi bu ölkə mədəniyyətinin tərkib hissəsidir. Almaniya, Danimarka və Belçika kimi ölkələr isə, keçən əsrin son onilliklərdən başlayaraq, əmək miqrantlarının gəlməsi ilə müsəlmanların inteqrasiyası problemi ilə üzləşmişlər.

İnteqrasiyanın Fransa modelində ölkəyə yeni gəlmiş miqrantların fransız cəmiyyətinə daxil olmaları üçün xüsusi olaraq müəyyənləşdirilmiş çətinləşdirici məqamlar yoxdur. Bunun üçün miqrantın özünün etnik və dini mənsubiyyəti ilə bağlı məqamları ictimai səviyyədə qabartmaması kifayətdir. Bu o deməkdir ki, Fransa cəmiyyəti etnik mənsubiyyət və ya dini inanclarla deyil, bunların dünyəvi respublika dəyərlərindən üstün tutulmaması ilə bağlıdır.

Hələ 1970-1980-ci illərdə Fransa hakim dairələri ölkə cəmiyyətinin multikultral xarakterə malik olması qənaətinə gəlmişdilər, baxmayaraq ki, onun tərkibində hələ də daxilən təcrid olunmuş mədəniyyətlər mövcud idi. Bu mədəniyyətlərin cəmiyyətə inteqrasiyasına nail olmaq məqsədilə hökumət inteqrasiya siyasətini icmalara deyil, ayrı-ayrı fərdlərə yönəltməyi qərara aldı. Bu məqsədə çatmağın ən münasib yolu kimi isə, həyat şəraiti pis olan kvartallarda yaşayan insanların mənzil və sosial vəziyyətini, uşaqların təhsil almaq imkanlarını yaxşılaşdırmaq və s. sosial yönümlü proqram həyata keçirmək müəyyənləşdirilmişdi, lakin bu proqramın reallaşdırılmağa başlanmasından on illər keçsə də, gözlənilən nəticələr əldə olunmamışdı. İri şəhərlərin ətrafında yalnız miqrantların yaşadıqları kvartallar hələ də mövcuddur.

Bu kvartalların əhalisi arasında işsizlik səviyyəsi fransızlarla müqayisədə üç dəfə çoxdur (60, s. 106).

Keçən əsrin sonlarında Fransada millətçilik dalğası çox sürətlə genişlənirdi. 2002-ci ilin prezident seçkilərində ifrat millətçi J.M. Le Penin ikinci mərhələyə çıxması fransız cəmiyyətinin əhəmiyyətli hissəsinə hakim olan əhvali-ruhiyyənin barometri idi. Cəmiyyət “bizlərə” (yerli ağdərili əhali) və “onlara” (ərəb ölkələrindən çıxmış müsəlman miqrantlar) bölünmüşdü. Belə şəraitdə ciddi problemlərlə, fransa cəmiyyətinin müqaviməti ilə üzləşən miqrantlar öz əcdadlarının ölkəsini, yəni tarixi vətənlərini ideallaşdırmağa, bu vətənlə özləri arasında birləşdirici körpü kimi isə islama istinad etməyə başladılar. Fransa hökuməti miqrantların inteqrasiya siyasətini müəyyənləşdirərkən bu sosial faktoru diqqətdən kənarda saxlamışdı. Bu səbəbdən də, etnik və dini xüsusiyyətlərin büruzə verilməsini inteqrasiyadan imtina kimi qəbul edən cəmiyyətə qovuşmaq müsəlmanlar üçün xüsusilə çətindir. Digər tərəfdən, Avropanın, o cümlədən Fransanın müsəlman subcəmiyyətində islam dini çərçivəsində inkişaf etmiş dini sosiallaşma sistemi mövcuddur, bu da dünyəvi respublika dəyərlərinə alternativ təşkil edir (60, s. 107) və sekulyar dəyərlərə üstünlük verən avropalılar tərəfindən birmənalı qarşılanmır.

Fransadan fərqli olaraq, Böyük Britaniyada etnik və dini fərqlərin aradan qaldırılmasına yönələn siyasət mövcud olmamışdır, əksinə bu fərqlərin saxlanılması Britaniya cəmiyyəti üçün həmişə xarakterik olmuşdur, bu da ölkənin tarixi ilə bağlıdır. Yəni Britaniya adalarında ingilislər, şotlandlar, vallilər və irlandlar arasındakı fərqlər tarixin bütün mərhələlərində saxlanılmışdır. Bu səbəbdən də, Böyük Britaniya özünü dözümlü multikultural cəmiyyət kimi təqdim edir, burada etnik və dini mənsubiyyət haqqında sual vermək etikadan kənar hesab olunur. Ölkə qanunlarına hörmət edən icmalar öz xüsusiyyətlərini saxlamaq hüququna malikdirlər (60, s. 108-109). İnteqrasiyanın Britaniya modeli ilk baxışdan cəlbedici görünsə də, o, müsbət nəticələrə səbəb olmamışdır. Britaniya mühafizəkarlığı, müxtəlif icmaların öz etnik və dini norma və prinsipləri əsasında yaşamaq imkanlarına malik olmaları son nəticədə onların bir-birindən təcrid olunmasına gətirib çıxarmışdır.

Almaniyada miqrantların kompakt yaşamasının aradan qaldırılması, onların ölkə üzrə dağınıq şəkildə məskunlaşması üçün hökumət tərəfindən tədbirlər görülür, bu işin maliyyələşdirilməsi məqsədilə subsidiyalar ayrılır.  Məqsəd miqrantlarla almanların yanaşı yaşamalarını təmin etməkdən ibarətdir. Hətta mədəniyyətlərin müxtəlifliyindən irəli gələn məsələləri həll etmək üçün xüsusi vasitəcilərin xidmətlərindən istifadə olunur. Bu siyasət müəyyən qədər öz müsbət nəticələrini verir. Məsələn, hal-hazırda Berlində elə bir bina tapmaq mümkün deyil ki, orada yalnız türklər yaşasın. Düzdür, Almaniyada miqrantların konsentrasiyasının yüksək olduğu rayonlar mövcuddur, lakin bu, rəsmi siyasətin deyil, miqrantların özlərinin yanaşı yaşamaq arzusunun nəticəsidir. Almaniya inteqrasiya modeli özündə həm etnik rəngarəngliyi, həm də multikultural dəyərləri ehtiva edir. Hal-hazırda Almaniyada “aparıcı mədəniyyət” termini dövriyyəyə daxil edilmişdir. Bu, ölkədəki müxtəlif etnosların hamısının bölüşə biləcəyi təməl mədəniyyət mənasını daşıyır (60, 111-112).

İnteqrasiyanın Belçika modeli də bir sıra cəhətləri ilə diqqəti cəlb edir. Bu ölkədə miqrantları cəmiyyətə inteqrasiya etmək siyasətinə  keçən əsrin 80-ci illərinin ortalarından başlanılmışdır. Bu siyasət ölkədə millətçilik, mühacirlər əleyhinə çıxışların gücləndiyi bir şəraitdə həyata keçirilirdi. Müşahidə olunan  diskriminasiya halları, xüsusilə də polis təzyiqləri  mühacirlərin etirazlarına səbəb olurdu. Belçika hökuməti buna cavab olaraq mühacirlərin həyat şəraitinin yaxşılaşdırılması üçün tədbirlər həyata keçirdi, miqrasiya siyasəti üzrə xüsusi Kral Komissiyası yaradıldı. Ümuilikdə, Belçika hökumətinin mühacir siyasətinin ikili xarakter daşıdığını söyləmək olar: bir tərəfdən ölkələrinə qayıtmaq istəyən mühacirlərə yardım edilir, digər tərəfdən isə, burada qalmaq istəyənlərin cəmiyyətə inteqrasiya olunmaları üçün şərait yaradılır. 2000-ci ildə Belçika vətəndaşlığı almaq üçün qaydalar sadələşdirildi və  uzun müddət ölkədə yaşayan mühacirlərə pasportlar verilməyə başlanıldı. Belçika Avropa ölkələri arasında islam dininə katolik, pravoslavlıq məzhəbləri və iudaizm  ilə yanaşı,  ənənəvi konfessiya statusu verən ilk ölkədir. Bu da müsəlmanlara ibadət binalaraının tikintisi və ya bərpası üçün subsidiyalar almağa imkan  verir. Dövlət din xadimlərinə əmək haqqı və təqaüd verir. İslam dini dövlət

məktəblərində tədris oluna bilər. Beləliklə də, islam dini Belçikanın daxili həyatının nəzərəçarpacaq bir elementinə çevrildi (60, s. 112-113).

Belçikada hesab edirlər ki, həyata keçirilən multikulturalizm siyasəti nəticəsində uduzan Belçika mədəniyyətidir, yəni bu siyasət yeni icmalar tərəfindən Belçika dəyərlərinin qəbul edilməsinə gətirib çıxarmadı. Bu məsələ ölkədə mövcud olan digər problemlərə də öz təsirini göstərir. Hal-hazırda burada flamand şimal ilə vallon cənub arasında ciddi qarşıdurma mövcuddur. Hesab olunur ki, əgər Belçika parçalansa Brüssel müstəqil şəhər-dövlət statusu əldə edəcək və bu müsəlmanların üstünlük təşkil edəcəyi bir dövlət olacaq. Onu da qeyd etmək lazımdır ki, Belçikada ölkənin gələcəyi ilə bağlı debatlarda müsəlmanlar iştirak etmirlər (60, s. 113).

Hollandiyada da miqrantların inteqrasiyası istiqamətində addımlar XX əsrin 80-ci illərində atılmağa başlamış və “milli azlıqlar siyasəti” adı almışdı. Növbəti 90-cı illərdə cəmiyyətdə bu barədə geniş müzakirələr aparılmış və nəticə olaraq, inteqrasiyanın multikultural modeli seçilmişdi. Bu modelə görə Hollandiya ərazisində yaşayan və holland millətinin bir hissəsi olan azlıqların mədəni və dini fərqləri təkcə dövlət tərəfindən deyil, daha çox cəmiyyət tərəfindən qəbul edilməlidir. Belə yanaşma “interkulturalizm” kimi də adlanır, çünki etnik, linqvistik və ya dini qruplar heç bir xüsusi status əldə etmir, onlar millətin ayrılmaz hissəsi kimi qəbul olunur. Qeyd olunan model çərçivəsində müsəlman icmasının hüquqlarının müdafiəsi istiqamətində konkret addımlar da atılmışdı. Hökumətin yardımı ilə Hollandiyada təxminən 400 məscid, 32 müsəlman ibtidai məktəbi, 1 orta məktəb və Rotterdamda universitet açılmışdır. Müsəlmanların təsis etdikləri kütləvi informasiya vasitələrinə subsidiyalar ayrılır. Ramazan bayramı günlərində müsəlman işçilərə istirahət verilir, dövlət müəssisələrində müsəlman qadınlar üçün hicab qadağası yoxdur. Eyni zamanda, Hollandiya vətəndaşlığının verilməsi qaydası da kifayət qədər liberaldır. Bütün bunlara baxmayaraq, Hollandiyada tarazlaşdırılmış multikultural cəmiyyət yaratmaq mümkün olmamışdır. XXI əsrin əvvəllərində ictimai fikrə görə, multikultural model ya işləmir, ya da əhali onun mahiyyətini anlamır. Bu andan başlayaraq, “inteqrasiya” və “miqrasiya” anlayışları siyasi məna kəsb etməyə başladı, mühacirlərin ölkəyə gəlişini məhdudlaşdırmaq haqqında verilən vədələr isə

seçkilərdə əlavə səslər qazanmaq vasitəsinə çevrilmişdir. Paralel olaraq, "multikulturalizm" anlayışı dövriyyədən çıxmağa başladı. Cəmiyyətdə belə bir fikir hakim kəsildi ki, miqrantlar holland mədəniyyətini qəbul etməklə inteqrasiya olunmalıdırlar (60, s. 114-115).

Müsəlmanların cəmiyyətə inteqrasiyasının xüsusilə çətin olduğu ölkələrdən biri İtaliyadır. Bu bir tərəfdən, antimüsəlman mövqedə olan sağ partiyaların geniş fəaliyyəti, digər tərəfdən isə, hökumətin və Vatikanın bu məsələ ilə bağlı konkret mövqeyinin və planının olmaması ilə bağlıdır.

Göründüyü kimi, Avropa ölkələri müsəlmanların inteqrasiyası siyasətinə müxtəlif cür yanaşmış, müxtəlif metodlardan istifadə etmiş və bir çox halda bu siyasət uğursuzluqla nəticələnmişdi. Müxtəlif yanaşmalara baxmayaraq, müsəlmanları Avropa dəyərləri orbitinə daxil etmək istəyən bu ölkələrin siyasətində ümumi cəhətlər də mövcuddur. Hər şeydən əvvəl Avropa dövlətlərinin demək olar ki, hamısı milli identiklik, yəni müsəlmanların əvvəlki milli identikliyinin transformasiyası məsələsi ilə üz-üzə qalmışlar. Belə ki, müsəlmanların daha çox üz tutduqları Fransa, Almaniya, Böyük Britaniya kimi Avropa ölkələrinin formalaşmasında millət anlayışı əsas rol oynamışdır və yeni reallıqlarda, yəni miqrant faktorunun təsiri altında bu ölkələr "milli dövlət" anlayışına yeni məzmun vermək məcburiyyətində qalmışlar. Başqa sözlə, Avropa dövlətlərinin sosial birliyi, daxili möhkəmliyi miqrantların, xüsusilə də müsəlmanların əvvəlki milli identikliyinin transformasiyasından bilavasitə aslıdır.

Dövlətçilik ənənələrində aydın milli konsepsiyanın əsas götürülmədiyi İspaniya, İtaliya, Belçika, Hollandiya kimi ölkələrdə müsəlmanların inteqrasiyası üçün multikultural modeldən istifadə olunur, lakin bu ölkələrdə onun həyata keçirilmə mexanizmi yoxdur. Məlumdur ki, qeyd olunan ölkələrin yerli əhalisi müxtəlif millətlərdən ibarətdir və heç də onların hamısı arasında həmrəylik mövcud deyildir. Belə bir şəraitdə müsəlmanların inteqrasiyası məsələsi onların ispaniyalı, italiyalı, belçikalı və ya hollandiyalı ola bilib-bilməmələri ilə deyil, daha çox ispaniyalı, italiyalı, belçikalı və ya hollandiyalının kimliyi, onu müəyyənləşdirməyin çətinliyi ilə bağlıdır. Bu vəziyyətdə iri planda milli məkana inteqrasiya problemli olduğu

üçün, lokal cəmiyyətlərə (məsələn, Andalusiya, Siciliya və s. cəmiyyətlərinə) inteqrasiya etmək daha asan olur.

Müsəlmanların Avropa cəmiyyətlərinə inteqrasiyasına mənfi təsir göstərən amillərdən biri də onların, xüsusilə də son dövrlərdə gələnlərin tam formalaşmış dini identikliyə malik olmalarıdır. Müxtəlif vaxtlarda təzyiqlərə məruz qalmaları, yerli millətçi qrupların radikalizmi ilə üzləşmələri bu identikliyi daha da gücləndirir, müsəlmanların milli və dini dəyərlərinə bağlılığını artırır. Digər tərəfdən, dini identiklik regional və milli identikliklə müqayisədə transsərhəd, millətüstü və qlobal xarakter daşıyır və buna üstün gəlmək son dərəcə çətindir.

Müsəlmanların Avropa dəyərlərinə qovuşması yollarından biri kimi islamın modernizasiyası ideyası irəli sürülür. Ümumiyyətlə, islam dinini tarixin inkişaf mərhələlərinə uyğunlaşdırılması ideyası yeni deyildir. Müxtəlif vaxtlarda Əbu Həmid əl-Qəzali, Cəmaləddin əl-Əfqani, Məhəmməd Əbdu, Rəşid Rida, Mustafa Kamal Atatürk və başqaları islam dinindən siyasi mübarizə silahı kimi istifadə etməyə son qomağa, onu dövrün inkişaf səviyyəsinə uyğunlaşdırmağa çağırmışlar. Avropada müsəlman miqrantlar problemi meydana gəldikdən sonra islam dininin modernizasiyası ideyası yenidən aktuallaşmışdır.

İslam dinində modernist istiqamətin müasir təmsilçiləri əsasən Avropada anadan olan və müxtəlif ölkələrdə yaşayan müsəlman nümayəndələridir. Fransada yaşayan tədqiqatçı B. Taxxan "protestant islamı" doktrinasını irəli sürmüşdür. Bu doktrinaya görə, dini təlimlər müasir reallıqlar nəzərə alınaraq, onlara uyğun olaraq şərh edilməlidir. Alman sosioloqu B. Tibi Avropa müsəlmanlarını əsasında şəxsiyyət azadlığı duran liberal mədəniyyəti qəbul etməyə çağırır. O, qeyd edir ki, "Vətəndaşların kollektiv identikliyi onların dini identikliyindən ustün tutulmalıdır". B. Tibi müsəlmanların müasir liberal dəyərlərə uyğunlaşdırılmasını mümkün hesab edir. Bunun üçün şəriət qanunlarından imtina olunmalı, qəbul edən ölkənin konstitusiyasına hörmət və əməl edilməli, insan hüquqları və demokratik normalar tanınmalıdır. Dünyəvi dövlətin zəruriliyini vurğulayan fransalı filosof S. Benşeyx sekulyarizmi bərabərliyin mənbəyi hesab edir. Onun sözlərinə görə, patriarxal cəmiyyətin məhsulu olan islam qanunlarından universal qanunlar kimi istifadə

edilməsi müsəlman cəmiyyətlərinin inkişafını məhdudlaşdırır. Böyük Paris Məscidinin rektoru, Fransa Müsəlmanları Şurasının rəhbəri D. Bubaker hesab edir ki, müsəlmanlar islam identikliyini saxlamaqla, Avropa sivilizasiyasının tərəfdarı olmalıdırlar. O, eyni zamanda, təhrif olunmuş ideyalara əsaslanan radikalizmin və ekstremizmin aradan qaldırılması üçün siyasi iradə nümayiş etdirmədiklərinə görə Avropa hökumətlərini də tənqid edir. İslam dininin tədqiqatçısı, Oksford Tədqiqatlar Mərkəzinin əməkdaşı T. Ramadan müsəlmanları din və yeni vətən arasındakı münaqişədən imtina etməyə, şəriət qanunlarını yumşaltmağa və yeni yaşayış şəraitinə uyğunlaşmağa çağırır. Bunun üçün əsas şərt kimi, o, ərəb mədəniyyəti ilə din arasında fərq qoyulmasını vacib sayır və hesab edir ki, Avropada müsəlmanlar öz mədəniyyətlərinə uyğun yaşamaları üçün, bəzi müsəlman ölkələrində olduğundan daha çox imkana malikdirlər (83, s. 135-137).

Şübhəsiz ki, müsəlmanların inteqrasiyası məsələsinə yalnız dini və mədəni müstəvidən çıxış etməklə tam aydınlıq gətirmək mümkün deyildir. Ümumilikdə, inteqrasiyanı çətinləşdirən amillər daha çox sosial-iqtisadi səbəblərlə bağlıdır. Bu özünü müsəlman miqrantların müxtəlif nəsillərinin inteqrasiya prosesində göstərir. Belə ki, miqrantların birinci və ikinci nəsilləri Avropada sosiallaşma prosesini daha asan keçmişdilər, çünki onlar iş tapmaq məsələsində ciddi problemlərlə üzləşməmiş, sənayedə, kənd təsərrüfatında, xidmət sahəsində və s. sferalarda onların əməyinə ehtiyac kifayət qədər yüksək olmuşdu. Sonrakı nəsillər üçün isə məşğulluq məsələsi əsas problemə çevrilmişdir, çünki post-sənaye dövründə Avropada, xüsusilə də miqrantların mütləq əksəriyyətinin üz tutduqları Qərbi Avropa ölkələrində əsas tələbat artıq yüksək kvalifikasiyalı işçilərədir, nisbətən aşağı kvalifikasiyalı işçilərə tələbat isə azalmışdır, bu da gənc miqrantlar arasında işsizliyin səviyyəsinin yüksəlməsinə və onların marginallaşmasına səbəb olur. Avropa ölkələrində bu faktorun nəzərə alınmaması miqrantlar və yerli əhali arasında müəyyən sosial gərginlik yaradır (55, s. 79). Miqrantların peşə kvalifikasiyasının artırılması yaranmış vəsiyyətdən əsas çıxış yollarından biridir və konkret məqsədlərə xidmət edən dövlət siyasəti olmadan buna nail olmaq çətindir.

Beləliklə, Avropada müsəlmanların inteqrasiyasının baş tutmaması inkar olunmaz bir faktdır. Fransa, Böyük Britaniya, Almaniya, Hollandiya, Belçika və s. ölkələrdə miqrantların Avropa dəyərlərinə inteqrasiyası məqsədilə müxtəlif modellər tətbiq olunsa da, müsbət nəticə əldə edilməmişdir. Avropada yaşayan müsəlman ziyalıların islam dinini müasir dövrün tələblərinə uyğunlaşdırmaq, müsəlmanları avropalaşdırmaq məqsədilə etdikləri çağrışlar da geniş əks-sədaya səbəb olmamışdır. Bütün bunların mənfi nəticələri yerli avropalılarda irqçilik və ksenofobiya, müsəlmanlarda isə radikalizm, qapalı cəmiyyətlərin meydana gəlməsi şəklində özünü büruzə verir.

## 2.2. Avropada islamafobiyanın səbəbləri və təzahür formaları

Müasir dövrdə ən çox müzakirə olunan, müxtəlif aspektlərdən şərh edilən mövzulardan biri islamafobiyadır. "İslamofobiya" anlayış olaraq "islam" və yunan mənşəli "fobos" ("dəhşətlər tanrısı") sözlərindən ibarətdir və özündə islam dininə, onunla bağlı olan və ictimai xarakter daşıyan hər şeyə mənfi münasibəti ehtiva edir. Ksenofobiyanın bir növü olan islamofobiya islam dininin və müsəlmanların tənqid və təhqir olunması, onlara qarşı ayrı-seçkilik, düşmənçilik hallarına yol verilməsi, hətta talan və qətllərin törədilməsi ilə müşayət olunur. Təssüf doğuran hallardan biri ondan ibarətdir ki, islamofobiya elementləri bəzi ölkələrdə, xüsusilə də bir sıra Qərb ölkələrində siyasi silaha, seçkilərdə əlavə səslər qazanmaq vasitəsinə çevrilmişdir.

"İslamofobiya" anlayışını ilk dəfə 1922-ci ildə Etyen Dine özünün "Qərbin gözündə Şərq" essesində işlətmişdir. O, səlib yürüşlərindən Avropa müstəmləkəçiliyinə qədər olan dövrdə xristian Avropası ilə müsəlman Şərqi arasındakı münasibətləri tədqiq etmiş və bu anlayışı dövriyyəyə gətirmişdir (10, s. 48).

Avropada islamofobiyanın dərin kökləri vardır. Onun meydana gəlməsi islam dininin ilk dövrlərinə gedib çıxır. Bu zaman Məkkədəki bütpərəstlər islamı özləri üçün təhdid hesab etmiş və ona qarşı mübarizə aparmışlar. Orta əsrlərdə islamı

xristianlığın saxta variantı kimi qəbul edən Avropa ona düşmən münasibət bəsləmişdi (6, s. 7).

Səlib yürüşləri dövründə xristianlığın coğrafiyasını genişləndirməyi qarşılarına məqsəd qoyan Avropa kilsə rəhbərləri, Aralıq dənizinin şərq sahillərini ələ keçirməyə çalışan krallar və cəngavər ordularının başçıları həqiqətləri təhrif edərək, islamın mənfi obrazını yaratmış və onu avropalıların şüuruna yeritmişlər. XI-XIII əsrlərdə məhz səlib yürüşləri islamofobiyanın genişlənməsində əsas amillərdən biri olmuşdu.

1453-cü ildə İstanbulun müsəlman türklərin əlinə keçməsi islamofobiyanın yeni mərhələsinin başlanması ilə nəticələndi. Bu şəhərin fəthindən sonra Şərqi Romadan qaçan bir səyyah belə demişdi: “İstanbul türklərin əlinə keçdi və mədəniyyət bitdi. Yaxşılıq, gözəllik, sənət adına nə varsa bitdi və günəş batdı. Dünyanın sonu gəlib çatdı” (6, s. 7). Bu fikirlərdə türkləri, müsəlmanları dağıdıcı bir qüvvə kimi göstərmək, onlara qarşı düşmən münasibət formalaşdırmaq cəhdləri açıq-aydın hiss olunur, baxmayaraq ki, türklərin İstanbula sahib olmasından sonra buradakı xristianlar təqib olunmamış, onlara münasibətdə türklər özlərinə qarşı düşmənçilik yarada biləcək addımlar atmamışdılar. Tarixən baş vermiş bu və ya buna oxşar hadisələrin təsiri Avropada bu gün də hiss olunmaqdadır. Milli və dini ayrı-seçkiliyi fəaliyyət prinsipi kimi qəbul edən bəzi dairələr tarixdən qaynaqlanan faktları təhrif edir, islam əleyhinə təbliğat aparır və avropalılarda islama nifrət aşılayırlar. Başqa sözlə, müasir dövrdə Avropada islamofobiya müəyyən mənada tarixi köklərə malikdir.

İslamofobiyanın genişlənməsi üçün şərait yaradan amillərdən biri “sivilizasiyalararası toqquşma” tezisinin dövriyyəyə daxil edilməsidir. Daha çox ABŞ-dan qaynaqlanan bu tezisin müəllifləri islam və xristian sivilizasiyaları arasında toqquşmanın qaçılmaz olduğu barədə ideyanı generasiya edir, dolayısı ilə, bəzən hətta açıq formada xristian dünyasını islamın “hücumundan” müdafiə olunmağa çağırırlar. Bu da Qərb cəmiyyətlərində islam dininin neqativ şəkildə qəbul edilməsinə səbəb olur.

Məşhur “Sivilizasiyaların toqquşması” əsərinin müəllifi Samuel Hantinqton qeyd edir: “Güman edirəm ki, yeni yaranan dünyada münaqişələrin əsas mənbəyi nə

ideologiya, nə də iqtisadiyyat olacaqdır. Bəşəriyyəti ayıran əsas sərhədlər və münaqişələrin əsas mənbələri mədəniyyətlər arasında müəyyən olunacaq. Beynəlxalq işlərdə millət-dövlət əsas təsirli sima olacaq, qlobal siyasətin daha əhəmiyyətli münaqişələri millətlər və ayrı-ayrı sivilizasiyalara məxsus olan qruplar arasında baş verəcək. Sivilizasiyalar arasındakı parçalanma xətti gələcək cəbhələrin xəttidir" (1, s. 193). Şübhəsiz ki, S. Hantinqtonun fikirləri kifayət qədər cəlbedici görünsə də, müxtəlif sivilizasiyaların toqquşacağı, bir-birinə düşmən kəsiləcəkləri barədə onun fikirlərini təsdiq etmək, müasir islamofobiyaya xristian və islam sivilizasiyalarının qarşıdurması kimi yanaşmaq mümkün deyildir. Yuxarıda qeyd olunduğu kimi, islamofobiya təkcə müasir dünyaya aid olan amil deyildir, tarixin müxtəlif dövrlərində bu neqativ haldan müəyyən hadisələrlə bağlı olaraq istifadə olunmuşdur və bu gün baş verənləri də məhz bu kontekstdə izah etmək lazımdır, yəni islamofobiyanın səbəblərini sivilizasiyalarda, dinlərdə axtarmaq düzgün olmazdı.

Ümumiyyətlə, S. Hantinqton və onunla həmfikir olanların antiislam baxışları islamofobiyanı doğuran səbəblər sırasına aid edilməlidir. Onun, bu gün dünyanın əsas problemlərindən biri islam şüarı altında həyata keçirilən terrorizm, ekstremizm və hətta islam fundamentalizmi də deyil, əsas problem islam dininin özü ilə bağlıdır (1, s. 200) fikri qızışdırıcı və təhrikedici fakt kimi qiymətləndirilməlidir.

İngiltərədə fəaliyyət göstərən "Runnymede Trust" təşkilatının 1997-ci ildə hazırladığı "İslamofobiya – hər kəsə çağırış" adlı raportda islamofobiyanı doğuran səbəblər sırasında səkkiz amil göstərilmişdir:

1. islam dininin əsası monolitdir və qapalı dindir;
2. islam dini digər mədəniyyətlərlə ortaq dəyərləri olmayan dindir;
3. Qərb dünyasında islam dini barbar, irrasional, ibtidai və cinsi ayrı-seçkiliyə yol verən din kimi tanınır;
4. islam dini mərhəmətsiz, ədavətə çağıran, terrora dəstək verən, mədəniyyətlər arasına nifaq salan dindir;
5. islam dini etiqadı hərbi və siyasi mənfəətlər üçün istifadə edən siyasi ideologiyadır;

6. müsəlmanların Qərblə bağlı tənqidləri qəbuledilməzdir və dərhal rədd olunmalıdır;

7. islam dini sünnilik xaricindəki digər islam cərəyanlarını rədd etdiyi üçün ayrı-seçkilik dinidir;

8. islam dininə qarşı olmaq təbiidir və başadüşüləndir (6, s. 8).

Raportdan da göründüyü kimi, "Runnymede Trust" təşkilatı da islamofobiyanın səbəblərini islam dinində axtarır, bu dini mənfi çalarlarla, mərhəmətsiz, döyüşkən bir din kimi təqdim edir. Məlumdur ki, belə yazılarla tanış olan məlumatsız avropalının islam dininə hər-hansı bir formada rəğbət bəsləyəcəyini gözləmək əbəsdir.

İstər S. Hantinqton kimi müəlliflərin, istərsə də "Runnymede Trust" kimi təşkilatların yanaşması Avropada getdikcə genişlənməkdə olan islamofobiyanın əsil mahiyyətinin başa düşülməsi, onun həqiqi səbəblərinin üzə çıxarılması üçün əsas ola bilməz, əksinə onların ortaya qoyduqları qeyri-obyektiv yanaşmanın özünü islamofobiyanı doğuran səbəblər sırasına aid etmək olar.

Müasir dövrdə islamofobiyanın həqiqi səbəblərinə gəldikdə isə, bu, tarixi amillərlə yanaşı, Qərb dünyasında və islam aləmində cərəyan edən siyasi, sosial-iqtisadi, mədəni, ideoloji və s. proseslərlə daha çox bağlıdır. Bu sırada dünya siyasi sistemində baş verən radikal dəyişiklikləri, dünyəviliyi geniş təbliğ edən solçu ideologiyaların böhranını diqqətdən kənarda saxlamaq olmaz. Marksizm, sosializm, hətta liberalizm kimi ideologiyaların böhranı sosial-ictimai və siyasi münasibətlərdə müəyyən boşluq yaratdı və insanlar sosial mobilizasiya vasitəsi kimi dini ideologiyalara daha çox müraciət etməyə başladılar, bu da siyasətə təsirsiz ötüşmədi. Bu gün din beynəlxalq münasibətlərdə həlledici faktor olmasa da, onun bu münasibətlərə təsir göstərmədiyini söyləmək də mümkün deyildir.

Solçu ideologiyaların böhranı nəticəsində yaranmış şəraitdə islam dinin təsir dairəsi xüsusilə genişlənmişdir. Bu məsələyə diqqət yetirən Rusiyalı tədqiqatçı M. Roşin qeyd edir ki, "... bu gün üçün daha canlı və kütləvi din olan islam digər dinlərlə müqayisədə öz tərəfdarlarına daha güclü təsir göstərir, bu səbəbdən də, islam qorxusu – qeyri-islam dünyası nümayəndələrinin güclü fobiyalarından biridir və bu qeyd olunan hadisənin ümumi xarakterini müəyyənləşdirir (87, s. 92).

Hal-hazırda Orta və Yaxın Şərqdə cərəyan edən hadisələr, terror şəbəkəsinin genişlənməsi, radikalizmin güclənməsi minlərlə insanın öldürülməsinə, daimi yaşayış yerlərindən qovulmasına və didərgin düşməsinə gətirib çıxarmışdır. Nəticədə, həyatda hər şeydən məhrum olmuş on minlərlə müsəlman fiziki mövcudluğunu qorumaq naminə Avropaya üz tutur və bu qitədə birmənalı qarşılanmırlar. Onlar hər şeydən əvvəl, Avropada dəyişməkdə olan demoqrafik tarazlığa ciddi təhdid kimi qəbul olunurlar. Ultramillətçi siyasi qüvvələr yaranmış vəziyyətdən öz maraqları naminə istifadə edərək, antimiqrant, antimüsəlman ritorikalarını gücləndirir və bu yolla, bir tərəfdən, öz mövqelərini möhkəmləndirir, digər tərəfdən isə, ictimai fikirdə müsəlmanların mənfi simasını formalaşdırırlar. Bunun da məntiqi nəticəsi olaraq, islam dini Avropa dəyərləri üçün təhlükə mənbəyi kimi təqdim olunur və bu da əhalinin müəyyən hissəsi tərəfindən qəbul edilir. “Hazırda yaşanan böyük insan köçü – miqrasiya axınları islamofobiya təbliğatçıları üçün “yerinə düşmüş” fürsətə çevrilmişdir (1, s. 192), yəni problem süni şəkildə şişirdilir və siyasi dividendlər əldə etmək məqsədilə istifadə olunur.

Dünyanın aparıcı dövlətlərinin təsir dairələri, xüsusilə də karbohidrogen ehtiyatları ilə zəngin olan müsəlman ölkələri üzərində nəzarəti ələ keçirmək uğrunda apardıqları mübarizə də islamofobiyanın yayılma səbəbləri arasındadır. Yəni, bu ölkələr “islam terrorizmi”, “islam fundamentalizmi”, “islam radikalizmi” və s. ifadələri geniş təbliğ edərək, özlərinin yaratdıqları, maliyyələşdirdikləri və silahlandırdıqları radikal islam təşkilatlarının cinayətkar əməllərinə “reaksiya” verərək, Yaxın və Orta Şərqdəki ekspansionist siyasətləri üçün şərait yaradırlar.

Onu da qeyd etmək lazımdır ki, bir sıra müsəlman ölkələrində meydana gələn radikal yönümlü bəzi təşkilatların - “Əl-Qaidə”, “İŞİD” və s. - fəaliyyəti də Avropada islamofobiyanın miqyasının genişlənməsində maraqlı olan qüvvələrin işinə yarayır. Bu gün Əfqanıstanda, İraqda, Yaxın Şərqdə, Türkiyədə, Fransada, Belçikada və s. ölkələrdə törədilmiş terror aktlarından danışarkən, maraqlı qüvvələr islam faktorunu xüsusi olaraq qabardır, baş vermiş hadisələrin əsas səbəbi kimi məhz onu göstərirlər. Bu istiqamətdə təbliğatın aparılmasında kütləvi informasiya vasitələri xüsusi fəallıq nümayiş etdirirlər.

Avropada islamofobiyanın yayılmasında kütləvi informasiya vasitələrinin rolu böyükdür. Regionda mass-mediasının bu sahədəki fəaliyyəti dörd istiqamətdə həyata keçirilir:

1. islam dünyagörüşü və ənənələri haqqında təsəvvürlərin təhrif edilməsi;

2. islam dininin radikal cərəyan və qruplaşmalarla əlaqələndirilməsi;

3. islam dininin Qərb cəmiyyəti üçün təhlükə mənbəyi olması barədə fikirlərin yayılması;

4. müsəlmanlara qarşı aqressiya və dözümsüzlüyü əsaslandırmağa cəhdlərin göstərilməsi (1, s. 197).

Kütləvi informasiya vasitələri sosial sistemin üzvi tərkib hissəsi, informasiya ötürmə kanalı olmaqla, ictimai şüura birbaşa təsir göstərmək imkanlarına malikdir. İnformasiyanın hansı formada və hansı məqsədlə cəmiyyətə çatdırılması jurnalistin və ya informasiya kanalının siyasi və sosial mövqeyindən aslıdır.

Qeyd etmək lazımdır ki, Avropada bir çox kütləvi informasiya vasitələri mənfi müsəlman obrazının yaradılmasına nail olmuşlar, məhz onların fəaliyyətinin nəticəsi olaraq, avropalıların çox hissəsi islam dinini terrorizm, fundamentalizm, radikalizm və s. bu kimi mənfi hallarla eyniləşdirirlər, çünki onlar islam dini haqqında ilkin məlumatı məhz informasiya kanalları vasitəsilə əldə edirlər. Məsələn, "Qardian" qəzetinin məlumatına görə, britaniyalıların üçdə ikisi müsəlmanlar haqqında informasiyanı şəxsi təcrübələri əsasında deyil, kütləvi informasiya vasitələrindən əldə edirlər (49, s. 37). Bu o deməkdir ki, avropalılar müsəlmanlara münasibətdə, onların ictimai şüurunda apriori formalaşdırılmış fikirlərdən çıxış edirlər.

Maykl Sells islamofobiyanın yayılmasında kütləvi informasiya vasitələrinin rolunu belə xarakterizə edir: "Rihlə üzərində "Quran oxuyan" (əslində isə ifrat siyasi doktrina təlimi alan) talibançı tələbələrin, ya da ərəbcə mətnlər və islam simvolları ilə əhatə olunan Ben Ladenin şəkilləri KİV-də dəfələrlə göstərilir. Bu görüntülər qoşa qüllələrə çırpılan təyyarələrin, ya da digər dəhşətli hadisələrin və bu cür hadisələrdən xilas olanların iztirablı şəkilləri ilə birlikdə verilir. Belə şeylər efirdə göstərildikdən sonra bütün müsəlmanların talibançı olmadığına dair söylənən bütün sözlər, "Malbro kovboyu", "Yaraşıqlı adam", "Mədəni qadın" və ya "Hür qadın" kimi siqaret çəkən

insanların reklamlarından sonra siqaret çəkməyin təhlükələri barədə söylənən sözlər qədər təsirli ola bilər" (6, s. 10).

Avropada demoqrafik vəziyyətin pisləşməsi də islamofobiyanın meydana gəlməsinə təsir göstərən səbəblər sırasındadır, yəni regionda müsəlman əhalinin sayında müşahidə olunan artım avropalıların narahatlığına səbəb olur. Azlıqların çoxluqlara çevrilməsi qorxusu Avropa cəmiyyəti üçün xarakterik olan bir haldır. Vatikan Ədalət və Sülh İcmasının sədri, kardinal Pyotr Turkso "Sinodo" ruhani məclisində islam dinini Avropanın gələcəyi üçün təhdid kimi qiymətləndirmişdi. Onun sözlərinə görə 2026-cı ildə avropalılar müsəlmanlar qarşısında azlıqda qalacaq, Fransa isə, 39 ildən sonra islam dövləti olacaq (3, s. 12-13). Belə çıxışları islam dininə, müsəlmanlara qarşı çağrış kimi qəbul olunmalıdırlar.

BMT-nin məlumatına görə, 2020-ci ildə dünya əhalisinin artımı əsasən müsəlman ölkələrinin hesabına baş verəcək və bu ölkələrdə əhalinin 57 %-ni gənclər təşkil edəcək. Avropa və Şimali Amerikada isə, əksinə əhalinin azalması və qocalması müşahidə olunacaq. Müsəlman əhalinin artımı və mobillik səviyyəsinin yüksəlməsi siyasi xarakterli üç nəticəyə gətirib çıxara bilər:

1. Gənclər qiyamçı, qeyri-sabit, islahatçı və inqilabçı olurlar;

2. Gənclər işçi qüvvəsi deməkdir və əhalinin çoxluğu yeni iş yerlərinin açılması, yaxud əldə edilməsi deməkdir. İş tapmaq məqsədilə Qərb ölkələrinə miqrasiya edən müsəlman gənclərlə yerli əhali arasında münaqişə vəziyyəti yaranır;

3. Əhalinin sayının artması həm də yeni yaşayış yerlərinə tələbatın yaranması deməkdir (1, s. 196).

Deməli, müsəlmanların sayının, eyni zamanda Avropa iqtisadiyyatının işçi qüvvəsinə tələbatının artması "qoca qitədə" islam dini mənsublarının sayının artmasını obyektiv və zəruri bir prosesə çevirir. Müstəmləkə keçmişinə malik və tarixən müsəlmanlara geridə qalan, tabe vəziyyətində yaşamağa məhkum edilən bir toplum kimi baxan avropalılar onları Avropanın tam hüquqlu sakinləri statusunda qəbul etməkdə çətinlik çəkirlər. Digər tərəfdən, müsəlmanların sayının Avropa dəyərlərini, Avropa cəmiyyətinin davranış normalarını qəbul etməyə tam hazır olmayan miqrantların hesabına artması da müəyyən problemlər yaradır, çünki

miqrantların məhz bu təbəqəsinin daha çox üzə çıxmasını avropalılar öz ənənəvi dəyərlərini zəiflədə biləcək bir hal kimi qiymətləndirirlər. Bütün bu psixoloji amillər islamofobiyanın genişlənməsinə bu və ya digər dərəcədə təsir göstərir.

İslamofobiyanın genişlənməsinə səbəb olan amillər sırasında Avropada bir sıra siyasi partiya və hərəkatların ifrat millətçilik siyasətini də qeyd etmək lazımdır. Məsələn, İtaliyada "Şimal Liqası" partiyası antiislam təbliğatı ilə məşğul olur, partiya təmsilçiləri "müsəlman" və "miqrant" sözlərini sinonim kimi işlədirlər, baxmayaraq ki, ölkə üçün ən böyük problem müsəlmanlar deyil, iri şəhərlərin ətrafında məskunlaşan Rumıniya qaraçılarıdır (60, s. 116). "Şimal Liqası"ndan başqa, Almaniyada "Alman Gəncləri İttifaqı", "Qofmanın Hərbi-İdman Qrupu", "Alman Azadlıq Partiyası", "Habsburq Cəbhəsi", "Alman Alternativi" "PEQİDA", Böyük Britaniyada "Milli Cəbhə", "Britaniya Milli Partiyası", Fransada "Milli Cəbhə", Avstriyada "Avstriyanın Gələcəyi uğrunda Alyans", Belçikada "Milli Cəbhə", İspaniyada "İspan Falanqası", "Yeni Güc", "İspan Həmrəyliyi", İtaliyada "İtaliya Sosial Hərəkatı", "Milli Avanqard", "Faşizm və Azadlıq", Bolqarıstanda "Lukov marşı", Macarıstanda "Kəsişən oxlar", Polşada "Polşa Ailələri Liqası", Portuqaliyada "Portuqaliya Azadlıq Ordusu" və s. təşkilatlar da Avropada antimüsəlman əhvali-ruhiyyənin qızışdırılmasında çoxillik təcrübəyə malikdirlər.

Avropada islomofobiyanın yayılmasında müsəlmanların özlərindən qaynaqlanan səbəblər də mövcuddur və bu, əsasən müsəlman radikal qrupların fəaliyyəti, cinayətləri ilə əlaqəlidir.

Avropada yaşayan müsəlmanlar arasında türklər radikallaşmaya ən az məruz qalmışdır. Türklərin ən çox məskunlaşdıqları Almaniyada hər-hansı bir terror aktının hazırlanmasında onların iştirakı ilə bağlı yeganə məlumat 2007-ci ilə aiddir. Qeyd olunan terror aktı türk mənşəli bir almaniyalı və islamı qəbul etmiş iki nəfər etnik alman tərəfindən hazırlanmışdı. Terrorçular ABŞ hərbi-hava bazasını, ABŞ-ın və Özbəkistanın Almaniyadakı konsulluqlarını partlatmağı planlaşdırırdılar. Bu terrorçu qrup Özbəkistan İslam Hərəkatından ayrılmış İslam Cihadı Birliyinə daxil idi. 11 sentyabr terror aktlarının hazırlanması və həyata keçiriməsi ilə bağlı olan "Hamburq təşkilatı"nda mənşəcə türk olan yox idi (60, s. 112). Buna baxmayaraq, Almaniyada

miqrantlar əleyhinə tədbirlər təşkil edən qüvvələrin, xüsusilə də PEQİDA təşkilatının hədəfində Almaniyada yaşayan türklər də vardır.

Avropanın digər ölkəsində, Belçikada müsəlman radikalizmi müəyyən xüsusiyyətlərə malikdir. Belçika Mərakəş İslam Döyüş Qrupu kimi bəzi terror qruplarının fəaliyyət göstərdikləri ölkələrdən biridir. 2006-cı ildə bu qrupun Belçika şöbəsinin üç üzvü 2004-cü ildə Madriddə terror aktlarının təşkilində iştirakda günahlandırılaraq həbs olunmuşdu. Belçikada radikalizmlə bağlı digər fakt altı nəfər belçikalının həbsi ilə bağlıdır. Beşi Şimali Afrika mənşəli, altıncı isə islamı qəbul etmiş avropalı olan bu insanlar tərəfindən ələ alınmış 38 yaşlı və islam dininə keçən belçikalı bir qadın 2005-ci ildə İraqda canlı bomba rolunu oynamışdı (60, s. 113). 2016-cı ilin martında Belçika vətəndaşları İbrahim və Xalid el Bakrauyi və mərakəşli Nəcim Laaşrauyi Brüsseldə 34 nəfərin ölümü, 250 nəfərin yaralanması ilə nəticələnən terror aktları törətmişdilər (18, s. 3-4).

Digər bir misal, 2004-cü ildə Hollandiyada Mərakəş əsilli 26 yaşlı belçikalı Məhəmməd Buyeri tərəfindən rejissor T. van Qoqun qətlə yetirilməsi bu ölkədəki müsəlmanlar üçün böyük problemlər yaratmışdı. Qətlə səbəb rejissorun islam dövlətlərində "Quranın icazəsi ilə" qadınların ağır vəziyyətə və şiddətə düçar olmaları haqqında 10 dəqiqəlik bir film çəkməsi olmuşdu. Bu qətlin ardınca ölkədə qeyri-müsəlmanlarla müsəlmanlar arasında toqquşmalar baş vermiş, 20-dən çox məscid, kilsə və məktəb yandırılmışdı. T. van Qoqun qətlindən dərhal sonra keçirilmiş rəy sorğusuna görə hollandiyalıların 40 %-i hesab edirdilər ki, müsəlmanlar özlərini artıq evdəki kimi hiss etmirlər. Sorguda iştirak edənlərin 80 %-i isə miqrantlara qarşı tədbirlərin sərtləşdirilməsini tələb edirdilər (60, s. 115). Beləliklə kifayət qədər tolerant ölkə olan Hollandiya bir qətlin nəticəsində etnik və dini qarşıdurmalar məkanına çevrildi.

2015-ci il noyabrın 13-də Əbdülslam Salah fransanın paytaxtı Parisdə 129 nəfərin ölümü ilə nəticələnən terror aktı törətmişdi (29). Bütün bu hadisələrdən sonra Avropa ölkələrində müsəlmanlara olan münasibəti təsəvvür etmək çətin deyildir.

Avropada islam memarlığının yayılması da avropalılar tərəfindən birmənalı qarşılanmır. Məlumdur ki, Avropa ölkələrində yüzlərlə məscid mövcuddur. Əsasən Şərq üslubunda tikilən bu məscidlər zahirən dərhal nəzərə çarpır və yerli əhalinin dözümsüzlük nümayiş etdirən hissəsinin mənfi reaksiyasına səbəb olur. Sonuncular bunu islam memarlığının ekspansiyası və Avropanın məhv olmasının başlanğıcı kimi qiymətləndirirlər. Bunun qarşısını almaq üçün isə məscidlərə hücumlar təşkil olunur, islam simvolları məhv edilir.

Məscid tikintisi ilə bağlı ehtirasların qızışmasından yerli siyasətçilər öz məqsədləri üçün istifadə edirlər. Məsələn, Avstriyada seçki kampaniyalarında tez-tez səsləndirilən vədlərdən biri məscid və minarələrin tikintisinin qarşısının alınması ilə bağlı olur (24).

İslamofobiyanın səbəblərindən bəhs edərkən, bir məqamı da vurğulamaq lazımdır ki, Qərbin bir sıra ölkələrində sosial-iqtisadi xarakterli daxili problemlərin ört-basdır edilməsində də islamofobiyadan istifadə olunur.

Ümumiyyətlə, çeşidli səbəbləri olan islamofobiya müasir Avropada reallıqdır və müxtəlif formalarda təzahür edir və bu sırada etnik və dini dözümsüzlük xüsusilə nəzərə çarpır. Müsəlmanlara qarşı dözümsüzlük və ayrı-seçkilik halları istər sistem şəklində, istərsə də fərdi səviyyədə müşahidə olunur. Bura insanlara alçaldıcı münasibətin sərgilənməsi, onların müxtəlif üsullarla hədələnməsi və təhdid olunması, ritorikada düşmənçilik elementlərinin yer alması və s. aqressiv və təhrikedici hallar daxildir. Hal-hazırda Avropada bu mənfi streotipə ictimai yerlərdə, əmək bazarında, təhsil sistemində rast gəlmək mümkündür.

İşləyən və təhsil alan müsəlmanlara münasibətdə ayrı-seçkiliyə yol verilməsi təsadüfi hal deyildir. Bu özünü işəgötürənlərin onlara biganə yanaşmasında, əmək bazarında hicab geyinən qadınlara yanaşmada nümayiş etdirilən diskriminasiya hallarında özünü göstərir. Təhsil alan müsəlman gənclər də bu sahədə istisna təşkil etmir. Məktəblərdə onlara qarşı tələbkarlığın səviyyəsi yüksək deyildir. Avropa müsəlmanları vətəndaşlıq alarkən də böyük çətinliklərlə üzləşirlər. Onların hamısına seçkilərdə iştirak etməyə icazə verilmir (1, s. 199).

2014-cü ildə Avstriyada milli azlıqların nümayəndələri arasında keçirilmiş rəy sorğusunda iştirak edən 717 nəfərin 52 %-i ictimai nəqliyyatda ayrı-seçkiliyə məruz qaldıqlarını, 13 %-i bu münasibətin qurbanı olduqlarını, 30-%-i isə dövlət orqanları nümayəndələrinin kobud rəftarı ilə üzləşdiklərini bildirmişdilər (53, s. 4). Almaniyada Fridrix Ebert fondunun tədqiqatlarına görə, almanların 25 %-nin çıxışlarında ksenofobiya elementlərinə yer verilir. Hollandiya insan hüquqları institutu ölkədə irqçiliyin mövcud olduğunu etiraf etməyə çağırır və bu zaman türk və antil mənşəli insanlara münasibətdə yol verilən diskriminasiya hallarına əsaslanır. Burada yaşayan əcnəbilərin 40 %-ə qədəri etnik mənsubiyyətə görə ayrı-seşkiliyə məruz qalır (59, s.45).

Müsəlmanların diskriminasiyası təhlükəsizlik orqanlarının davranışlarında aydın hiss olunur. Məsələn, Parisdə tranzit stansiyalarda müsəlmanların sənədləri yerli avropalılarla müqayisədə 6 dəfə çox yoxlanılır (42).

İfadə azadlığı adı altında islam dininin, onun dəyərlərinin və simvollarının təhqir olunması Avropada tez-tez müşahidə olunan hallardandır. 2007-ci ildə Danimarkanın "Jillands Posten" qəzeti İsveç karukaturaçısı Lars Vilks tərəfindən çəkilmiş Məhəmməd peyğəmbərin karikaturalarını çap etmişdi (37). Bunun ardınca, 2015-ci ildə Fransanın "Şarli ebdo" satirik jurnalı da, müsəlmanların ciddi etirazlarına baxmayaraq, çap etdiyi karikaturalar seriyasında Məhəmməd peyğəmbəri təhqir etmişdi. "Söz azadlığını" müdafiə edən Fransa hökuməti jurnalın tərəfini tutmuşdu (86, s. 164).

İslam dininin təhqir olunması karikaturalarla məhdudlaşmır. Bu özünü məscidlərə olan hücumlarda da göstərir. Məsələn, 2014-cü idə İsveçdə 13 məscid hücuma məruz qalmış, onların şüşələri qırılmış, binaları yandırılmışdı (41). 2015-ci ildə Avstriyanın paytaxtı Vyanada, Portuqaliyanın paytaxtı Lissabonda, Almaniya şəhəri Dormagendə məscidlər təhqir olunmuş, onların divarlarına hədələyici, senzuradan kənar sözlər yazılmışdı (61).

Müsəlman qadınların geyindikləri hicab, niqab və burkaya bəzi ölkələrdə qadağa qoyulmasını da bu siyasətin davamı kimi qəbul etmək olar. Bu sahədə Fransa və Belçikanın siyasətini xüsusi qeyd etmək olar. 2004-cü ildə Fransada dövlət təhsil

müəssisələrində dini atributlardan istifadəni qadağan edən qanun qəbul edildi. Baxmayaraq ki, qanun bütün dinlərə münasibətdə qəbul edilmişdi, praktikada o, əsasən müsəlman qadınlara şamil edilir, bu səbəbdən də onu “antihicab” qanunu adlandırırlar. Qeyd olunan ildə Belçikada qəbul olunmuş qanuna görə, ölkə ərazisindəki məktəblərdə hicaba icazə verilib-verilməməsi məsələsini hər bir məktəbin rəhbərliyi özü həll etməli idi. 2008-ci ildə Fransadan olan iki müsəlman məktəblinin şikayətinə baxan Avropa İnsan Haqları Məhkəməsi “antihicab” qanunun insan haqları və əsas azadlıqları ilə ziddiyyət təşkil etmədiyini bildirmişdi. Tədqiqatçı L.R. Syukiyaynenin sözləri ilə desək. “Avropa İnsan Haqları Məhkəməsinin simasında “antihicab” qanunu özünə nüfuzlu müttəfiq əldə etdi”. Bunun ardınca, 2010-cu ildə Belçika parlamenti ictimai yerlərdə niqab və burkadan istifadə olunmasını qadağan edən qanun qəbul etdi (73, s. 500-501).

Avropada məscidlərin fəaliyyətinə qoyulan məhdudiyyətlər də islamofobiyanın təzahürü kimi qiymətləndirilməlidir. Qitə ölkələrində yüzlərlə məscid olsa da, onların cüzi hissəsində minarə tikilməsinə icazə verilmişdir. Mövcud minarələrdən isə azan verilməsinə qadağalar qoyulmuşdur. Təkcə Almaniyanın paytaxtı Berlindəki 80 məsciddən yalnız 5-də minarə mövcuddur. Oxşar vəziyyət Hollandiya, İtaliya və Avropanın digər ölkələrində də müşahidə olunur (1, s. 199).

Müsəlmanlara qarşı açıq güc tətbiq edilməsi, qətl hadisələri törədilməsi islamofobiyanın açıq müstəvidə yer aldığını göstərir. Məsələn, 2011-ci ildə Norveçdə Andres Breyvikin törətdiyi qətliam açıq dini, antiislam müstəvidə baş vermişdi. Sonrakı mərhələdə Avropa cəmiyyətinin bu qətliama kifayət qədər soyuqqanlı yanaşması, məhkəmə prosesində terrorçuya münasibətdə sərgilənən yumşaq münasibət islamofobiyanın “qoca qitədə” cəmiyyətə müəyyən qədər sirayət etdiyini deməyə əsas verir. Danimarkanın “Frit Danmark” partiyasının nümayəndəsi Mikael Elleqaard A. Breyvikin törətdiyi terror aktından sonra açıq bəyan etmişdi ki, onun partiyası qarətçilərdən və müsəlmanlardan qorunmaq üçün öz üzvlərinə silahla davranmağı öyrədəcək (89, s. 35).

Almaniyada qeyri-almanlar sağ radikal və irqçi qüvvələrin müxtəlif hücumlarına məruz qalırlar. 2014-cü ildə Saksoniyada 223, Berlində 185, Saksoniya-

Anqaltda 116, Brandenburqda 85, Maklenburq – Yuxarı Pomeraniyada 83 və Türingiyada 45 belə hücum halları baş vermişdi. Hücumların 64 %-i fiziki xəsarət yetirməklə nəticələnmiş, 7 halda qətl həyata keçirilmişdi (59, s. 17). Yenə həmin ildə Romanın Tor Sapyentsa kvartalında yerli əhalini, radikal və neofaşist hərəkatları təmsil edən və maska geyinmiş təxminən 200 nəfər, qaçqın və miqrantın yaşadığı, sakinlərinin 36 nəfəri həddi-büluğa çatmayanlar, 30 nəfəri yaşlı insanlar olan mərkəzə hücum etmiş, "Miqrantları rədd edin, yoxsa bunu özümüz edərik", "Yaşasın düçe" , "Miqrantları yandıraq" kimi şüarlar səsləndirmişdilər. Mərkəzdə yanğın törətmiş bu insanlardan heç biri həbs olunmamışdır (41, s. 31). Erik Krişbaum qeyd edir ki, "Almaniyada qaçqınların düşərgələrinə, demək olar ki, hər gün hücumlar olur". 2014-cü ildə 170 düşərgə yandırılmışdısa, 2015-ci ilin təkcə birinci yarısında belə düşərgələrin sayı 150 olmuşdu (53). Oxşar hadisələrə Avropanın əksər ölkələrində rast gəlinir.

Hücum obyektləri arasında məscidlər də vardır. 2012-ci ildən 2014-cü ilin mart ayına qədər Avropa ölkələrində 78 məscidə "Molotov kokteyli" atılmışdı. 2014-cü ildə təkcə İsveçdə məscidlərə 12 hücum aktı qeydə alınmışdı (32).

Beləliklə, islamofobiya müasir Avropanın üzləşdiyi ən ciddi problemlərdəndir. Onun meydana gəlmə səbəblərini iki qrupa bölmək olar: Avropa cəmiyyətinin özündən qaynaqlanan və müsəlmanların özləri ilə bağlı olan səbəblər. Birinci qrup səbəblərə qitədə islamofobiyanın tarixi köklərə malik olması, "sivilizasiyaların toqquşması" kimi təhrikedici ideyaların dövriyyəyə gətirilməsi, solçu ideologiyaların böhrana düçar olması, dünya güclərinin Yaxın və Orta Şərqdə ağalıq uğrunda apardıqları qanlı mübarizə və bunun nəticəsi olaraq, on minlərlə müsəlmanın Avropaya üz tutması, kütləvi informasiya vasitələrinin qızışdırıcı fəaliyyəti, regionda demoqrafik vəziyyətin davamlı olaraq pisləşməsi, radikal sağçı qüvvələrin fəaliyyəti daxildir. Avropada islamofobiya ən müxtəlif formalarda təzahür edir - müsəlmanlar müxtəlif sahələrdə diskriminasiyaya məruz qalır, islam dininin və onun müqəddəs simaları təhqir olunur, qitədəki məscidlərin fəaliyyətinə məhdudiyyətlər qoyulur, müsəlmanlara qarşı təcavüz hallarına yol verilir. Bütün bunlar müsəlman ölkələrinin Avropaya inteqrasiyası yolunda ciddi maneəyə çevrilmişdir. Azərbaycan

Respublikasının Prezidenti İlham Əliyevin qeyd etdiyi kimi, "Avropa göz qabağındadır. Özləri etiraf edirlər, Avropa İttifaqınınən böyük rəhbərləri etiraf edirlər ki, indi Avropa məkanında dərin böhran yaşanır. Biz oramı inteqrasiya etməliyik, böhranamı inteqrasiya etməliyik?! "Müsəlmanlara stop" deyənlərəmi inteqrasiya etməliyik?! Biz müsəlman qaçqınlara ikili standartlar tətbiq edənlərəmi inteqrasiya etməliyik?! Biz müsəlmanları qəfəsdə saxlayanlaramı inteqrasiya etməliyik?!" (11).

## 2.3. Avropa dövlətlərinin islamofobiya siyasətinin beynəlxalq və regional mərhələləri

İslam faktoru Avropa dövlətlərinin siyasətində həmişə diqqət mərkəzində olmuş və bu gün də olmaqda davam edir. Qərb ölkələri islam amilini geosiyasi mübarizə vasitəsinə çevirmiş və ondan özlərinin istər beynəlxalq, istərsə də regional maraqlarını təmin etmək üçün geniş istifadə edirlər. Eyni zamanda, müxtəlif etnos və irqlərə mənsub olan müsəlmanlara fərqli mövqelərdən yanaşaraq, islam dünyasını həm etnik, həm də məzhəb prinsipinə görə parçalamağa nail olan Avropa dövlətlərinin siyasətində irqçilik, ksenofobiya, etnik diskriminasiya elementlərinin olmadığını birmənalı şəkildə təsdiq etmək mümkün deyildir, baxmayaraq ki, hər-hansı bir dinin mənsubları, o cümlədən müsəlmanlar haqqında süni formada mənfi rəy yaratmaq cəhdləri beynəlxalq hüquq normalarının tələbləri ilə də ziddiyyət təşkil edir. Belə ki, beynəlxalq hüquq heç bir ayrı-seçkilik qoymadan bütün insanların hüquq və azadlıqlarının qorunmasını təsbit edir. Bu, BMT Nizamnaməsində də öz əksini tapmışdır. Təşkilatın məqsədləri sırasında "İqtisadi, ictimai, mədəni və humanitar səciyyəli beynəlxalq problemlərin həll edilməsi, irqindən, cinsindən, dilindən və dini əqidəsindən asılı olmayaraq insan hüquqlarına və əsas azadlıqlarına hörmətin təmin edilməsi üçün hərtərəfli əməkdaşlıq həyata keçirmək" də vardır (19). BMT Baş Assambleyası tərəfindən 1948-ci ildə qəbul olunmuş "Ümumdünya insan hüquqları bəyannaməsi"nin 2-ci maddəsində deyilir: "Hər bir insan irqi, dərisinin rəngi, cinsi, dili, dini, siyasi və digər əqidələri, milli və sosial mənsubiyyəti, əmlak vəziyyəti, silk mənsubiyyəti və digər vəziyyətlərinə görə heç bir fərq qoyulmadan hazırkı Bəyannamədə bəyan edilən bütün hüquqlara və bütün azadlıqlara malik

olmalıdır”. Sənədin 7-ci maddəsi isə, bütün insanların qanun tərəfindən bərabər müdafiə olunmaq hüququnu tanıyır: “Bütün insanlar qanun qarşısında bərabərdirlər və heç bir fərq qoyulmadan qanun tərəfindən bərabər müdafiə olunmaq hüququna malikdirlər. Bütün insanlar, hazırkı Bəyannaməni pozan istənilən ayrı-seçkilik aktından və belə bir ayrı-seçkiliyə hər cür təhrikdən müdafiə olunmaqda bərabər hüquqlara malikdirlər”. Bəyannamə, 18-ci maddədə ifadə olunduğu kimi, hər bir insanın din və əqidə azadlığını da qoruyur: “Hər bir insan düşüncə, vicdan və din azadlığı hüququna malikdir: bu hüquqa öz dinini və ya əqidəsini dəyismək azadlığı, öz dininə və ya əqidəsinə həm təkbaşına, həm də basqaları ilə birlikdə, dini təlimdə, ibadətdə və dini mərasim qaydalarının yerinə yetirilməsində açıq və özəl qaydada etiqad etmək azadlığı daxildir” (14). BMT üzvü olan hər bir ölkə bu müddəalara əməl etmək barədə öhdəlik götürsə də, bu, praktikada həmişə müşahidə olunmur. Bir sıra ölkələrdə, o cümlədən Avropanın bəzi olkələrində irqi, dini ayrı-seçkilik, ksenofobiya dövlət orqanlarına sirayət etmiş və bu da beynəlxalq birlik tərəfindən narahatlıqla qarşılanır.

Müasir dünyada irqçilik, irqi ayrı-seçkilik, ksenofobiya, dözümsüzlük kimi mənfi halların mövcudluğu 2001-ci ildə Cənubi Afrika Respublikasının Durban şəhərində, BMT üzvü olan ölkələrin iştirakı ilə keçirilmiş “İrqçilik, irqi ayrı-seçkilik, ksenofobiya və onunla bağlı olan dözümsüzlüyə qarşı mübarizə” adlı beynəlxalq konfransda da etiraf olunmuşdur. Konfransda qəbul olunmuş Durban Bəyannaməsində deyilir: “Biz etiraf edirik ki, irqçilik, irqi ayrı-seçkilik, ksenofobiya və onunla bağlı olan dözümsüzlük irqə, dərinin rənginə, nəsli, milli və etnik mənşəyinə görə təzahür edir və insan ayrı-seçkiliyin və bununla bağlı olan cinsə, dilə, dinə, siyasi və başqa baxışlara, sosial mənşəyə, əmlaka, silkə və digər vəziyyətlərə aid çoxsaylı və ağırlaşdırıcı formaların qurbanı ola bilər... Biz etiraf edirik ki, qloballaşma nəticəsində regionlararası və regiondaxili miqrasiya, xüsusilə də cənubdan şimala, genişlənmişdir və qeyd edirik ki, bu miqrasiyanın tənzimlənməsi irqçiliyə, irqi ayrı-seçkiliyə, ksenofobiyaya və onunla bağlı olan dözümsüzlüyə əsaslanmamalıdır (39, s. 11, 14).

İslamofobiyanın yayılması elə geniş miqyas almışdır ki, bu məsələ universal beynəlxalq təşkilat olan BMT çərçivəsində müzakirə obyektinə çevrilmişdir. 2003-cü ildə İspaniyanın baş naziri R. Sapatero diqqəti Qərb ölkələri ilə islam dini arasındakı gərginliyə, ictimai fikrin qütbləşməsinə yönəltmişdi. Məhz onun təşəbbüsü ilə "Mədəni və sosial sədləri aradan qaldırmaq üçün sivilizasiyalar alyansı" layihəsinin meydana gəlməsinə səbəb oldu. 2006-cı ildə BMT İnsan Haqları Komissiyasının rəhbəri Dudu Dyen hazırladığı məruzədə Danimarkada Məhəmməd peyğəmbərin təhqiramiz kaikaturasının çəkilməsini "islamofobiya, diskriminasiya və rasizm" kimi qiymətləndirmişdi (69, s. 219), lakin bütün bunlar Qərb ölkələrinin islamofobiya siyasətinə son qoymadı.

Avropa dövlətləri öz geosiyasi məqsədlərinə nail olmaq üçün tarixən islam amilindən istifadə etmişlər. Bu zaman islamı hiyləgərcəsinə "yaxşı" və "pis" olaraq iki yerə bölmüş, Avropa hökumətlərinin maraqlarına uyğun olaraq fəaliyyət göstərən islamçılara yardım göstərmişlər. Beləliklə, müsəlman ölkələrində və ya mühacirətdə fəaliyyət göstərən və islam dininə bu və ya digər dərəcədə bağlı olan istənilən ideologiya və ya struktur, istənilən siyasi rejim "yaxşı" və ya "pis" ola bilər.

Avropalıların islam dinindən siyasi silah kimi istifadə etdiklərini qeyd edən tədqiqatçı B.F. Klyuçnikov bildirir ki, XIX-XX əsrlərdə ingilis diplomatiyası müsəlman ölkələrindən Avropanın xristian xalqlarına qarşı istifadə etmişdir. Onun qeyd etdiyi kimi, İngiltərə Türkiyədən Rusiyaya, Balkan yarımadasının pravoslav xalqlarına, Yaxın Şərqdə Fransanın güclənməsinə qarşı, ərəblərdən türklərə qarşı, türklərdən yunanlara qarşı istifadə etmişdir (69, s. 85). S. Hantinqtonun fikirlərinə görə, islamofobiya təbliğat vasitəsi olaraq, islam dövlətlərinin siyasi, hərbi və iqtisadi güclənməsinin qarşısını almaq məqsədilə inkişaf etdiriləcəkdir. Digər bir tədqiqatçı, C. Feffer isə bildirir ki, xaç yürüşləri zamanından bu günümüzə qədər Qərb ölkələrinin nümayəndələri islam dininə hərbi münaqişələr kontekstində yanaşmışlar (31). Belə siyasət islam dünyasının, müsəlmanların parçalanmasına, islam mövzusunun beynəlxalq və regional səviyyələrdə müzakirə obyektinə çevrilməsinə səbəb olmuşdur.

Qərb ölkələri dünyada hal-hazırda malik olduqları hərbi-siyasi üstünlüklərini qoruyub saxlamaq, müsəlman ölkələrinin zəngin təbii ehtiyatlarının istismarı prosesində əsas oyunçu olmaq imkanlarını genişləndirmək məqsədilə müxtəlif geosiyasi strategiyalar qurur, süni münaqişə ocaqları alovlandırır, islam dünyasını nüfuzdan salmaq üçün çirkin ssenarilər hazırlayırlar. Bu siyasətin əsas elementlərindən biri islam dinini sülhpərvər xarakterinin və mahiyyətinin təhrif olunması, onun adının beynəlxalq terrorizm ilə yanaşı çəkilməsi, dünyanın müxtəlif regionlarında törədilən qanlı terror hadisələrində dərhal müsəlman izinin axtarılmasıdır. Müasir dövrdə beynəlxalq aləmdə, xüsusilə də Avropa ölkələri və ABŞ-da geniş yayılmış "bütün müsəlmanlar terrorçu deyil, lakin bütün terrorçular müsəlmandır" şüarı islam dininə qarşı yönəlmiş məkrli oyunların nə qədər təhlükəli olduğunu və uzun müddətə hesablandıını göstərir.

Statistik məlumatlar isə islam dininin beynəlxalq terrorizmdən çox uzaq olduğunu aydın şəkildə göstərir. Avropolun məlumatına görə, 2013-cü ildə Avropa İttifaqı məkanında törədilmiş 152 terror aktından cəmi 2-si dini motivlərlə bağlı olmuşdu. 2010-2015-ci illərin statistik rəqəmlərindən məlum olur ki, qeyd olunan beş il ərzində Avropa İttifaqı ölkələrində törədilmiş cinayətlərin yalnız 2 %-i "islam terrorçularının" payına düşür (31). Bu rəqəmlər müasir siyasi leksikanın tərkib hissəsinə çevrilmiş "islam terrorizmi" anlayışının nə qədər əsassıs olduğunu göstərir.

Kifayət qədər fakta əsaslanmadan, sadəcə təbliğat maşınından istifadə etməklə "islam terrorizmi" barədə fikirlərin məhdudiyyətsiz olaraq tirajlanmasında əsas məqsəd müsəlmanların timsalında "düşmən siması" yaratmaqdır. A. Zinovyevin qeyd etdiyi kimi, "islam terrorizmi tərəfindən qərb (xristian) sivilizasiyası üçün təhlükə ideologiyası ildırım sürəti ilə yarandı. Hətta sivilizasiyaların müharibəsi, guya müsəlman sivilizasiyasının xristian sivilizasiyasına qarşı müharibəsi haqqında danışmağa başladılar. Baxmayaraq ki, bu ideologiyanın yalan olduğu aydın idi (müsəlmanların mütləq çoxluğu terrorizmin əleyhinədir və xristianlarla döyüşməyə ümumiyyətlə hazırlaşmırlar), o, ABŞ-da uğur qazandı... Qloballaşmanın ikinci mərhələsində ABŞ-ın təcavüz obyekti müsəlman dünyası oldu..." (47, s. 581-582). Əvvəllər Qərb dünyasını birləşdirən "faşizm təhlükəsi", "kommunizm təhlükəsi"

kimi ifadələr “islam təhlükəsi” ifadəsi ilə əvəz olunmuş, kütləvi informasiya vasitələrində “islamofaşizm” termini dövriyyəyə gətirilmiş, “demokratik qüvvələrin” əleyhdarları olan “cihadçılar”, “xəlifəçilər” və s. qruplar formalaşdırılmış və meydana buraxılmışdır. A.V. Polosinin qeyd etdiyi kimi, “yaşıl bayraq altındakı reyncerlər” (“Əl-Qaidə”, “Taliban”) əvvəlcə Britaniya kəşfiyyatı, sonra isə Pakistan kəşfiyyatının köməyi ilə ABŞ-ın Mərkəzi Kəşfiyyat İdarəsi tərəfindən yetişdirilmişdir. Əgər Qərbin iştirakı olmasa idi, bu kiçik qruplar müsəlman hakimlərinin özləri tərəfindən çoxdan amansızcasına məhv edilərdi, ancaq onlar dünyanın yerdə qalan hissəsinə qarşı Böyük qloballaşma oyunu üçün lazım idi və buna görə də onları əzizlədilər, “əsil müsəlmanlar”, “mücahidlər” formasına girməkdə onlara kömək etdilər” (66).

Müasir dünyada islamofobiya siyasəti həyata keçirən Avropa ölkələri İnternetin imkanlarından geniş istifadə edirlər. Məlumdur ki, bu gün islam təşkilatlarına xidmət göstərən çoxlu sayda internet-server mövcuddur, lakin onların heç biri Əfqanıstanda, Misirdə, İraqda, Yeməndə, Livanda, Fələstində, Pakistanda, Suriyada və s. müsəlman ölkəsində deyil, Avropa ölkələrində, ABŞ-da və Avstraliyada yerləşir.

İnternet məkanda, konkret olaraq heç bir təşkilatı təmsil etməyən kifayət qədər sayt mövcuddur. Onlardan “Şəriət tərəfdarları”, “Xilafət”, “İslam dirçəlişi”, “Oyanış”, “Ümmənin dirçəlişi uğrunda”, “İslam çağrışı” və s. göstərmək olar. Bu saytlar bir-birinə yaxın olan islam təşkilatlarını birləşdirən şəbəkə rolunu oynayır. Məsələn, “İslam dirçəlişi” saytının birinci səhifəsində “Mühəccirlər”, “İslam Azadlıq Partiyası”, “Müsəlman-qardaşları”, “Sünnə Yolu”, “İslam Qrupu”, “HƏMAS”, “İslam Təşkilatı”, “Quran Yolu”, “Taliban”, “Şəriət Tərəfdarları” təşkilatlarının saytlarına giriş təqdim edilir. Beləliklə, qeyd olunan saytların çoxu xüsusi şəbəkələr əmələ gətirir və onlar birlikdə “Yaşıl İnternetsional” adı almışdır. Bu saytların hər birində cihadın nə olması, kimə qarşı yönəlməsi, onun nəyə görə və necə həyata keçirilməsi barədə məlumatlar olan xüsusi səhifələr vardır. Bundan başqa, “Jihad” sözü ilə axtarış verərkən, yuxarıda adları çəkilən saytların da daxil olduğu siyahı üzə çıxır, bu da İnternetdə cihadla bağlı xüsusi alt-şəbəkənin olduğunu göstərir (48). Beləliklə, Avropa ölkələri öz İnternet məkanlarında yaratdıqları şəbəkələr vasitəsilə, bir tərəfdən, islam dünyasına, müsəlman ölkələrinə qarşı təxribatlar törədir, münaqişə

ocaqları yaradır, digər tərəfdən isə, xüsusi təbliğat metodlarından istifadə etməklə, müsəlmanların qorxunc simasını yaradır, onları demokratiyadan uzaq, dağıdıcı qüvvə kimi təqdim edir, bütün bunları avropalıların yaddaşına, Qərb cəmiyyətinin ictimai şüuruna hopdurar və bu yolla da özlərinin geosiyasi və geoiqtisadi məqsədlərinə nail olmağa çalışırlar.

Radikal yönümlü islam təşkilatlarına və onlara xidmət göstərən internet-serverlərə ərazisində yer verən Avropa ölkələri sırasında Böyük Britaniya xüsusi yer tutur. “Mühəccirlər”, “İslam Qrupu”, “Müqəddəs müharibə”, “İslam Azadlıq Cəbhəsi”, “Silahlı İslam Qrupu”, “İslam Azadlıq Partiyası”, “Beynəlxalq İslam Cəbhəsi” kimi qeyri-leqal təşkilatlar məhz Böyük Britaniya ərazisində özlərinə yer tapmışlar. Bu ölkənin tele-radio şirkəti olan Bi-Bi-Si, Londonda fəaliyyət göstərən bu təşkilatların terrorçu qruplarla əlaqələrinin olduğunu bildirir. Məsələn, Londonun Finsberi-park rayonunda yerləşən, islamı qəbul etmiş və istefada olan britaniyalı zabitin rəhbərlik etdiyi məscidin ruhanisi, Əfqanıstan müharibəsi veteranı, döyüşlərdə qollarını və gözünü itirmiş Əbu-Həmzə əl-Məsri həm də “Şəriət tərəfdarları” virtual təşkilatın rəhbəri olmuşdu. Bu təşkilatın saytında, qeyd olunan məsciddə hərbi hazırlıq kurslarının təşkili barədə elanlar yerləşdirilirdi (48). 2014-cü ildə ABŞ-a ekstradisiya olunan Əbu-Həmzənin məhkəmə prosesində üzə çıxmışdır ki, o, Böyük Britaniya Təhlükəsizlik Xidməti Mİ5-in gizli agenti olmuşdur (28). Bu gün bütün dünyaya müsəlmanların yaratdığı terrorçu təşkilat kimi təqdim edilən İŞİD-in də Qərb ölkələrinin layihəsi olduğunu sübut edən kifayət qədər fakt mövcuddur. Məsələn, İngiltərə mətbuatının məlumatına görə, İŞİD-in cəlladlarından biri, Küveyt əsilli Britaniya vətəndaşı Məhəmməd Envazi də Mİ5-in nəzarəti altında olmuşdur (27). O, amerikalı juranlistlər Ceyms Foley və Steven Sotlof, britaniyalı yardım işçisi Devid Haynes, britaniyalı taksi sürücüsü Alan Henninq və amerikalı yardım işçisi Abdul-Rahman Kassiqin başlarını kəsmiş, yaponiyalı girovlar Haruna Yukava və Kenji Gotonu edam etmişdi (13). Bu və buna oxşar faktlar Avropa ölkələrinin islamofobiya siyasətinin miqyasına və məqsədlərinə işıq salmağa imkan verir.

Avropa dövlətlərinin islamofobiya siyasətinin regional səviyyəsi qitənin müsəlman icmalarının hüquqlarının məhdudlaşdırılması ilə xarakterizə olunur və

bunun guya təhlükəsizlik məsələləri ilə bağlı olduğu iddia edilir. 2001-ci il sentyabrın 11-də ABŞ-da baş vermiş terror aktlarından sonra bəzi ölkələrdə miqrasiya ilə bağlı qanunvericiliyin sərtləşdiyi müşahidə olunur. Böyük Britaniyada qəbul olunmuş qanunvericilik aktlarında (2001-ci il Terrorizmlə, cinayətkarlıqla mübarizə və təhlükəsizlik haqqında akt, 2002-ci il Vətəndaşlıq, immiqrasiya və sığınacaq haqqında akt və s.) milli təhlükəsizlik miqrasiya prosesləri ilə əlaqələndirilir (60, s. 108). 2003-cü ildə İtaliyada miqrantların ölkəyə gəlişini və onların naturalizasiyasını çətinləşdirən Bossi-Fini qanunu qəbul edildi (60, s. 115).

Bir sıra olkələrin qanunvericiliyində ayrı-seçkilik və ksenofobiya halları özünü açıq şəkildə büruzə verir. Məsələn, Yunanıstan konstitusiyasının 13-cü maddəsində qeyd olunur ki, "istənilən məlum din azaddır və onun ayinləri qanunun himayəsi altında sərbəst yerinə yetirilir". Növbəti 14-cü maddədə isə, "xristianlığın və ya digər istənilən məlum dinin təhqir olunmasının" yolverilməzliyi vurğulanır. Məlum dinlər dedikdə yunan hökuməti rəsmi olaraq pravoslav kilsəsini, Frakiya müsəlmanlarını və yəhudi icmasını tanıyır, digər dini təşkilatlar isə belə statusa malik deyil və bu səbəbdən də daşınmaz əmlaka sahib ola bilməzlər. Almaniya qanunvericiliyi dini təsisatları iki yerə bölür: publik-hüquqi korporasiyalar və digərləri. Publik-hüquqi korporasiyalar federal torpaqların maliyyə idarələri tərəfindən maliyyə yardımları alır və bu status onlara uzun müddət mövcud olmağa imkan verir. Müasir Almaniyada xristian konfessiyaları, hətta xırda icmalar və sektalar publik-hüquqi korporasiya statusuna malik olsalar da, ölkə əhalisinin 5 %-ni təşkil edən müsəlman icması kənarda qalmışdır. Fransada katolik, protestant, yəhudi dini məktəblərinə dövlət maliyyə vəsaiti ayırsa da, islam dini məktəbləri bundan məhrumdur. İtaliyada hökumətlə əlaqələri konkordatla tənzimlənməyən dini icmalar, o cümlədən müsəlman icmaları problemlərlə üzləşirlər. Ukraynada 2012-ci ildə qəbul olunmuş "Vicdan azadlığı və dini təşkilatlar haqqında" qanun dini təşkilatların qeydiyyatını çətinləşdirir, bir sıra dövlət orqanlarına onların fəaliyyətinə nəzarət etmək hüququ verir. Dini təşkilatlar dinc xarakterli tədbirləri belə dövlət orqanlarının icazəsi ilə keçirə bilərlər (88, s. 3-4).

Avropanın siyasi həyatında ifrat sağçı partiyaların getdikcə güclənməsi vəziyyətin müsbətə doğru dəyişəcəyinə ümidləri azaldır. 2014-cü il mayın 22-25-də Avropa Parlamentinə keçirilmiş seçkilərin nəticələri bunu söyləməyə əsas verir. Fransada sağ təmayüllü “Xalq Partiyası” 2009-cu il seçkilərində 6,3 % səs almışdısa, 2014-cü ildə bu göstərici 24,95 % olmuşdu. İngiltərədə “Müstəqillik Partiyası” 2009-cu ildə əldə etdiyi 16,09 % səsi 2014-cü ildə 26,77 %-ə çatdırmışdı. Almaniyada Avropa Parlamenti seçkilərinə ilk dəfə qatılan ifrat sağçı “Almaniya üçün Alternativ Partiyası” 7 % səs qazana bilmişdir. Oxşar vəziyyət qitənin digər ölkələrində də müşahidə olunur. Yunanıstanda “Qızıl Şəfəq Partiyası” 9,38 %, Avstriyada “Azadlıq Partiyası” 19,7 %, Macarıstanda “Yobbik Partiyası” 14,68 % (2009-cu ildə 14,77 %), Danimarkada “Xalq Partiyası” 26,6 % (2009-cu ildə 14,8 %) səs qazana bilmişdi (15, s.34-35). Avropada ifrat sağçı partiyaların güclənməsi millətçiliyin, irqçiliyin, ksenofobiyanın, islamofobiyanın güclənməsi mənasını verir. Bu reallıq Avropa ölkələrinin rəhbərləri tərəfindən də etiraf olunur. Əvvəlcə Almaniya kansleri Angela Merkel, onun ardınca isə digər ölkələrin başçıları multikulturalizmin, çoxmədəniyyətliliyin sona çatdığını bəyan etmişlər. Fəaliyyətlərində xristian dəyərlərini, bir sıra hallarda faşizm elementlərini və simvollarını əsas götürən sağçı qüvvələrin qarşı çıxdıqları hədəflər sırasında islam dini və müsəlmanlar da vardır.

Avropa ölkələrinin islamofobiya siyasəti Azərbaycan və Türkiyəyə münasibətdə də özünü büruzə verir. Azərbaycan Avropa Şurasına qəbul edilərkən xristian-demokratlar bunun əleyhinə çıxış etmişdilər. Səbəb isə, bu ölkədə müsəlman əhalinin çoxluq təşkil etməsi olmuşdu. Avropa ölkələrinin dini ayrı-seçkilik siyasəti Türkiyəyə münasibətdə də özünü göstərir. Onun Avropa İttifaqına üzv qəbul edilməsi prosesi süni surətdə uzadılır, bəzən bunun Türkiyənin müsəlman ölkəsi olması ilə bağlılığı açıq söylənilir. 2000-ci ildə Avropa Konstitusiya layihəsi hazırlanan zaman Türkiyə layihəni hazırlayacaq namizəd ölkələr sırasında idi, lakin bu prosesə rəhbərlik edən, Fransanın keçmiş prezidentlərindən olmuş Valeri Jiskar de Esten Türkiyənin müsəlman ölkəsi olduğunu və Avropaya daxil olmadığını bəyan etmiş, bununla da formal müzakirələr üçün zəmin yaratmışdı. Almaniyanın keçmiş kanslri Helmut Kolun Avropa İttifaqını “xristian klubu” adlandırması, hazırlanan

konstitusiya layihəsinə xristian dünyagörüşü modelinə uyğun maddələrin daxil edilməsinin təklif olunması (7, s. 29) və s. bu kimi hallar Avropada dini dözünsüzlüyün mövcudluğunun və bunun rəsmi səviyyədə də dəstəklənməsinin bariz nümunəsidir. Azərbaycan torpaqlarının 20 %-ni işğal etmiş Ermənistanın Avropa ölkələri tərəfindən təcavüzkar kimi tanınmamasında da xristian təssübkeşliyi müəyyən rol oynayır və bu məqam dolayısı ilə avropalıların islamofobiya siyasətinin elementi olaraq qiymətləndirilməlidir.

Bütün bunlara etiraz edən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin IV Bakı Beynəlxalq Humanitar Forumunda çıxışı zamanı qeyd etmişdi: “Hər bir ölkə o biri ölkəyə hörmətlə yanaşmalıdır. Hər bir ölkə o biri ölkənin seçiminə də hörmətlə yanaşmalıdır. Beynəlxalq müstəvidə həm dinlərarası dialoq, humanitar sahə – bütün bunlar bir-biri ilə bağlıdır” (111).

Beləliklə, Avropa ölkələri özlərinin islamofobiya siyasətini həm beynəlxalq, həm də regional səviyyədə həyata keçirirlər. Avropalılar islam dünyasında siyasi və iqtisadi maraqlarını təmin etmək məqsədilə ssenarilər qurur, radikal islamçılara öz ərazilərində yer verir, onları təşkilatlandırır və islam bayrağı altında müsəlman dünyası əleyhinə fəaliyyətə sövq edir, eyni zamanda bu qrupların qəddarlığını əsas götürərək islamofobiya siyasətini genişləndirirlər. Avropa ölkələrinin islamofobiya siyasətinin regional mərhələsinə gəldikdə isə, bu özünü miqrantlara qarşı qanunvericiliyin sərtləşdirilməsində, islam dininə qarşı ayrı-seçkilikdə, Azərbaycan və Türkiyəyə münasibətdə özünü göstərir. Regionda ifrat sağçı qüvvələrin güclənməsi bu siyasətin daha da dərinləşməsinə səbəb olur.

# NƏTİCƏ

İslamofobiya faktoru mürəkkəb və dəyişkən olduğu qədər tarixidir. İslam dininin avropalılar tərəfindən səhvən və əsassız olaraq fundamentalistlərin, cihadçıların döyüşkən dini kimi təqdim olunması tarixin müxtəlif mərhələlərində baş vermiş hadisələrlə (Ərəb Xilafətinin Avropa istiqamətində genişlənməsi, xaç yürüşləri, Osmanlı dövlətinin işğalları və İstanbulun onların əlinə keçməsi, avropalıların Şərqdə müstəmləkə işğalları, XX əsrdə müsəlman işçi-miqrantların Avropaya üz tutması və s.) bağlıdır. Nəticədə, bir tərəfdən, islam dini Avropanın dini xəritəsində yer almış, burada müsəlman icmaları formalaşmış, digər tərəfdən isə, avropalıların ictimai şüurunda müsəlmanların təhrif olunmuş siması yaranmış, islam dini ekstremizm, radikalizm, terrorizm və s. bu kimi mənfi hallarla assosiasiya olunmağa başlanılmış, bu da öz növbəsində islamofobiyanın meydana gəlməsinə səbəb olmuşdur.

Hal-hazırda Avropada müsəlmanların sayı milyonlarla ölçülür. Onların əsas hissəsini İkinci dünya müharibəsindən sonra iş dalınca bura gələnlər təşkil edir. Qərbi Avropa ölkələrində sənayenin sürətli inkişafı, işçi qüvvəsinə olan tələbatın fasiləsiz olaraq artması, cəmiyyətdə liberal dəyərlərin qərar tutması müsəlmanların miqrasiyasını stimullaşdırırdı. Bunun məntiqi nəticəsi olaraq, “qoca qitədə” ən böyük müsəlman icmaları sənaye cəhətdən daha çox inkişaf etmiş Almaniya, Fransa, Böyük Britaniya, Hollandiya, Belçika kimi ölkələrdə formalaşmışdır.

Müsəlmanların məskunlaşma coğrafiyasında Avropa ölkələrinin Şərq ölkələri ilə tarixi əlaqələrinin təsiri özünü göstərir. Belə ki, ərəblər daha çox Fransada, Hindistan və Pakistandan çıxanlar Böyük Britaniyada, türklər Almaniyada yaşamağa üstünlük verirlər.

Avropa müsəlmanlarının müəyyən hissəsi yaşadıqları ölkənin vətəndaşlığını əldə etməyə nail olmuşlar, bu da onlara həmin ölkənin siyasi və ictimai həyatında iştirak etməyə, təşkilatlanmağa imkan verir. Bu gün Avropada yüzlərlə məscid, müsəlmanlar tərəfindən təsis olunmuş, siyasi, dini, yardım, mədəni-maarif xarakterli təşkilatlar mövcuddur.

Müsəlmanlar Avropa ölkələrinin iqtisadi və mədəni həyatında fəal iştirak edirlər. Onların müəyyən hissəsi sahibkarlıq fəaliyyəti ilə məşğul olur, istehsal və xidmət sahələrində çalışırlar, bir qismi Avropanın elm və mədəniyyət müəssisələrində fəaliyyət göstərir. Bəzi ölkələrdə müsəlmanlar siyasi cəhətdən də diqqəti cəlb edir. Almaniya, Fransa və Böyük Britaniyada keçirilən seçkilərdə müsəlman seçicilərin mövqeyi son nəticələrə təsir göstərmək gücündədir və bu səbəbdən də onların səsləri uğrunda mübarizə ildən-ilə sərtləşir.

Etnik və dini icmalar formasında yaşamaq Avropa dəyərlərini mənimsəməkdə, Qərb cəmiyyətinə inteqrasiya olunmaqda müsəlmanlar üçün çətinliklər yaradır. Avropalıların davranışı da bu prosesə mane olur, çünki region ölkələrində inteqrasiyanın müxtəlif modellərinin tətbiq olunduğunu söyləmələrinə baxmayaraq, onlar müsəlmanları inteqrasiya etməyə deyil, assimilyasiyaya uğratmağa daha çox cəhd edirlər. Avropa ölkələri liderlərinin multikulturalizmin sona çatması haqqında söylədikləri fikirlər də Qərb cəmiyyətinin çoxmədəniyyətliliyi qəbul etməyə hazır olmadığının göstəricisidir. Belə yanaşma regionda islamofobiyanın genişlənməsi üçün münbit şərait yaradır.

Avropada islamofobiya təkcə tarixi keçmiş və müsəlmanların Qərb cəmiyyətinə tam inteqrasiya oluna bilməmələri ilə bağlı deyildir. Bu mənfi hadisəni meydana gətirən digər səbəblər də mövcuddur. Bu sırada Avropa ölkələrinin üzləşdiyi demoqrafik böhran və qitənin getdikcə müsəlmanlaşdığını iddia edən avropalıların narahatlığı, Qərb cəmiyyətinin üzləşdiyi və dərinləşməkdə olan ideoloji boşluq, "sivilizasiyaların toqquşması" kimi real əsası olmayan təhrikedici ideyaların ortaya atılması, kütləvi informasiya vasitələrində islam dini, müsəlmanlar əleyhinə təbliğatın intensivləşməsi, düçar olduqları sosial-iqtisadi problemlərin uğurlu həllini tapa bilməyən siyasətçilərin bunun səbəblərini kənarda, o cümlədən miqrantlarda axtarmaları, irqçilik və millətçilik mövqeyində duran ifrat sağçı partiya və təşkilatların Avropada söz sahibinə çevrilmələri və s. vardır. "Qoca qitədə" islamofobiya özünü müsəlmanlara qarşı ayrı-seçkilikdə, onların fiziki təzyiqlərə və hücumlara məruz qalmasında, islam dininin və Məhəmməd peyğəmbərin təhqir olunmasında, məscidlərin fəaliyyətinə məhdudiyyətlər qoyulmasında büruzə verir.

İslamofobiyanın genişlənməsinə rəvac verən hərəkətləri törədən radikal müsəlman təşkilatlarının yaradılması və onların cinayətkar fəaliyyətinə dəstək verilməsi Avropa dövlətlərinin siyasətində əsas yerlərdən birini tutur. Qərb ölkələri məhz həmin qüvvələrin hərəkətlərini bəhanə gətirərək müsəlman ölkələrinə müdaxilə edir və bu yolla özlərinin qlobal maraqlarını qoruyurlar. Demokratik dəyərlərə sadiq olduqlarını bəyan etmələrinə baxmayaraq, Avropa dövlətləri miqrantlara, xüsusilə də müsəlmanlara qarşı qanunvericiliyi sərtləşdirir, xarici siyasətdə hiss olunacaq dərəcədə xristian təssübkeşliyi nümayiş etdirirlər. Bu özünü Azərbaycan torpaqlarını işğal etmiş, dəhşətli faciələr törətmiş xristian Ermənistana qarşı heç bir tədbirin görülməməsində, Türkiyənin xristian klubu adlandırılan Avropa İttifaqına gedən yolunu bağlamaq üçün onun müsəlman ölkəsi olduğunun vurğulanmasında göstərir. Şübhəsiz ki, problemlərə belə yanaşma da islamofobiyanın təzahür formalarından biridir.

Tədqiqat prosesinin yekunu olaraq aşağıdakı təklifləri irəli sürmək olar:

-islamofobiyanı və onu doğuran səbəbləri aradan qaldırmaq üçün multikulturalizmin, çoxmədəniyyətliliyin təbliğinə diqqəti artırmaq;

- islamofobiyanın dinlə bağlı olduğunu nəzərə alaraq, bütün səviyyələrdə qarşılıqlı anlaşmaya nail olmaq üçün xristian və islam dini nümayəndələrinin iştirakı ilə addımlar atmaq;

- islam dininin sülhpərvər xarakterinin, onun humanist dəyərlərinin təbliği istiqamətində səyləri gücləndirmək;

- Azərbaycan – Avropa əlaqələrinin genişləndirilməsinə diqqət yetirmək, hər iki tərəfin elm-təhsil və mədəniyyət ocaqları arasında əməkdaşlığı dərinləşdirmək;

- Avropa ölkələrindəki azərbaycanlılarla, diaspora təşkilatları ilə işi intensivləşdirmək, onların, etnik və dini indentikliyi saxlamaqla, Avropa cəmiyyətinə inteqrasiya olunmalarına yardım etmək.

# İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT SİYAHISI

**Azərbaycan dilində**

1. Abdullayev F. Sivilizasiyalararası münasibətlərdə miqrasiya geosiyasətinin təzahürü // Strateji təhlil, 2016, № 1-2 (15-16), s. 191-204

2. Əliyev Heydər. Müstəqilliyimiz əbədidir: cıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, məktublar, məruzələr, müraciətlər, fərmanlar. Otuz yeddinci kitab: noyabr, 2001 - mart, 2002. Bakı: Azərnəşr, 2011, 520 s.

3. Həbibbəyli Ə. Multikultural dəyərlər "ilkin" və "sonrakı" müxtəliflik prizmasında // Strateji təhlil, 2016, № 1-2 (15-16), s. 9-20

4. Hüseynov S. Azərbaycanda dini tolerantlıq mədəniyyəti: tarix və müasirlik. Bakı, "Təknur", 2012, 176 s.

5. ISESCO Baş Konfransının XII sessiyasının açılışında İlham Əliyevin nitqi // http://president.az/mobile/articles/17313

6. İsmayılov M. İslamofobiya: kimdir günahkar? // Dövlət və din, 2015, № 10 (39), s. 7-11

7. Mehdiyev R. Avropa strukturlarının deqredasiyasının mənbələri haqqında və ya Azərbaycana münasibətdə "ikili standartlar" siyasəti. Elektron resurs: http://azertag.az/store/files/file/RAMIZ%20MEHDIYEV.pdf

8. Mirzəzadə R. Multikulturalizm siyasəti: Din və Gender Dialoqunda. Bakı, "Təknur", 2013, 168 s.

9. Müqəddəs Ramazan ayı münasibətilə iftar mərasimində Azərbaycan Prezidenti İlham Əliyevin çıxışı. "Xalq" qəz., Bakı, 2010, 8 sentyabr

10. Nuriyev N. İslamofobiya – antiislam siyasətinin təzahürü // Dövlət və din, 2015, № 4 (33), s. 47-51

11. Prezident İlham Əliyev: Biz hansı Avropaya – "Müsəlmanlara stop" deyənlərəmi inteqrasiya etməliyik?!

12. Prezident İlham Əliyev: Son 10 il ərzində Azərbaycan iqtisadi inkişaf baxımından dünyada ən sürətlə inkişaf edən ölkə olub. Elektron resurs: http://az.trend.az

13. Rüstəm. İŞİD-in başkəsəni haqqında bilinməyən faktlar. Elektron resurs: http://teleqraf.com

14. Ümumdünya insan hüquqları bəyannaməsi. http://migration-azerbaijan.info/images/pdf

**Türk dilində**

15. Aktaş M. Avrupa’da yükselen islamofobi ve medeniyetler çatişmasi tezi // Ankara Avrupa Çalışmaları Dergisi, 2014, cilt 13, № 1, s. 31-54

**İngilis dilində**

16. Allievi S. Mosques in Europe: Real problems and false solutions. // Mosques in Europe: Why a solution has become a problem. London, Network of European Foundations, 2010, c. 13-51

17. Britain's Muslims: an Overview. London, Media Guide British Council, 2006, 73 p.

18. Brussels attacks – implications and outlook. A drum cussac global view. 23 March 2016, 15 p.

19. Charter of the United Nations. http://www.un.org/en

20. König D. Arabic-islamic views of the Latin West: tracing the emergence of Medieval Europe. Oxford, Oxford University Press, 2015, 436 p.

21. Goldberg A. Islam in Germany // Islam, Europe's Second Religion: The New Social, Cultural, and Political Landscape // Ed. by Sh. T. Hunter. Praeger. Westport: CT, 2002. p. 29–51

22. Islam and Identity in Germany. International Crisis Group // Europe Report, № 181, 14 March 2007: http://www.crisisgroup.org

23. Leveau R., Hunter Sh. T. Islam in France // Islam, Europe's Second Religion: The New Social, Cultural, and Political Landscape. Westport, CT. 2002. p. 3–29

24. Mosques in the West. 2007 // http://www.economist.com

25. Muslims in European Politics. http://www.euro-islam.info

26. Muslim Networks and Movements in Western Europe. http://www.pewforum.org

27. Robinson M. “'If he's a "beautiful, kind man", why is he killing innocent civilians? He's a monster': Brother of British hostage Alan Henning blasts the Jihadi John apologists who blamed MI5 for radicalising executioner”. Daily Mail, 2015, 26 February

28. Sherwell P. Abu Hamza “secretly worked for MI5' to 'keep streets of London safe”. The Telegraph, 2014, 7 may

29. The black Friday Paris attaks. https://www.ict.org

30. Treaty of Lisbon // Official journal of the European Union. 2007, volume 50, p. 1-271

**Rus dilində**

31. Акберов А. Исламофобия на Западе: истинные причины и цели. Часть первая. Электронный ресурс: http://atsam.org

32. Акберов А. Исламофобия на Западе: истинные причины и цели. Часть вторая. Электронный ресурс: http://atsam.org

33. Ангенендт С. Мусульмане, интеграция и безопасность в Европе // Ислам в современном мире, 2013, № 3-4, с. 27-32

34. Беккин Р.И. Исламские финансовые институты и инструменты в мусульманских и немусульманских странах: особенности и перспективы развития. Автореферат диссертации на соискание ученой степени доктора экономических наук. М., 2009, 49 с.

35. Бородай С.Исламские организации в странах Европы // Ислам в современном мире, 2013, № 3–4, с. 39-58

36. В Германии открылся первый исламский банк. Электронный ресурс: https://lenta.ru/news

37. В Дании наградили автора карикатур на пророка Мухаммеда. Электронный ресурс: http://www.bbc.com/russian/

38. Во Франции открылся первый исламский банк. Газ. «Новые известия», 2015, 1 сеитября

39. Всемирная конференция по борьбе против расизма, расовой дискриминации, ксенофобии и связанной с ними нетерпимости. Декларация и

Программа действий. Нью-Йорк, Департамент Общественной Информации Организации Объединенных Наций, 2002, 125 с.

40. Горак-Сосновска К. Мусульмане в Европе: различные сообщества, один дискурс? Анализ перспектив Центральной и Восточной Европы. // Ислам в современном мире. 2012, № 3–4, с. 73-83

41. Горят мечети. Митинги протестов против поджогов. Электронный ресурс: http://inosmi.ru/

42. Дискриминация мусульман. Электронный ресурс: http://parstoday.com/

43. Добров Д. Мусульмане в Европе — сколько их? Электронный ресурс: http://inosmi.ru

44. Долгов Б.В. Мусульманский ренессанс во Франции: Итоги и перспективы. // Актуальные проблемы Европы. 2015. № 4. с. 112-140

45. Европа: сердце христианства перед лицом секуляризации и исламизации. Электронный ресурс: http://demoscope.ru/weekly

46. Захарченко А. Исламские общества внутри Евросоюза? Электронный ресурс: http://www.intertrends.ru

47. Зиновьев А. Русская трагедия. М., АЛГОРИТМ: ЭКСМО, 2008, 608 с.

48. Игнатенко А.А. Зеленый Интернетционал. Всемирное исламистское движение в преддверии XXI века приобретает парадоксальные формы. "Независимая газета", 24 марта 1999 г.

49. Игнатович А. Роль СМИ в интеграции мусульман в Великобритании (2001 — начало 2011 гг.) // Журнал международного права и международных отношений 2011, № 2, s. 36-40

50. Исламские организации Европы. 2014. Электронный ресурс: http://yardem.islamtat.ru

51. Исламские финансы Великобритании. Электронный ресурс: http://www.tapb.ru/

52. Кардини Ф. Европа и ислам: история непонимания. Санкт-Петербург, «Александрия», 2007, 332 с.

53. Киршбаум Э. Германия пытается обуздать вал поджогов лагерей беженцев. Электронный ресурс: http://inosmi.ru/world

54. Ключников Б. Исламофобия. Наш современник, 2011, № 6, с. 217-228

55. Кондратьева Т.С. Мусульмане в Великобритании: социализация или обособления? // Актуальные проблемы Европы. Сб. науч. тр. М., ИНИОН, 2008, № 4, с. 61-95

56. Корогодов И. Роль исламских организаций в интеграции мусульман в западноевропейское общество // Журнал международного права и международных отношений, 2007, № 3, с. 70-74

57. Куприянов А. Немного ненависти, сэр. Электронный ресурс: http://alternathistory.com

58. Малахов В.С. Интеграция мигрантов: концепции и практики. М., Фонд «Либеральная миссия», 2015, 272 с.

59. Наиболее резонансные случаи нарушения прав человека в отдельных странах мира. Министерство Иностранных Дел Республики Беларус, 2014, 93 с.

60. Нетесова Ю. Политика стран Европы и радикализация мусульманских общин. // Космополис, 2008, № 3(22), с. 104-123

61. Об осквернении мечетей. Электронный ресурс: http://pravorf.org/index

62. Овечкина Н.И. Этнический и религиозный аспекты развития человечества. // Идеи и идеалы, 2015, т. 2, № 4(26), с. 107-116

63. Оришев А.Б. Численность мусульман в Европе: прогнозы экспертов. // Международный журнал прикладных и фундаментальных исследований. 2015, № 3, с. 106-109

64. Понкин И.В. Ислам во Франции. М.: Издательство научного центра довузовского образования, 2005, 196 с.

65. Повразнюк К. Роль мусульманских организаций в сообществах Великобритании, Германии, Франции и Италии. Электронный ресурс: http://www.politex.info

66. Полосин А.В. Анализ причин исламофобии и рекомендации по её преодолению в российском обществе. Электронный ресурс: http://www.islam.ru

67. Пономаренко А.В. «Исламский фактор» в миграционных процессах в Западной Европе на примере Великобритании, Германии и Франции. Вестник Российского университета дружбы народов. Серия: Всеобщая история, 2012, № 3, с. 49 - 61

68. Потемкина О.Ю. Иммиграционная политика Европейского союза: итоги и новые вызовы. // Миграционные проблемы в Европе и пути их решения. М.: Ин-т Европы РАН, 2015, с. 10-27

69. Почта Ю. М. Ислам и политика. М. , РУДН, 2008, 135 с.

70. Роль и место исламских партий в европейской политике. Электронный ресурс: http://bintel.com.

71. Саррацин Т. Германия: самоликвидация. М., Рид Групп, 2012, 400 с.

72. Соединенное Королевство Великобритании и Северной Ирландии. Электронный ресурс: http://umma.ua/ru/country/

73. Сюкияйнен Р.Л. Ислам и мусульманские меньшинства в Европе: противостояние правовых культур. Ишрак: Ежегодник исламской философии. М., Восточная литература, 2012, № 3, с. 486-513

74. Туманова К. А. Проблема интеграции мусульманских общин в Германии на современном этапе. Электронный ресурс: http://novist.history.spbu.ru/trudy_kafedry/

75. Турецкие общины в Европе. Электронный ресурс: http://umma.ua/ru

76. Тхор В. Особенности формирования политической идентичности Британских мусульман // Право и управления. XXI век. 2014, № 1 (30), с. 144-149

77. Улькю Х. История ислама. Стамбул, Челик Йайыневи, 2015, 544 с.

78. Фаллачи О. Ярость и гордость. М., Вагриус, 2004, 159 с.

79. Фомичёва, Е. Европейские ценности и их кризис http://msps.su

80. Харитонов И.Н. Проблемы интеграции иммигрантов в странах Западной Европы // Социологический алманах, 2011, № 2, с. 370-375

81. Хенкин С.М., Кудряшова И.В. Интеграция мусульман в Европе: политический аспект. Электронный ресурс: http://demoscope.ru/weekly

82. Хрусталев И.М. Этническое предпринимательство мусульманских диаспор в странах Западной Европы // Вестник МГИМО, 2011, № 2, с. 188-192

83. Цуркан А. Европа: исламский радикализм и модернизация религии // Современная Европа. 2014, № 2, с. 131-142.

84. Четверикова О. Миграционный кризис в Европе и его заказчики (I). Электронный ресурс: http://www.fondsk.ru/news

85. Четверикова О. Миграционный кризис в Европе и его заказчики (II). Электронный ресурс: http://www.fondsk.ru/news

86. Шарапова И.Л. Роль политической карикатуры во Франции как катализатора политической борьбы // Вестник Омского Университета, 2013, № 3, s. 162-164

87. Шевченко О.М. Формирование и виды ксенофобии в эпоху позднего модерна // Гуманитарные и социальные науки, 2013, № 5, s. 89-96

88. Энгель В. Доклад "проблемы ксенофобии, дискриминации и агрессивного национализма в европе" (январь 2014 - июнь 2015 гг.). Афины-Лондон-Берлин-Париж-Москва-Неаполь-Краков-Будапешт-Киев-Амстердам, 2015, 40, с. Электронный ресурс: http://www.osce.org/ru

89. Юрьевна Д.С. Философско-культурулогические проблемы взаимодействия коренных обществ стран Северной Европы с иммигрантами в контексте процесса исламизации // Общество: философия, история, культура, 2016, № 5, s.32-37